Xalqın qəzeti!

# Xalq qəzeti

№ 66 (31035) 18 aprel 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Çevik və balanslı diplomatiya ölkəmizə beynəlxalq nüfuz, mötəbər mövqe qazandırır

## Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

## Azərbaycan lideri Antalyada Diplomatiya Forumunun açılış mərasimində



**Aprelin 17-də Türkiyənin Antalya şəhərində 5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan Prezidenti 8 il əvvəl aprelin 18-də Zəfər andı içmişdi



Səhifə ⇨ 5

## Cənubi Qafqazda uzunmüddətli sabitliyin gələcəyi




Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Cənubi Qafqazda sülh naminə atılan addımların bütün dünya üçün nümunə olmasını istədiklərini bildirib. O, məlum fikri İstanbulda keçirilən Parlamentlərarası İttifaqın 152-ci Assambleyasında iştirak edən müxtəlif ölkələrin parlament sədrlərini qəbul edərkən səsləndirib.

Tarixi görüşdə səslənən qətiyyətli sözlər regionun siyasi xəritəsinin mühüm şəkildə dəyişməsini bəyan edir. "Cənubi Qafqazda sülh və rifahın hökm sürəcəyi gələcəyin qurulması istiqamətində atılan addımları alqışlayırıq və qeyd edilən nailiyyətin bütün dünya üçün nümunə olmasını istəyirik", – deyə Ərdoğan vurğulayıb. Ermənistan parlamentinin spikeri Alen Simonyan isə onilliklər davam edən düşmənçilikdən sonra İrəvan və Bakı arasında "etimadın formalaşmasında yeni eranın" başlandığını bildirib. Simonyan, həmçinin Türkiyəni regionda sabitliyin təmin olunması prosesinə qoşulmağa rəsmi şəkildə dəvət edərək, qonşu dövləti "sülhün qurulması prosesində tamhüquqlu tərəfdaş" olmağa çağırıb.

*(ardı 5-ci səhifədə)*

## Ərdoğanın mesajı: dünyanın legitimlik böhranı və ...Azərbaycan amili



Səhifə ⇨ 6

## Birinci rübün iqtisadi yekunları



**2026-cı ilin yanvar-mart aylarında Azərbaycanda fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 29,7 milyard manat məbləğində ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, hesabat dövründə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər istehsalı 1,2 faiz azalsa da, qeyri-neft-qaz sektorunda 0,2 faiz artım baş verib.**

*(ardı 10-cu səhifədə)*

## TDT və yeni çağırışlar



Səhifə ⇨ 9

## Siyasi ambisiyadan fantastik ssenarilərə



Səhifə ⇨ 6

## Təqsir yağışdadır, yoxsa məskunlaşmaya baxışda?



Səhifə ⇨ 11

## Erməni quldurların Kəlbəcərdə törətdiyi müharibə cinayəti



Səhifə ⇨ 13

## 3 ayda 7 milyard kilovat-saat elektrik enerjisi



Səhifə ⇨ 10

## Hər fəslin əsl nemətləri…



Səhifə ⇨ 11

# Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

## Azərbaycan lideri Antalyada Diplomatiya Forumunun açılış mərasimində
















*(əvvəli 1-ci səhifədə)*

Tədbirdə Türkiyənin xarici işlər naziri Hakan Fidan açılış nitqi ilə çıxış etdi.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi. Prezident Rəcəb Tayyib Ərdoğan çıxışında Türkiyə ilə Ermənistan arasında davam edən normallaşma prosesinin Azərbaycanla əlaqəli şəkildə aparıldığını vurğuladı. Türk Dövlətləri Təşkilatından danışan Türkiyə Prezidenti qurumun fəaliyyətinin daha da inkişaf etdiyini bildirərək dedi: “Bu ilin son aylarında ölkəmizdə təşkil edəcəyimiz XIII Türk Dünyası Zirvəsində yeni dövrdə sədrliyi Azərbaycandan təhvil alacağıq. İnşallah, bu müddətdə təşkilatımızın beynəlxalq fəaliyyətini və nüfuzunu daha da artıracağıq. Azərbaycanla əlaqələndirilmiş şəkildə qonşumuz Ermənistanla normallaşma prosesində addım-addım irəliləyirik. Bu minvalla Asiya ilə Avropa arasındakı ticarətdə ən etibarlı marşrut olan və Xəzərdən keçən Şərq-Qərb - Orta Dəhliz təşəbbüsünə də güclü dəstəyimiz davam edir”.

*

Qeyd edək ki, geosiyasi gərginliklər, dəyişən güc balansları, ticarət maneələri və çoxtərəfliliyə artan təzyiq fonunda cari qlobal mənzərənin proqnozlaşdırılması getdikcə daha çətin xarakter alır. Beşinci Forumun mövzusu “Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək” riskləri və imkanları müəyyənləşdirməyi, strategiyalar hazırlamağı və əldə olunan razılaşmaları əməli addımlara çevirməyi tələb edir.

Builki forumda 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 dövlət və hökumət başçısının müavini, 39-u xarici işlər naziri olmaqla 50-dən artıq nazir, həmçinin 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla ümumilikdə 500-dən çox yüksəksəviyyəli şəxs iştirak edir.

Forum çərçivəsində liderlərin panelləri də daxil olmaqla, 40-dan çox tədbir və sessiyanın keçirilməsi nəzərdə tutulur.

# Prezident İlham Əliyevin Suriyanın keçid dövrü Prezidenti ilə danışığı



**Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub.**

Söhbət zamanı Prezident İlham Əliyevlə Əhməd Əl Şaraanın ötən il Azərbaycana səfəri zamanı, həmçinin 4-cü Antalya Diplomatiya Forumu çərçivəsində görüşləri məmnunluqla xatırlandı.

Suriyada baş vermiş dəyişikliklərdən sonra ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı konkret addımların atıldığı vurğulandı.

Enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunularaq, bu xüsusda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçirilməsinin əhəmiyyəti və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verməklə ümumilikdə bu ölkənin inkişafında önəmi qeyd olundu.

Əhməd Əl Şaraa Azərbaycanın Suriyaya göstərdiyi dəstəyə görə dövlətimizin başçısına bir daha minnətdarlıq etdi.

Görüşdə ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı, əlaqələrimizin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların roluna toxunuldu.

Söhbət zamanı bölgədə yaranmış gərginlikdən narahatlıq ifadə olundu, münaqişənin diplomatik yolla həll edilməsinin vacibliyi vurğulandı.

Dövlətimizin başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət etdi.

Dəvət məmnunluqla qəbul olundu.

# Azərbaycan və Şimali Kipr prezidentlərinin görüşü



**Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Tufan Erhürmanla görüşü olub.**

Dövlətimizin başçısı Tufan Erhürmana Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti seçilməsi münasibətilə təbriklərini çatdırdı.

Tufan Erhürman təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Azərbaycan Respublikasının Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi daimi dəstəyə toxunuldu.

Prezident Tufan Erhürman buna görə dövlətimizin başçısına təşəkkür etdi.

Azərbaycan Prezidenti ölkəmizin həmişə Şimali Kipr Türk Cümhuriyyətinin yanında olduğunu deyərək, göstərilən dəstəyin gələcəkdə də davam etdiriləcəyini vurğuladı.

Söhbət zamanı bu ilin aprelində Azərbaycan Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi və Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin dostluq qrupları üzvlərinin Bakıda keçirilmiş 3-cü iclasının əhəmiyyəti qeyd edildi.

Görüşdə Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasının önəmi vurğulandı, həmçinin bir sıra sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparıldı.

# Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

## Azərbaycan və Moldova liderlərinin dialoqu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Antalyada Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.**

Söhbət zamanı dövlətimizin başçısı ilə Maya Sandunun Azərbaycanda və Moldovada, həmçinin beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşlər məmnunluqla xatırlandı.

Azərbaycan-Moldova münasibətlərinin perspektivləri müzakirə olundu, əlaqələrimizin inkişaf etdiyi vurğulandı, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından roluna toxunuldu.

Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı. Moldovanın xüsusilə enerjiyə ehtiyac duyduğu zamanda Azərbaycan tərəfindən nümayiş olunan dəstək bir daha yüksək qiymətləndirildi.

Maya Sandu vurğuladı ki, Moldovada yaşayan Azərbaycan icması ictimai-siyasi həyatda fəal iştirak etməklə bu ölkənin inkişafına öz töhfəsini verir.

Görüşdə dövlət başçıları qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apardılar.

## Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü




Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü keçirilib.

*AZƏRTAC*

## Azərbaycan Prezidenti Pakistanın Baş naziri ilə də görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də 5-ci Antalya Diplomatiya Forumu çərçivəsində Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşüb.

## Hikmət Hacıyev Diplomatiya Forumunun panel iclaslarında çıxış edib




**Aprelin 17-də Antalya Diplomatiya Forumu çərçivəsində "Dəyişən dünyada regional sahiblənmənin rolu" mövzusunda panel iclas keçirilib.**

İclasda Konqo Demokratik Respublikasının Prezidenti Felix Antoine Tshisekedi Tshilombo, Afrika İttifaqının dövrü sədri və Burundi Prezidenti Evariste Ndayişimiye, Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və El Salvador Respublikasının Vitse-prezidenti Felix Ulloa Jr. Duro Macutun mövzu ilə bağlı fikirləri dinlənilib.

Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz ölkələrinin münaqişələrdən çox diplomatiyaya üstünlük verdiyini, eyni zamanda, qeyri-sabitlik və qeyri-təhlükəsizlik əvəzinə, sabitliyi dəstəklədiklərini bildirib. "Məhz buna görə də biz bir çox regional əməkdaşlıq mexanizmlərində iştirak edirik. Bir tərəfdən NATO üzvüyük və Avropa İttifaqına namizəd ölkəyik. Digər tərəfdən isə Türk Dövlətləri Təşkilatı kimi yeni regional təşkilatlara, İslam ölkələri arasında əməkdaşlığın genişlənməsinə və regionumuzda daha güclü təhlükəsizlik strukturlarının qurulmasına çalışırıq", - deyə Vitse-prezident əlavə edib.

O bildirib ki, Türkiyə hər zaman dialoqu və diplomatiyanı münaqişədən üstün tutub. Müharibələr heç bir tərəf üçün faydalı deyil, ədalətli sülh isə hamı üçün xeyirlidir.

*(ardı 4-cü səhifədə)*

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 148-ci kitabı çapdan çıxıb

**Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq.**




Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır. Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 148-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2025-ci il sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında söyləyib.

Çoxcildliyin bu kitabında toplanmış materiallar 2025-ci ilin sentyabr-noyabr aylarını əhatə edir.

Bu nəşrə Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına işgüzar səfərinə, yüksəksəviyyəli müzakirələrdə iştirakına, keçirdiyi görüşlərə dair materiallar daxil edilib.

Oxucular yeni kitabda Azərbaycan Respublikası Prezidentinin Danimarkaya işgüzar səfəri, Avropa Siyasi Birliyinin Kopenhagendə keçirilmiş 7-ci Zirvə Toplantısının açılış mərasimində, həmin toplantının plenar sessiyasında iştirakı, həmçinin keçirdiyi görüşlər haqqında informasiyalarla tanış ola bilərlər.

Azərbaycan Prezidenti 2025-ci ilin oktyabr ayında MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Tacikistanda, Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misir Ərəb Respublikasında səfərdə olub. Prezident İlham Əliyev oktyabr ayında, həmçinin Qazaxıstana dövlət səfəri edib, Astanada "Orta Dəhlizin inkişafı" birgə layihəsinin təqdimat mərasimində iştirak edib, Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında çıxış edib. Səfər ərəfəsində isə dövlətimizin başçısı "Kazimform"a eksklüziv müsahibə verib. Bütün bunlar haqqında materiallar 148-ci kitabda yer alıb.

Çoxcildliyin bu kitabında Prezident İlham Əliyevin Azərbaycana rəsmi səfərə gəlmiş İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə görüşünə dair informasiya, Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılış mərasimində çıxışının mətni də verilib.

Oxucular bu kitabda Azərbaycan Prezidentinin Yevlax və Gəncə şəhərlərinə səfərləri, Gəncədə III MDB oyunlarının təntənəli açılış mərasimində iştirakı haqqında informasiyalar, dövlətimizin başçısının Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışının mətni ilə də tanış ola bilərlər.

Azərbaycan Prezidenti, həmçinin Cəbrayıla və Zəngilana səfərlər edib, Cəbrayıl rayonu Horovlu kəndinin sakinlərinə mənzillərin açarlarını təqdim edib, Cəbrayıl şəhər məscidinin, bu şəhərdə ikinci və üçüncü yaşayış komplekslərinin təməlini qoyub. Dövlətimizin başçısı Zəngilan rayonunun Ağalı kəndinin 2-ci mərhələsinin və Məmmədbəyli kəndinin açılış mərasimlərində iştirak edib, Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksində görülmüş işlərlə tanış olub, Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşüb. Bütün bunlar haqqında informasiyalar yeni kitabda toplanıb.

Bu kitaba Azərbaycan Prezidentinin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş tədbirdə çıxışının mətni də daxil edilib.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Milli Məclis Sədrinin İstanbul görüşləri



**Aprelin 17-də İstanbulda Parlamentlərarası İttifaqın 152-ci Assambleyası çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarova və Ermənistan parlamentlərinin sədri Alen Simonyan arasında ikitərəfli görüş keçirilib.**

Görüş zamanı iki ölkə arasında münasibətlərin normallaşması çərçivəsində sülh və sabitliyin gücləndirilməsi, eləcə də ticarət əlaqələrinin qurulması və genişləndirilməsi ilə bağlı son proseslər məmnunluqla qeyd edilib.

Söhbətdə PAİ Assambleyasının parlamentlərarası əməkdaşlıq üçün mühüm platforma kimi rolu vurğulanaraq, bu baxımdan qurumun Baş katibi Martin Çunqonqun Azərbaycan və Ermənistan parlamentlərinin sədrləri arasında dialoqun qurulmasında göstərdiyi səylər yüksək qiymətləndirilib, ona təşəkkür ifadə edilib.

Sədrlər 2025-ci ilin oktyabrında Cenevrədə baş tutmuş görüşdən sonra parlament nümayəndə heyətləri arasında beynəlxalq təşkilatlar çərçivəsində təmasları müsbət dəyərləndirib və bu təmasların davam etdirilməsi barədə razılığa gəliblər.



Görüşdə sədrlər iki cəmiyyət arasında etimadın daha da möhkəmləndirilməsi üçün konstruktiv parlament dialoqunun davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

*

**Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın 52-ci Assambleyası çərçivəsində Belçika Krallığı Federal Assambleyası Senatının sədri Vinsent Blondel ilə də görüşüb.**

Görüşdə iki ölkə arasında parlamentlərarası əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Diqqətə çatdırılıb ki, parlamentlər dialoq və qarşılıqlı anlaşmaya töhfə verən strukturlardır. Bu mənada, qarşılıqlı təmaslar maraq doğuran məsələlərin müzakirəsində xüsusi rol oynayır. Bu çərçivədə PAİ-nin xüsusi rolu vurğulanıb. Sahibə Qafarova bu gün Azərbaycanla Belçika arasında müxtəlif istiqamətlərdə, o cümlədən parlament sahəsində əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayıb.

S.Qafarova Ermənistan parlamentinin sədri ilə görüşünün də, əslində, qarşılıqlı etimadın gücləndirilməsinə yönəldiyini diqqətə çatdıraraq, parlament diplomatiyasının məhz belə məqsədlərə xidmət etməli olduğunu vurğulayıb.

*

**Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova Dominikan Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Alfredo Paçeko ilə də görüşüb.**

Görüşdə parlamentlərarası əlaqələrin inkişafı perspektivləri və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

*XQ*

# ADF 2026-da enerji problemləri müzakirə olunub



**Türkiyədə V Antalya Diplomatiya Forumunun (ADF 2026) birinci günü müzakirə olunan ilk mövzular qlobal enerji təchizatı və yaranan problemlər ilə bağlıdır.**

“Qlobal enerji xəritəsinin yenidən çəkilməsi: Təhlükəsizlik və qeyri-müəyyənlik” mövzusunda keçirilən panel iclasda Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar, Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Sloveniyanın ətraf mühit, iqlim və enerji naziri Bojan Kumer, Liviyanın neft və qaz naziri Xəlifə Abdulsadık və Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin Baş direktoru Françesko La Kameranın mövzu ilə bağlı fikirləri dinlənilib.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov çıxışı zamanı enerji təhlükəsizliyi artıq ümumi təhlükəsizlik mühitinin vacib məsələlərindən birinə çevrildiyini və onların hazırda böyük əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Nazir dünyanın tarixin ən ciddi böhran təhdidlərindən biri ilə qarşı-qarşıya olduğunu bildirərək deyib: “Əgər boğazdakı vəziyyətə baxsaq, görə bilərik ki, ümumilikdə gündə təxminən 12 milyon barel həcmində enerji qlobal təchizatdan kənarda qalır. Bunun müəyyən hissəsi Avropaya və Asiyaya yönəlir. Belə ki, mayeləşdirilmiş təbii qazın 8 faizdən çoxu, neft tankerlərinin 7 faizi, reaktiv yanacaq və dizelin isə 40 faizi həmin marşrut vasitəsilə Avropaya çatdırılır. Məhz buna görə də Avropa bu boğazda baş verən hadisələrə olduqca həssasdır”.

Energetika naziri neft ixrac edən ölkələrin bu böhranın təsirlərini dərindən hiss etdiyini vurğulayıb. “Bəzən yüksək qiymətlərlə bağlı belə bir təsəvvür yaranır ki, istehsalçı ölkələr bundan böyük qazanc əldə edir. Lakin reallıqda bu tam doğru deyil. Çünki adətən neft və ya karbohidrogen istehsal edən ölkələrin suveren sərvət fondları olur. Bu fondlar qlobal maliyyə bazarlarına və müxtəlif aktivlərə investisiya yatırır. Fond bazarları düşdükdə isə bu gəlirlər də azalır, eyni zamanda, idxal olunan enerji və digər sahələr də bundan təsirlənir. Nəticə etibarilə, qeyd etdiyim kimi, biz bəzən yüksək neft qiymətlərindən qazandığımızdan daha çoxunu fond bazarlarının enməsi səbəbindən itirə bilərik. Məhz buna görə biz həmişə istehsalçılar, istehlakçılar və neft-qaz sənayesi üçün vacib olan balanslı neft qiymətlərinin təmin olunmasına çalışan ölkə olmuşuq”, – deyə nazir əlavə edib.

Pərviz Şahbazov bildirib ki, Türkiyə ilə əməkdaşlığımız ölkələr qrupunun, tərəfdaş və qardaş dövlətlərin enerji təhlükəsizliyinə necə töhfə verə biləcəyinin çox yaxşı nümunəsidir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr Xəzər dənizini Bakı–Supsa kəməri vasitəsilə Qara dənizlə, Bakı–Tbilisi–Ceyhan, həmçinin Bakı–Tbilisi–Ərzurum layihəsi vasitəsilə Aralıq dənizi ilə birləşdirib.

“Bundan əlavə, uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizi tarixdə ilk dəfə olaraq Xəzər dənizini yeddi ölkə üzərindən İtaliyanın cənub hissəsi - Adriatik dənizi ilə birləşdirib. Bu, qlobal enerji sektorunun dayanıqlığını təmin etmək və enerji təhlükəsizliyini ən yaxşı şəkildə gücləndirmək üçün əməkdaşlığın necə qurulmalı olduğunun bariz nümunəsidir”, – deyə o əlavə edib.

Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar öz növbəsində geosiyasi gərginliklərin, müharibələrin və qiymət artımlarının enerji bazarlarına dərin təsir göstərdiyi bir vaxtda Türkiyə bu prosesi hazır və dayanıqlı enerji infrastrukturu ilə idarə etdiyini deyib. Nazir Türkiyə hökumətinin mənbə və marşrutların müxtəlifliyini artırmaq, infrastrukturu gücləndirmək, bərpaolunan enerji investisiyalarını sürətləndirmək və nüvə enerjisi vasitəsilə baza yükünü daimi təmin etmək məqsədilə hərtərəfli Yol Xəritəsini qətiyyətlə həyata keçirdiyini diqqətə çatdırıb.

Digər natiqlər qlobal enerji bazarlarında baş verən son proseslər barədə danışıb, mövcud vəziyyətin sistemlərin kövrəkliyini üzə çıxardığını qeyd ediblər.

*XQ*

# Agentlik sədri Xankəndidə qəbul keçirib

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov aprelin 17-də Qarabağ Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin inzibati binasında Xankəndi şəhəri, Xocalı, Ağdərə və digər rayonlardan olan vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.**

Müraciətlər əsasən suvarma suyu ilə təminat, subartezian quyularının qazılması, təmiri, bərpası, işə qəbul və digər məsələlərlə bağlı olub.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

*XQ*



# Hikmət Hacıyev Diplomatiya Forumunun panel iclaslarında çıxış edib




*(əvvəli 3-cü səhifədə)*

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ölkəmizin təşəbbüsü ilə həyata keçirilən enerji layihələrinin bu gün qlobal enerji təhlükəsizliyinə xidmət etməklə yanaşı, region ölkələrinin də maraqlarını təmin etdiyini vurğulayıb.**

Ermənistan–Azərbaycan münaqişəsinin həllinin regional baxımdan xüsusi əhəmiyyət daşıdığını vurğulayan Prezidentin köməkçisi bildirib ki, ölkəmiz bu prosesdə liderlik nümayiş etdirib və münaqişə artıq keçmişdə qalıb. Azərbaycan siyasi, hərbi və hərbi-siyasi vasitələrlə öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib.

H.Hacıyev regional sahiblənmənin Azərbaycan üçün fundamental prinsipləri və əsas sütunlarının regional çağırışları, problemləri özümüzün, eyni fikirdə olduğumuz bölgədəki tərəfdaşlarımızla birlikdə həll etmək olduğunu diqqətə çatdırıb.

Türkiyə–Azərbaycan ikitərəfli əməkdaşlığının regional sülh və təhlükəsizliyin mühüm sütunlarından biri olduğunu qeyd edən Prezidentin köməkçisi deyib: “Türkiyə–Azərbaycan əməkdaşlığı liderlərimiz tərəfindən imzalanan “Şuşa Bəyannaməsi” ilə müttəfiqlik səviyyəsinə yüksəldi. Biz bununla kifayətlənmədik. İkitərəfli əməkdaşlığı üçtərəfli modelə çevirdik və bununla da tam regional sahiblənməni həyata keçirdik. Burada Türkiyə–Azərbaycan–Gürcüstan əməkdaşlığı, Türkiyə–Azərbaycan–İran əməkdaşlığı mövcuddur və biz, həmçinin Mərkəzi Asiyadakı qardaşlarımıza da əl uzatmışıq. Üçtərəfli və ya çoxtərəfli formatlarda praktik əməkdaşlıq mexanizmi qurmuşuq və bu, bütün tərəflərin maraqlarına xidmət edir”.

Digər çıxışçılar qlobal idarəetmə strukturunun getdikcə daha çox qütbləşdiyi və parçalandığı bir dövrdə qeyri-müəyyənliklərin idarə olunmasının innovativ və gələcəyə yönələn yanaşmaları zəruri olduğunu bildiriblər. Bu kontekstdə regional sahibliyin ortaq çağırışların həllində əsas hərəkətverici qüvvələrdən biri kimi getdikcə daha çox əhəmiyyət qazandığı vurğulanıb.

Bildirilib ki, münaqişələrin idarə olunmasından iqtisadi əlaqəliliyin gücləndirilməsinə qədər geniş bir sahədə regional platformalar, qlobal mexanizmlərin yetərsiz qaldığı hallarda daha praktik və kontekstə uyğun həllər təqdim edə bilir.

*

**Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ADF2026 çərçivəsində keçirilən “Cənubi Qafqaz: Strateji mərkəz olmaq yolunda” mövzusunda panel sessiyada da çıxış edib.**

O deyib: “Biz uzun illər forumlara müharibə və münaqişə gündəmi ilə qatılırdıq, lakin indi artıq sülh gündəmi ilə gəlirik. Müharibə başa çatıb və Azərbaycan regionda sülh gündəliyinə tam sadiqdir. Azərbaycan bu istiqamətdə konkret addımlar ataraq, Ermənistan tərəfi ilə praqmatik əməkdaşlıq həyata keçirir və sülh gündəliyini real müstəviyə keçirir. Bu addımlar iki ölkə arasında etimadın möhkəmlənməsinə xidmət edir”.



Hikmət Hacıyev bildirib ki, artıq Ermənistan və Azərbaycan arasında ticarət əlaqələri formalaşmağa başlayır: “Uzunmüddətli perspektivdə regionda sülh və təhlükəsizliyi təmin edəcək yeni regional təhlükəsizlik arxitekturası qurulur. Gələcəyə baxaraq, Gürcüstan, Ermənistan və Azərbaycan arasında əməkdaşlıq imkanlarının genişləndiyi inklüziv Cənubi Qafqaz regionunu görürük”.

Hikmət Hacıyev ADF2026 çərçivəsində mətbuata açıqlamasında bildirib ki, Antalya Diplomatiya Forumu çərçivəsində müzakirə olunan əsas mövzulardan biri də regional məsuliyyət prinsipidir. Azərbaycan xarici siyasətində bu prinsipi tam şəkildə dəstəkləyir. Yəni regionun problemləri məhz bölgə ölkələri tərəfindən həll olunmalıdır.

O deyib: “Azərbaycan öz siyasətində regional liderlik, təşəbbüskarlıq, məsuliyyət, əməkdaşlıq və inteqrasiya prinsiplərini ardıcıl şəkildə tətbiq edərək Cənubi Qafqazda və onun hüdudlarından kənarda yeni geosiyasi reallıqların formalaşmasına nail olub. Bu reallıqlar çərçivəsində Ermənistan da regionda formalaşan yeni sülh gündəliyinin üstünlüklərini anlamağa başlayıb”.

Hikmət Hacıyev Azərbaycanın enerji, nəqliyyat və logistika siyasətini də xüsusi vurğulayıb. Bildirib ki, bu siyasət ölkənin enerji resurslarının dünya bazarına çıxarılması, regionda yeni əməkdaşlıq platformalarının formalaşması, mühüm nəqliyyat və logistika layihələrinin həyata keçirilməsinə səbəb olub.

*XQ*

# 248 mindən çox mina və partlayıcı sursat zərərsizləşdirilib



**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupunun üzvləri Ağdam rayonuna səfər ediblər.**

Səfər çərçivəsində Minatəmizləmə Agentliyi və İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri tərəfindən bir sıra əməliyyat sahələrinə baxış keçirilib. Nümayəndələr ANAMA tərəfindən Ağdam rayonunun Cəvahirli kəndində, Fövqəladə Hallar Nazirliyi tərəfindən Mərzili kəndində, həmçinin minatəmizləmə fəaliyyətinə cəlb olunmuş yerli şirkət tərəfindən Qızılkəngərli kəndi ərazisində icra edilən humanitar minatəmizləmə əməliyyatları ilə tanış olublar.

Sahə baxışları zamanı minatəmizləmə əməliyyatlarının təşkili, istifadə olunan texniki avadanlıqlar, sahələrdə mina və digər partlayıcı sursatlarla çirklənmə səviyyəsinə görə tətbiq edilən təmizləmə üsulları, eləcə də aşkar edilən partlayıcı sursatların partlayış yolu ilə zərərsizləşdirilməsi prosesi nümayiş olunub. Ərazilərdə mövcud çətinliklər, çirklənmə səviyyəsi, habelə işğaldan azad edilmiş ərazilərə təhlükəsiz və dayanıqlı qayıdışın təminatı məqsədilə minatəmizləmə prosesi ilə yanaşı icra edilən mina və digər partlayıcı sursatlarla yüksək səviyyədə çirklənmiş ərazilərin çəpərlənməsi fəaliyyəti barədə məlumat verilib.

Əməliyyat sahələrinə baxış prosesindən sonra İşçi qrupun Ağdam şəhərində iclası keçirilib.

İclasda çıxış edən Agentliyin İdarə Heyətinin sədri, İşçi qrupun rəhbəri Vüqar Süleymanov “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində həyata keçirilən humanitar minatəmizləmə tədbirləri barədə məlumat verib. 44 günlük Vətən müharibəsindən sonra 43 min 21 hektar ərazi Ağdam rayonunda olmaqla, işğaldan azad edilmiş ərazilərdə, ümumilikdə, 264 min 581 hektar ərazidə minatəmizləmə fəaliyyətinin aparıldığını, nəticədə 248 min 583 ədəd mina və digər partlayıcı sursat aşkar olunduğunu qeyd edib. Həmçinin müəyyən ərazilərin konservasiya edilərək çəpərlənməsi işlərinin gedişatına toxunan Vüqar Süleymanov, hazırda Ağdam, Füzuli və Cəbrayıl rayonları istiqamətində çəpərləmə işlərinin yekunlaşdığını, Xocavənd və Ağdərə rayonları ərazisində isə fəaliyyətin davam etdiyini diqqətə çatdırıb.

İşçi qrupun digər üzvləri təmsil etdikləri qurumlar tərəfindən ərazilərin minalardan təmizlənməsi istiqamətində görülmüş işlər barədə məlumat verib, qarşıda duran öhdəliklər müzakirə edilib.

İclasda aidiyyəti qurumların koordinasiyalı fəaliyyəti, resursların səmərəli səfərbər olunması və minatəmizləmə əməliyyatların planlı şəkildə icrasının təhlükəsiz qayıdışın təminatında həlledici rol oynadığı vurğulanıb.

*XQ*

# Azərbaycan Prezidenti 8 il əvvəl aprelin 18-də Zəfər andı içmişdi

## *Xalqımız bu mesajdan sonra hərb və siyasət tarixinə yeni səhifələr yazdı*

**Biz... istədiyimizə nail olacağıq. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaradılsın.**

***Azərbaycan Prezidenti İlham Əliyevin 18 aprel 2018-ci il tarixli andiçmə mərasimindəki nitqindən.***



Əslində, biz həmin seçkilərə qədər də dünyanın yeni tarixinə mühüm səhifələr yazmışdıq. Coğrafi baxımdan o qədər də böyük olmayan gənc müstəqil dövlətin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzv seçilməsi, həmin quruma uğurlu sədrliyi, rəsmi Bakının NATO – Rusiya və Rusiya – ABŞ hərbi rəhbərlərinin görüşlərinə ev sahibliyi etməsi, Avropa tarixinə düşmüş "Bakı prosesi" kimi mühüm siyasi prosesin təşəbbüskarı olması, paytaxtımızda BMT başda olmaqla əksər beynəlxalq təşkilatların mühüm tədbirlərinin keçirilməsi, ilk Avropa Oyunlarını müvəffəqiyyətlə başa çatdırması, ən başlıcası, 2016-cı ilin Aprel döyüşləri bu seçkiyə qədər qazandığı uğurları idi.

Həmin siyasi faktın – 2018-ci il prezident seçkilərinin özü müstəqillik dövrümüzün ilk növbədənkənar seçkisi olaraq tarixə düşmüşdür. Həm də bu seçki bilavasitə iqtidar partiyasının təşəbbüsü ilə keçirilirdi. Halbuki, Azərbaycanla eyni dövrdə müstəqillik qazanmış ölkələrin əksəriyyətində növbədənkənar seçkiləri müxalifət partiyaları tələb edirdilər. Ölkəmizdə iqtidar partiyasının bu təşəbbüslə çıxış etməsinin təməlində xalqın mövcud iqtidara inamı dururdu. YAP rəsmiləri əmin idilər ki, Azərbaycan seçicisi Heydər Əliyev siyasi kursunun davam etdirilməsindən başqa bir yol tanımır və tanımaq istəmir.

Bu seçkinin hazırlanması, keçirilməsi və nəticələri barədə ötən yazılarımızda bir çox məqamlara toxunmuşduq. İndiki yazıda isə cənab Prezidentin – xalqımız təxminən iki il yarımdan sonra onu Müzəffər Ali Baş Komandan adlandıracaqdı – növbəti andiçmədə səsləndirdiyi fikirlər, xalqa verdiyi vədlər və həmin vədlərin reallaşdırılması istiqamətində həyata keçirilən layihələr, atılan addımlar barədə olacaq.

Cənab Prezident həmin il aprelin 18-də növbəti dəfə dövlət başçısı kimi and içərkən demişdi ki, "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!".

2003-cü ildən – Prezident kimi ilk andiçmədən keçən 15 il ərzində Azərbaycanın keçdiyi yola nəzər yetirən dövlət başçımız demişdi ki, təməlini Heydər Əliyevin qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur: "Ötən illər ərzində Azərbaycan xalqı təhlükəsizlik və sabitlik şəraitində yaşamışdır. Ölkədə daxili risklərin hamısı aradan qaldırılıb. Dövlət xarici risklərdən özünü qoruya bilmişdir. Təminatçısı Azərbaycan xalqının olduğu təbii sabitlik inkişafın əsas şərti olmuşdur. Xalq vahid milli ideya ətrafında birləşərək uğurla inkişaf edir. Azərbaycanda dinlərarası münasibətlər nümunəvi xarakter daşıyır".

Cənab Prezidentin həmin nitqindən məhz bu cümlələri sitat gətirməyimiz təsadüfi deyil. Çünki son zamanlar, daha doğrusu, son iki-üç ildə dünyanın əksər bölgələrində yaşanılan münaqişə, müharibə, terror, təxribat, irqi ayrı-seçkilik, milli və dini dözümsüzlük faktları görünməz dərəcədə sürətlə artır. Azərbaycanda isə daxili sabitlik, tolerantlıq, beynəlxalq münasibətlərdə balanslı siyasət yeridilməsi, ölkəmizin dost və tərəfdaşlarının artması günün reallıqlarıdır. Biz, hətta iki əsrdən də çox xalqımıza düşmənçilik edən, Xocalı soyqırımı kimi heç zaman unudulmayacaq faciəmizi törətmiş ermənilərlə münasibətdə də sülhün təşəbbüskarı və təminatçısı kimi çıxış edirik.

Cənab Prezident 18 aprel 2018-ci il tarixli andiçməsində demişdi ki, bizim Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyimiz Azərbaycan xalqı tərəfindən dəstəklənir: "Biz bu siyasətdən dönməyəcəyik, bundan sonrakı illərdə də işğalçını bütün işlərdən, regional işlərdən təcrid edəcəyik, onları ifşa edəcəyik. Gələcək illərdə isə bizim gücümüz daha da artacaq. Çünki bu gün reallaşan böyük təşəbbüslər, layihələr bizim gücümüzü daha da artıracaqdır".

O dedi və etdi. Həmin gün xalqa əlli milyonluq soydaşlarımızın hamısının arzuladığı nəticəni vəd edən and içdi və həmin andını əmələ çevirdi. Ötən yazılarımızda qeyd etdiyimiz kimi, adıçəkilən seçkidən az sonra – 2018-ci il mayın 20-dən 27-dək Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi istiqamətində həyata keçirilən əməliyyat nəticəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu Günnüt kəndini, Ağbulaq yüksəkliyini, Qızılqaya dağını və Qaraqaya dağını işğaldan azad etdi. Dərələyəz mahalının Arpa kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Ümumi olaraq 11 min hektarlıq ərazi işğaldan azad edildi. Uğurlu hərbi əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan – Keşişkənd (Yexeqnadzor) – Gorus – Laçın – Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verdi. Ən başlıcası, 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində təcavüzkar Ermənistan məğlub edildi və torpaqlarımız işğaldan azad olundu...

Həmin seçkidən üç il iki ay sonra – 2021-ci il iyunun 15-də Ermənistan işğalından azad edilmiş Şuşa şəhərində "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması təkcə Ermənistana deyil, bütün dünyaya mesajların göndərilməsi idi.

Həmin sənədin mühüm bəndlərindən biri belədir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır".

Şuşa Bəyannaməsindən keçən beş ildə beynəlxalq aləmdə baş verən proseslər həmin sənədin bizim üçün nə qədər önəmli və əhəmiyyətli olduğunu sübut edir. İndi artıq Ermənistan rəhbərliyi Azərbaycandan maddi və mənəvi, hətta siyasi dəstək umur. Ancaq həmin adamlar 2018-ci il seçkilərindən əvvəl "Qarabağ Ermənistandır!", - deyə hayqırır, Yevlaxa qədər tank sürəcəklərini deyir, Bakıda çay içəcəklərini bəyan edirdilər.

Onlar Bakıda çay içdilər, amma həbsxanada. İndi isə müharibə caniləri kimi cəzalarını çəkirlər.

İnanıram ki, hörmətli oxucular indi əlavə edəcəyim cümləyə görə məni qeyri-təvazökarlıq etmiş qələm sahibi kimi qınamayacaqlar: "Mən fəxr edirəm ki, bütün bu proseslər barədə qələmə aldığım yazılardan ibarət "And və əməl" adlı kitab ərsəyə gətirmişəm.

Yolun daim açıq olsun, Azərbaycan!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

---

# Cənubi Qafqazda uzunmüddətli sabitliyin gələcəyi

## *İrəvanın Ankara və Bakı ilə münasibətlərində "etimad sınağı"*




*(əvvəli 1-ci səhifədə)*

Ermənistan rəhbərliyinin siyasi baxış spektrində yaranan mövcud transformasiya xüsusi haldır. 1991-ci ildə müstəqillik əldə edildikdən dərhal sonra yaranan kəskin gərginlik, 1994-cü ildə atəşkəslə nəticələnən şiddətli qarşıdurma Cənubi Qafqazı daim münaqişə zonasına çevirmişdi. İllər uzunu rəsmi İrəvan fərqli xarici güclərə arxalanaraq təcrid siyasəti yürütdü, ancaq həmin fəaliyyət fəlakətli siyasi böhranlara gətirib çıxardı. 2020-ci ilin payızında cərəyan edən əsaslı hərbi-siyasi dəyişikliklər regionda real güc balansını bərqərar etdi. Xüsusilə də 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra reallıq qəti şəkildə formalaşdı. İndi, 2026-cı ilin geosiyasi şərtlərində Ermənistan elitası dərk edir ki, kənar güclərin Cənubi Qafqaza müdaxiləsi heç vaxt sülh gətirmir. Qərb və ya digər uzaq mərkəzlərdən asılılıq əvəzinə, Ankara və Bakı ilə bilavasitə siyasi dialoq ən təhlükəsiz strateji yoldur.

Türkiyənin hazırkı qlobal miqyaslı fəaliyyəti Alen Simonyanın son bəyanatlarında mərkəzi yeri tutur. Rəcəb Tayyib Ərdoğan hazırda Yaxın Şərq, Qara dəniz hövzəsi və Aralıq dənizi regionlarında sülh yaradan əsas ölkədir. Ermənistanın Parlament sədri tərəfindən bu faktın etiraf edilməsi tarixi addımdır. Əsrdən çox müddətdə formalaşan antitürk təbliğatı, rəsmi İrəvanın dövlət ideologiyasını zəhərləyən yanlış paradiqmalar artıq kənara atılır. Türkiyəni sülhün tamhüquqlu tərəfdaşı adlandırmaq İrəvanın ənənəvi stereotiplərdən imtina etdiyini nümayiş etdirir. Simonyanın Türkiyə liderini dünya çəkili nüfuzlu rəhbər kimi qəbul etməsi qlobal rəqabət şəraitində rəsmi Ankaranın diplomatik qələbəsidir. Azərbaycan hər zaman region dövlətlərinin iştirakı ilə problemlərin həll edilməsinin vacibliyini bəyan edib.

Azərbaycanın son illər həyata keçirdiyi dəqiq hesablanmış və təmkinli diplomatiyası indiki tarixi nailiyyətin təməl daşını təşkil edir. Rəsmi Bakı əldə edilən hərbi qələbəni qısa zamanda siyasi və diplomatik qələbəyə çevirməyi bacardı. Müharibədən sonrakı mərhələdə qonşu dövlətə təqdim edilən sülh prinsipləri beynəlxalq hüququn təməl normalarına əsaslanırdı. İrəvan uzun müddət həmin prinsipləri fərqli bəhanələrlə rədd etməyə çalışsa da, yekunda başqa alternativin olmadığını anladı. Hazırkı mərhələdə iki dövlət arasında qarşılıqlı etimadın yaradılması prosesi gedir. Cənubi Qafqazın suveren subyektləri arasında aparılan mövcud müzakirələr vasitəçisiz, müdaxiləsiz formatda həyata keçirilir. Xarici diktənin mövcud olmadığı şəraitdə əldə edilən razılaşmalar daha dayanıqlı və uzunömürlü olur. Türkiyənin həmin prosesi dəstəkləməsi, mənəvi və siyasi cəhətdən Azərbaycanın yanında dayanması regional arxitekturanın sarsılmazlığını göstərir.

Siyasi strategiyaların müqayisəsi göstərir ki, Şərqi Avropa və ya Yaxın Şərqdə davam edən qanlı qarşıdurmalar xarici diktələrlə həllini tapmır. Azərbaycan rəhbərliyinin konseptual yanaşması Cənubi Qafqazı kənar güclərin rəqabət meydanından çıxarmaq üzərində qurulub. Türkiyənin iştirakı beynəlxalq hüququn qorunması məqsədi daşıyır. Ermənistanın onilliklər boyu yaratdığı miflər süqut etdikcə, siyasi meydanda reallıq hissi üstünlük qazanır. R.T.Ərdoğan sülhü dəstəkləyərkən yalnız Qafqazı düşünmür, ümumən dünya xəritəsində ədalətin bərqərar olunması üçün konkret məsələlər nümayiş etdirir. Bu amillər isə BMT nizamnaməsinə və dövlətlərin ərazi bütövlüyü prinsiplərinə şərtsiz hörmət tələb edir.

*

Tarix göstərdi ki, uzaq coğrafiyalardan regiona müdaxilə etmək istəyən güclərin məqsədi heç vaxt sülh və sabitlik olmayıb. 1992-ci ildən etibarən fəaliyyət göstərən, lakin məsələnin həlli istiqamətində real heç nə etməyən ATƏT-in Minsk qrupu kimi institutlar münaqişəni donduraraq manipulyasiya aləti kimi istifadə edirdi. Bu gün Alen Simonyanın "etimadın formalaşmasında yeni era" konsepsiyası bilavasitə siyasi iflasdan xilas olmaq strategiyasıdır. Regional ölkələr – Azərbaycan, Türkiyə, Gürcüstan və Rusiya kimi dövlətlər bölgənin taleyini müzakirə edərkən kənar elementlərin destruktiv təsiri sıfıra endirilir.

Parlament diplomatiyası müasir qlobal siyasətin ən təsirli mexanizmlərindəndir. Rəcəb Tayyib Ərdoğanın İstanbulda Parlamentlərarası İttifaqın Assambleyasında dünya qanunvericilərinə müraciət etməsi təsadüfi deyil. Qanunverici orqanların rəhbərləri qarşısında verilən mesajlar bilavasitə dünya dövlətlərinin elitalarına ötürülür. Türkiyə rəhbərinin Cənubi Qafqaz nümunəsi konsepsiyası qlobal böhranların həlli üçün təklif olunan xilas formuludur. Hazırda planetin müxtəlif qitələrində münaqişələr, qanlı müharibələr, sərhəd toqquşmaları alovlanır. Belə vəziyyətdə qonşuların keçmiş ədavəti unudaraq kompromisə gəlməsi, ortaq inkişaf arxitekturası qurması əvəzsiz hadisədir. Ermənistanın xalq tərəfindən seçilmiş qanunverici orqan rəhbərinin də məhz həmin mövqeyi bölüşməsi sinxron fəaliyyətin göstəricisidir. İrəvan anladı ki, davamlı konfrontasiya dövlətin təməllərini məhv edir. Yeni era köhnə iddiaları arxivə göndərməyi tələb edir.

Ermənistan diasporunun illər boyu İrəvanı fəlakətə sürükləyən zərərli ideologiyası da hazırkı mərhələdə sıradan çıxır. Xaricdə rahat şəraitdə yaşayan, lakin bölgəyə kin-küdurət ixrac edən dairələr Ermənistan sakinlərinin həyatını girov saxlamağa cəhd göstərirdi. Lakin hökumət anladı ki, diaspor illüziyaları ilə dövlət idarə etmək mümkün deyil. Simonyanın Türkiyə barədə müsbət tezislər səsləndirməsi məhz uzaqdakı təxribatçılara verilən rəsmi və qəti rədd cavabıdır. İrəvan açıq şəkildə bildirir ki, gələcək inkişaf ancaq və ancaq qonşularla səmimi, davamlı etimad mühitindən asılıdır. Azərbaycan tərəfinin prinsipiallığı, Türkiyənin mütləq dəstəyi radikal mərkəzlərin Cənubi Qafqaza nüfuz etməsinə keçilməz sədd çəkdi. Yaranmış sarsılmaz təhlükəsizlik halqası sülhün qarantına çevrilərək Ermənistanı tədricən sağlam siyasət orbitinə çəkir.

Türkiyə və Azərbaycanın siyasi, hərbi həmrəyliyi müasir beynəlxalq münasibətlər sistemində tayı-bərabəri olmayan modeldir. Şuşa Bəyannaməsi ilə hüquqi şəkildə möhkəmlənən ittifaq regiondakı bütün destruktiv qüvvələrin planlarını neytrallaşdırdı. İndi İrəvan tam şəkildə dərk edir ki, hər hansı təxribat, vaxtın uzadılması taktikası bütövlükdə nəhəng regional sülh arxitekturasına qarşı yönəlmiş dağıdıcı hərəkət kimi qiymətləndiriləcək. Alen Simonyanın Rəcəb Tayyib Ərdoğanı tərəfdaş kimi prosesə qoşulmağa çağırması məhz yeni mövcud güclə hesablaşmaq reallığından qaynaqlanır. İrəvan bununla təsdiqləyir ki, Cənubi Qafqazın gələcək taleyi rəsmi Ankaranın iradəsindən kənarda müzakirə edilə bilməz.

Cənubi Qafqaz hazırda planetin siyasi tarixində şanlı səhifə yazır. Rəcəb Tayyib Ərdoğanın məsələlərə fəlsəfi yanaşması və qlobal çağırışı təsadüfi yaranmayıb, o cümlədən Ermənistan tərəfinin illər sonra səmimiyyətə inam bəsləməsi uzun yolun yekunudur.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Ərdoğanın mesajı: dünyanın legitimlik böhranı və ...Azərbaycan amili

## *Türkiyə lideri nələri dedi, nələrə işarə etdi?*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan aprelin 16-da Parlamentlərarası İttifaqın 152-ci Baş Assambleyasının şərəfinə təşkil olunmuş şam yeməyində çıxışı zamanı bir-biri ilə əlaqəli iki son dərəcə vacib məqama toxundu. Birincisi, o bildirdi ki, əsas regional oyunçuları istisna edən heç bir struktur regionda barış mühitini və təhlükəsizliyi təmin edə bilməz. R.T.Ərdoğan onu da vurğuladı ki, İkinci Dünya müharibəsi qalibləri tərəfindən yaradılmış beynəlxalq sistem hazırda ciddi legitimlik böhranı ilə üz-üzədir. Türkiyə liderinin fikirlərindən bir neçə nəticə çıxarmaq mümkündür. Əvvəla, onu deyək ki, Ərdoğanın "İkinci Dünya müharibəsi qaliblərinin qurduğu sistem legitimlik böhranı yaşayır" fikri, sadəcə, ritorik bəyanat deyil. Bu, beynəlxalq münasibətlərə dair konkret siyasi mesajdır.**



Əlbəttə, Türkiyə Prezidenti mövcud dünya düzəninə etiraz səsini ucaldır. O, dolayısı ilə 1945-dən sonra formalaşmış sistemin (xüsusilə BMT Təhlükəsizlik Şurası kimi institutların) artıq ədalətli və effektiv olmadığını deyir. Qərarların azsaylı güclü dövlətlərin maraqları əsasında verildiyi düşüncəsini önə çəkir. Mövcud anlamda Ərdoğanın hazırda söylədiklərini onun illər əvvəl səsləndirdiyi "dünya beşdən böyükdür" tezisinin davamı olaraq da qiymətləndirmək mümkündür.

Bəli, Türkiyə lideri uzun müddətdir irəli sürdüyü yanaşmanı davam etdirir və qlobal idarəçilikdə daha çox ölkənin söz sahibi olmasının vacibliyi üzərində dayanır. Şübhəsiz, burada əsas tənqid veto hüququna malik dövlətlərə yönəlir. Axı dünyada güc balansı dəyişib, yeni güc mərkəzləri formalaşıb. Məsələn, elə Türkiyənin özü. Deməli, indiki durumda 1945-ci ilin reallıqları ilə qurulan sistemin işlək modelə sahibliyi, reallıqları əks etdirməsi qeyri-mümkündür.

Onu da bildirək ki, Ərdoğanın fikrinə qlobal Cənubun narazılığı kontekstində də diqqət yetirmək mümkündür. Başqa sözlə desək, Türkiyə lideri bütövlükdə inkişaf etməkdə olan ölkələrin ümumi narazılığını ifadə edir. O ölkələrin ki, onlar beynəlxalq sistemdə yetərincə təmsil olunmadıqlarını düşünürlər. Ankara isə Ərdoğanın timsalında özünü bu blokun səsini çatdıran aktor kimi təqdim edir.

Belə nəticəyə gəlmək mümkündür ki, Türkiyə Prezidenti, əslində, yeni beynəlxalq sistem çağırışını səsləndirir. Nəzərə alaq ki, onun bəyanatı mahiyyətcə alternativ dünya nizamına işarədir. O dünya nizamına ki, daha inklüziv, daha balanslı və regional güclərin rolunu tanıyan bir sistemə sahiblənməlidir. Elə bir sistem ki, Türkiyə orada böyük rola sahiblənəcək. O rol ki, Ankaranı regional yox, qlobal aktora çevirəcək. Yəni Ərdoğanın fikirləri Türkiyənin təkcə oyunçu yox, həmçinin, qaydaların formalaşdırılmasında iştirakçı tərəf qismində görmək istəyidir.

R.T.Ərdoğanın əsas regional oyunçuları istisna edən heç bir strukturun regionda sülh və təhlükəsizliyi təmin edə bilməzliyinə dair fikrinə gəlincə, aydındır ki, beşdən böyük olan dünyanın iştirakçıları həm də regional məsələlərdə söz sahibidirlər. Bu, o deməkdir ki, regionlara nəzərən klassik monopolist imperiya təfəkkürü keçərli deyil. Bu, həm də o deməkdir ki, Azərbaycanın rəhbər tutduğu regional düzən modeli ciddi dəstək qazanmış durumdadır. Nəzərə alaq ki, ölkəmiz "Region region ölkələri üçündür" şüarını irəli sürüb və rəsmi Bakının hərəkətləri timsalında regional düzən modeli Ermənistanla sülhün əldə edilməsi kimi konkret nəticəyə malikdir.

Digər tərəfdən, Ərdoğanın dolayısı ilə vurğuladığı ədalətsiz sistem tezisi Azərbaycanın uzun illər müdafiə etdiyi mövqelərlə üst-üstə düşür. Axı sistemin passivliyi özünü həm də Qarabağ məsələsinə münasibətdə göstərmişdi. Beynəlxalq qurumların konfliktlə bağlı ədalətli mövqe tutmamaları yekunda BMT-nin Azərbaycan torpaqlarının işğalının dayandırılmasını tələb edən 4 qətnaməsinin icra olunmaması reallığını doğurmuşdu.

Deməli, beynəlxalq hüququ öz gücü ilə bərpa edən ölkəmiz Türkiyə liderinin açıqladığı mövqenin qlobal səviyyədə daha fəal müdafiəçisi statusunda çıxış edə bilər və edir. Axı Prezident İlham Əliyev də açıqlama və müsahibələrində beynəlxalq sistemin fərqli transformasiyasının, yeni dünya düzəninin vacibliyini dəfələrlə vurğulayıb. Bəli, Qərb institutlarına etimadın azalması fonunda mövcud sistem legitimlik böhranı yaşayırsa, BMT Təhlükəsizlik Şurası, ATƏT kimi qurumların vasitəçilik roluna alternativlər axtarılır. Buradan Azərbaycan üçün nəticə daha çox ikitərəfli və regional diplomatiyaya sadiqlik və daha az beynəlxalq vasitəçilərə bağlılıq kasuslarıdır. O kazuslar ki, ölkəmiz, az qala, müstəqillik əldə etdiyi ilk gündən onları dövlət siyasətinin, balanslı yanaşma kursunun tərkib hissəsinə çevirib. Azərbaycanın bugünkü uğurları məhz həmin yanaşmanın təntənəsidir.

Əlbəttə, böyük dəyişikliklər özündə riks amilini də daşıyır. Məsələ ondadır ki, qlobal sistem zəifləyirsə, regional güclər ön plana çıxacaq və bu, yeni imkanların yaranması kimi, həm də məsuliyyət artımı deməkdir. Deməli, elə məsuliyyətli yanaşma tətbiq edilməlidir ki, meydana risklər çıxmasın, yaxud onlar xeyli dərəcədə minimallaşsın. Özlüyündə isə yeni güc balansında Azərbaycanın mövqeyi əhəmiyyətlidir. Ölkəmiz enerji və nəqliyyat layihələri üzrə təşəbbüskardır, regional logistika mərkəzi olaraq müstəsna əhəmiyyət daşıyır ki, bu da Bakının, sadəcə, regional yox, Avrasiya miqyasında oyunçuya çevrilməsinə şərait yaradır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Siyasi ambisiyadan fantastik ssenarilərə

## *Qalstanyanın kağız üzərindəki xəyalları faş olur*



**Özünü "Müqəddəs mübarizə" hərəkatının lideri adlandıran arxiyepiskop Baqrat Qalstanyanın İrəvandakı evində axtarış zamanı onun gələcək planlarını əks etdirən sənəd aşkarlanıb. Sənəd özündə "düşmən ölkəyə hücumu və 150–250 min mülki şəxsin ələ keçirilməsi"ni əks etdirir. Bu barədə 2025-ci il iyunun 25-də dövlət çevrilişinə cəhd ittihamı ilə saxlanılan din xadiminin vəkilləri məlumat veriblər. Bundan əvvəl isə Ermənistan İstintaq Komitəsinin rəhbəri Artur Poqosyan parlamentdə çıxışı zamanı iş materiallarında Qalstanyan tərəfindən yazılmış bir sənədin olduğunu qeyd etmişdi. Müdafiə tərəfini təmsil edən şəxslər sənədin həqiqiliyinə ciddi şübhə ilə yanaşdıqlarını bildiriblər.**

Mətndə "düşmən ölkə"nin konkret adı çəkilməsə də, hadisələrin kontekstinə görə bunun Azərbaycan olduğu ehtimal edilir. Qeyd edək ki, Qalstanyan daha əvvəl Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri olub, 2024-cü ilin yazında Azərbaycanla sərhədlərin delimitasiya və demarkasiyasına qarşı çıxıb. Həmin proses çərçivəsində Qazax rayonunun dörd kəndi Azərbaycana qaytarılıb. Bundan sonra o, "Vətən üçün Tavuş" adlı kütləvi etirazlara start verib. Hərəkat Tavuşdan başlayaraq İrəvana doğru yürüşə çevrilib. Müxalif qüvvələr Qalstanyanı baş nazir postuna vahid namizəd kimi görürdü. Lakin gözlənilən geniş kütləvi dəstək baş vermədi. Paytaxtda etirazlara 10 mindən çox insan qatılmadı və aksiyalar qısa müddətdə səngidi. 2025-ci ilin iyununda vəziyyət daha da gərginləşdi. Ermənistanın hüquq-mühafizə orqanları Qalstanyanı və tərəfdarlarını saxladı. Onlara qarşı silahla hakimiyyəti ələ keçirmə, terror aktlarının təşkili, sui-qəsd planları kimi ittihamlar irəli sürüldü. İstintaqın məlumatına görə, "Müqəddəs mübarizə" hərəkatı çərçivəsində hər biri 25 nəfərdən ibarət 200–250 zərbə qrupu formalaşdırılırdı. Bu qruplara hərbçilər və polis əməkdaşları da cəlb olunmalı idi. Onların planlarına inzibati binaların ələ keçirilməsi, yanğınlar və terror aktları törədilməsi, nəqliyyat qovşaqlarının bloklanması, kiberhücumlarla elektrik və internetin kəsilməsi kimi əməllər daxil idi. İstintaq orqanları bildirirlər ki, 2025-ci ilin əvvəlinə qədər prosesə 1000-dən çox şəxs cəlb olunmuş və xeyli sayda yandırıcı vasitələr hazırlanmışdı. Sübut kimi telefon danışıqları və gizli görüşlərin videoları təqdim edilib.

Ermənistanın baş naziri Nikol Paşinyan olayla bağlı bildirib ki, müəyyən qüvvələr regionda sülh prosesini pozmaq və ölkədə sabitliyi sarsıtmaq istəyir.

Qalstanyanın məhkəmə prosesi 2025-ci ilin avqustundan başlayıb. Müdafiə tərəfi isə ittihamları rədd edir. Vəkil Ovannes Xudoyan qeyd edib ki, istintaq hələ də Qalstanyana aid olduğu iddia edilən yazılar üzrə ekspertiza aparmayıb. Digər vəkil Tatevik Soqoyan isə sənədin məzmununu "absurd" adlandırıb. Onun sözlərinə görə, ingilis dilində yazılmış mətndə müxtəlif ölkələrin adı çəkilir: "Belə iddialar təkzibedilməz sübutlara əsaslanmalıdır. Bu halda yeganə vasitə qrafoloji ekspertiza ola bilərdi, lakin o nə təyin olunub, nə də keçirilib". Həmçinin "düşmən ölkəyə daxil olaraq yüz minlərlə mülki şəxsin ələ keçirilməsi" kimi qeyri-real plan təsvir olunur. Vəkil ehtimal edir ki, həmin qeydlər radikal şəxslər tərəfindən yazıla və sadəcə, Qalstanyanın yanında saxlanıla bilər: "Sənəddə Rusiya, Belarus, İran, Çin, İspaniya, Gürcüstan, Hindistan və Kipr qeyd olunur. Mətndə iddia edilir ki, bütün bu ölkələr hansısa plana cəlb olunmalı idi. Həmçinin "düşmən ölkəyə" sızma və 150–250 min mülki şəxsin girov götürülməsindən bəhs edilir. Bu mətnin məzmunu açıq-aşkar absurddur".

B.Qalstanyanın evində axtarış zamanı ortaya çıxan bu sənəd müzakirəni hüquqi müstəvidən çıxarıb daha geniş mənzərəyə gətirir. Söhbət sadəcə, bir kağız parçasından getmir. Burada cəmiyyətə hansı düşüncənin aşılanmasından bəhs etmək lazımdır. "Düşmən ölkəyə hücum" və yüz minlərlə mülki insanın ələ keçirilməsi kimi fikirlər normal siyasi mübarizə ilə heç bir halda uzlaşmır. Ancaq Qalstanyanın son illərdəki fəaliyyəti göstərir ki, o, emosiyalar üzərindən hərəkət etməyə üstünlük verir. Vəkillərin "bu sənəd sübut deyil" arqumenti isə inandırıcı təsir bağışlamır. Əgər belə qeydlər doğrudan da təsadüfi idisə, niyə məhz onun evində saxlanılırdı? Üstəlik, məzmunun özü təsadüfi qeydlərə bənzəmir: konkret istiqamət, konkret hədəf var. Sadəcə "ekspertiza aparılmayıb" deməklə məsuliyyətdən yayınmaq cəhdi vəziyyəti dəyişmir.

Ən narahatedici məqam isə mülki insanlara münasibətdir. Siyasi iddialar naminə yüz minlərlə insanın taleyini plan kimi təsvir etmək artıq qırmızı xəttin keçilməsi deməkdir. Əgər "düşmən ölkə" deyərkən Azərbaycanın nəzərdə tutulduğu iddia edilirsə, bu artıq reallıqdan qopmuş düşüncənin göstəricisidir. Yüz minlərlə insanı ələ keçirmək kimi fantaziyalar nə hərbi, nə də siyasi baxımdan mümkün ssenaridir. Bu, ancaq kağız üzərində qurulan xəyallardır.



**Milli Məclisin deputatı, politoloq Elçin Mirzəbəyli** bildirib ki, Cənubi Qafqazda baş verən son hadisələr artıq təsadüfi epizodlar kimi deyil, vahid strateji xətt üzrə idarə olunan təhlükəli ssenarinin tərkib hissəsi kimi qiymətləndirilməlidir: "Aşkar edilən sənəd bu baxımdan sadəcə hüquq-mühafizə faktı deyil, açıq şəkildə terror mahiyyətli planın mövcudluğunu ortaya qoyur. Sənəddə "düşmən ölkəyə hücum" və "150–250 min mülki şəxsin ələ keçirilməsi" kimi müddəaların yer alması, artıq klassik hərbi qarşıdurmadan deyil, genişmiqyaslı girov siyasətindən və etnik zorakılıqdan xəbər verir. Bu, beynəlxalq humanitar hüququn fundamental prinsiplərinə meydan oxumaqla yanaşı, faktiki olaraq, soyqırımı cinayətlərinə hazırlıqdır. Çünki burada söhbət təkcə hərbi-strateji məqsədlərdən deyil, etnik əsaslı təzyiq və kollektiv cəza mexanizmlərindən gedir. Belə yanaşma regionda artıq tarixə qovuşduğu düşünülən dəhşətli müharibə cinayətlərinin, terrorizm və vandalizm metodlarının yenidən gündəmə gətirilməsi deməkdir. Bu isə Ermənistan daxilində müəyyən dairələrin hələ də revanşist və destruktiv ideologiyadan imtina etmədiyini açıq şəkildə göstərir".

Deputat deyib ki, məqsəd Cənubi Qafqazda yeni qarşıdurma ocağı yaratmaq, Azərbaycan və Ermənistan arasında formalaşmaqda olan sülh gündəliyini iflic etmək və regionu yenidən geosiyasi manipulyasiya meydanına çevirməkdən ibarətdir: "Burada artıq "təsadüf" anlayışı tamamilə sıradan çıxır. Çünki müəyyən zaman fərqi ilə aşkarlanan ssenarinin zamanlaması, məzmunu və hədəfləri arasında paralellər açıq şəkildə görünür. Ermənistan daxilində kilsə və radikal millətçi çevrələrin aktivləşdirilməsi klassik "parçala, hökm sür" strategiyasının yeni fazaya keçdiyini göstərir.

Burada məqsəd, çox güman ki, iki istiqamətdə paralel zərbə vurmaqdan ibarət olub. Bir tərəfdən sərhədlərdə eskalasiya potensialını artırmaqla hərbi gərginlik yaratmaq, digər tərəfdən isə daxildə siyasi sabitliyi sarsıtmaqla dövlətin müqavimət qabiliyyətini zəiflətmək məqsədi güdüb. Ssenarinin gedişatına uyğun olaraq, hər iki xəttin kəsişdiyi nöqtədə isə idarəolunan böhran modeli formalaşdırılmalı, bu model isə xarici təsir mərkəzinə region üzərində nəzarəti yenidən bərpa etmək imkanı verməli idi".

E.Mirzəbəylinin fikrincə, ortada olan faktlar bir daha sübut edir ki, Cənubi Qafqazda mübarizə, çoxşaxəli və koordinasiyalı hibrid müharibə formatında aparılır: "Bu mübarizədə əsas hədəf isə təkcə ərazilər deyil, dövlətlərin siyasi sabitliyi və gələcək inkişaf trayektoriyasıdır. Bütövlükdə, regionda sülhə qarşı yönəlmiş planlar fərqli coğrafiyalarda yazılsa da, onların müəllifi və məqsədi demək olar ki, eynidir".

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan qlobal təlatümlərin əhatəsində sabitlik adasıdır

## *Müsahibimiz Milli Məclisin deputatı Cavanşir Feyziyevdir*



**Hazırda dünyada cərəyan edən hadisələr heç də nikbin proqnozlara rəvac vermir və sabitlikdən çox xaosa doğru getdiyi qənaətini yaradır. Az qala bütün qitələri bürümüş münaqişələr qlobal siyasi və iqtisadi balansı dəyişib. "Böyük güclər" arasında geosiyasi transformasiya yenicə başlayıb və bu prosesin hansı istiqamətdə inkişaf edəcəyi məlum deyil.**

**Azərbaycan bu təlatümlü dönəmdə milli maraqlarına uyğun, şəffaf və praqmatik xarici siyasət yürüdür. Doğrudur, Ermənistanla yekun sülh sazişi imzalanmadan bölgədə tam sabitliyin bərqərar olduğunu söyləmək tezdir. Bu gün ölkəmiz üçün digər vacib məsələ qlobal dəyişikliklərə uyğun yanaşma formalaşdırmaq, heç nəyə baxmadan strateji tərəfdaşlarla əməkdaşlığı davam və inkişaf etdirməkdir.**

**Sadaladığımız istiqamətlər üzrə, eləcə də digər səpkidə suallarımızı tanınmış ictimai-siyasi xadimi, Milli Məclisin deputatı, Mədəniyyət və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin üzvü Cavanşir Feyziyev cavablandırdı.**



***– Cavanşir müəllim, bu gün dünya münaqişələr məngənəsindədir. Rusiya–Ukrayna, ABŞ/İsrail–İran hərbi qarşıdurmaları minlərlə can alıb və bunun sonu görünmür. Azərbaycana həm şimaldan, həm də cənubdan barıt qoxulu yellər əsir. Belə gərgin və təhlükəli hərbi-siyasi vəziyyətdə ölkəmiz gözlənilən real təhdidlərə qarşı duruş gətirməyi bacarır...***

– Bəli, doğrudan da, dünya miqyasında hərbi-siyasi gərginlik və silahlı qarşıdurmalar bu əsrdə özünün pik həddinə çatıb. Ətrafımızda iki qanlı müharibə gedir. Artıq beşinci ildir davam edən Rusiya-Ukrayna müharibəsi bizdən çox da uzaqda deyil və istər-istəməz bizim bu dövlətlərlə ikitərəfli münasibətlərimizə təsirsiz ötüşmür. ABŞ və İsrailin İrana qarşı apardığı müharibə isə birbaşa bizim sərhədlərimizdə baş verir və onun fəsadları ilə artıq Naxçıvanda üzləşmişik. Belə bir gərginlik şəraitində hadisələri izləmək, onların gedişini düzgün dəyərləndirmək və proqnozlaşdırmaq, xarici və daxili siyasəti ətrafımızda baş verənlərlə uzlaşdırmaq böyük siyasi məharət və yeri gəldikdə isə böyük cəsarət tələb edir.

Bütün bunları biz dövlətimizin apardığı siyasətdə müşahidə edirik. Azərbaycan cəmiyyəti əmindir ki, Prezident İlham Əliyevin atdığı və atacağı bütün addımlar müstəsna olaraq milli maraqlarımız çərçivəsində və beynəlxalq hüquq əsasında formalaşır. Bəli, müəyyən dərəcədə, gərginlik və təhlükələr mövcuddur, amma onların önlənməsi və gərginliyin aradan qaldırılması üçün Azərbaycan dövlətinin aydın və şəffaf siyasi xətti var. Üstəlik, Azərbaycan cəmiyyətində hökm sürən dövlət-cəmiyyət həmrəyliyi və milli vətənpərvərlik qarşımıza çıxa biləcək bütün çətinliklərin dəf edilməsi üçün möhkəm zəmin yaradır.

***– Rəsmi Bakı xarici siyasətində daim bölgədə və dünyada sülh və əməkdaşlığı özünün prioriteti kimi irəli sürür, bu yöndə konkret addımlar atır. Bu kontekstdən yanaşanda Cənubi Qafqazın artıq sülh və əməkdaşlıq mərhələsinə keçdiyini söyləmək olarmı?***

– Ölkədə sülh, bölgədə sülh və dünyada sülh. Məhz bu prinsipə uyğun olaraq Heydər Əliyev 1993-cü ildə Ermənistanla atəşkəs əldə olunmasına üstünlük verdi.

**Bölgədə hadisələrin sonrakı inkişafı məhz Ermənistanda keçiriləcək parlament seçkilərin nəticələrindən asılıdır. Digər reallıq ondan ibarətdir ki, seçkilərdə kimin qalib gəlməsindən və ya kənar müdaxilə nəticəsində hakimiyyətin dəyişməsindən asılı olmayaraq Azərbaycanla Ermənistan arasında yeni müharibənin başlanması üçün heç bir şərait yoxdur.**

Atəşkəs dövründə əldə edilmiş iqtisadi, hərbi, siyasi üstünlüklərinə baxmayaraq, Azərbaycan dövləti 30 ilə yaxın münaqişənin danışıqlar yolu ilə həll olunmasına çalışdı. Sonda Vətən müharibəsi başa çatar-çatmaz Azərbaycan yenə də məğlub tərəfə sülh təklifi ilə müraciət etdi. Dünyada hər cür inkişafın əsasında məhz sülh və təhlükəsizlik dayanır. Bu amillər təmin olunmadan heç bir ölkədə sabit və davamlı inkişafı təmin etmək mümkün olmaz.

Vətən müharibəsindən keçən illər ərzində Cənubi Qafqaz bölgəsində əsaslı dəyişikliklər baş verib. Bu dəyişikliklər təkcə torpaqlarımızın işğaldan azad olunmasından ibarət deyil. Zənnimcə, müharibənin bölgəyə gətirdiyi ən böyük dəyişiklik ictimai şüurla bağlıdır. İki əsr "Böyük Ermənistan" xülyası ilə zombiləşdirilmiş erməni cəmiyyətində şüur dəyişikliyinin baş verməsi, obyektiv gerçəkliyin dərk olunması bütövlükdə Cənubi Qafqazda sonrakı hadisələrin axarını dəyişdirir. Keçən əsrin 80-ci illərində "Miatsum" şüarı ilə zəhərlənmiş erməni cəmiyyəti Vətən müharibəsindəki tam məğlubiyyətə qədər obyektiv reallıqla bağlı heç bir mülahizəni eşitmək belə istəmirdi.

Son 5 ildə erməni ictimai şüuru kifayət qədər dəyişikliklərə məruz qalıb. Azərbaycanın bölgədə yaratdığı yeni hərbi-siyasi reallıqlar ilk baxışdan həmişə yekdil və həmrəy görünən erməni cəmiyyətini silkələdi və onu öz keçmişi və gələcəyi ilə bağlı daha dərindən düşünməyə və doğru seçim etməyə vadar etdi. Hazırda erməni cəmiyyətində sülh tərəfdarları böyük üstünlük təşkil edirlər. Bir sıra erməni siyasətçiləri və siyasi təhlilçilər Ermənistan və ermənilər haqqında şüurlara yeridilmiş mifləri dağıdan açıqlamalarla çıxış edirlər. Bütün bunlar çox önəmlidir. Çünki bir ölkədə, regionda və nəhayət, dünyada sülhün əldə olunması və qorunub saxlanması, ən azı, birtərəfli proses deyil. Bu ikitərəfli və əsasən də çoxtərəfli prosesdir.

Bölgəmizdə davamlı sülhün təmin olunması, ilk növbədə, bölgə dövlətlərinin özündən asılıdır. Məhz buna görə Azərbaycanın sülh yaratmaq məqsədilə atdığı bütün addımlarla yanaşı, Ermənistanda ictimai şüurun yenilənməsi və ictimai rəydə sülh tərəfdarlarının artması olduqca vacibdir. Bölgədəki hadisələrin bugünkü mənzərəsi onu deməyə əsas verir ki, Cənubi Qafqaz artıq bütövlükdə sülh və əməkdaşlıq rejiminə köklənib və bu prosesləri davamlı və dönməz etmək üçün bütün maraqlı tərəflər müvafiq zəruri addımları atırlar.

***– Keçən ilin avqustunda Ağ Evin birbaşa vasitəçiliyi ilə imzalanan Birgə Bəyannamə və sülh sazişinin paraflanması sayəsində Ermənistanla münasibətlər normal məcraya düşüb. Amma hələ yekun sülh müqaviləsi imzalanmayıb, "nə sülh, nə müharibə" dönəminin başa çatdığını deyə bilmərik. Sizin fikrinizcə, 7 iyun parlament seçkilərində Ermənistanda radikal müxalifət hakimiyyətə yiyələnərsə, Azərbaycanla müharibənin yenidən alovlanması ehtimalı nə qədər realdır?***

– Birincisi, Ermənistanda keçiriləcək 7 iyun parlament seçkilərində radikal müxalifətin hakimiyyətə yiyələnməsi real görünmür. Belə bir arzuolunmaz nəticə yalnız kobud xarici müdaxilə nəticəsində əldə oluna bilər. Odur ki, həm Ermənistan siyasi hakimiyyəti, həm beynəlxalq təşkilatlar və bölgədə maraqlı olan bütün dövlətlər Ermənistanda hökm sürən seçkiqabağı vəziyyəti diqqətlə izləyirlər. Hətta Avropa İttifaqı seçkilərə mümkün kənar müdaxilə cəhdlərinin qarşısının alınması üçün Ermənistana yardım etmək haqqında qərar qəbul edib və maliyyə vəsaiti ayırıb. Azərbaycan da Ermənistanda keçiriləcək parlament seçkilərində maraqlı tərəfdir. Çünki bölgəmizdə hadisələrin sonrakı inkişafı məhz bu seçkilərin nəticələrindən asılıdır.

Lakin reallıq ondan ibarətdir ki, seçkilərdə kimin qalib gəlməsindən və ya kənar müdaxilə nəticəsində hakimiyyətin necə dəyişməsindən asılı olmayaraq Azərbaycanla Ermənistan arasında arasında yeni müharibənin başlanması üçün heç bir şərait mövcud deyil. 2020-ci ilin Vətən müharibəsində Ermənistanın hərbi potensialı, demək olar ki, tamamilə məhv edilib. Keçən illər ərzində erməni cəmiyyəti 80-ci illərin sonundan başlayaraq uzun müddət ərzində aparılmış işğalçılıq siyasətinin iflasa uğradığını dərk edib və məğlubiyyətlə barışıb.

Ermənistan dövləti yarandıldığı gündən etibarən bölgəmizdə böyük güc mərkəzləri üçün alət rolunu oynamağın acı nəticələrini də görüb və bu gün bunun etirafı eşidilməkdədir. Revanşist qüvvələrin bu və ya digər şəkildə hakimiyyətə yiyələnməsi halında belə onların Azərbaycana qarşı hər hansı təcavüzkar addım atmaq imkanları yoxdur. Vətən müharibəsindən sonrakı dövrdə bütövlükdə Cənubi Qafqazdakı hadisələrin axarını məhz Azərbaycan müəyyənləşdirir və idarə edir. Ona görə də Azərbaycanın iradəsindən kənar heç bir siyasi, iqtisadi və ya hərbi dəyişikliyin baş verməsi mümkün deyil.

***– Azərbaycanın beynəlxalq arenada sərgilədiyi mövqeyinə toxunaq. İstər BMT Təhlükəsizlik Şurasına rəhbərliyi, istərsə də Qoşulmama Hərakatına sədrliyi dönəmində Azərbaycan "Qara qitə"nin maraqlarını müdafiə edib, COVID pandemiyasında müxtəlif ölkələrə yardımlar göndərib. Xarici siyasətimizin bu coğrafiyada fəallaşmasını necə dəyərləndirərdiniz?***

– Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən bu günədək böyük inkişaf yolu keçib. İqtisadiyyatı tam iflasa uğramış, torpaqları işğala məruz qalmış, dəfələrlə dövlət çevrilişi cəhdləri ilə üzləşmiş və nəzərəçarpacaq hərbi potensiala malik olmayan zəif bir dövlətdən Azərbaycan sürətlə inkişaf edən, dünya siyasi və iqtisadi sistemlərinə uğurla inteqrasiya olunmuş ictimai rifah dövlətinə çevrilib.

Artıq dünyada baş verən proseslərə Azərbaycanın mövqeyi ciddi şəkildə nəzərə alınır və beynəlxalq münasibətlər sistemində Azərbaycanın rolu getdikcə artır. Ölkəmizin BMT Təhlükəsizlik Şurasına rəhbərliyi, Qoşulmama Hərakatına 4 il uğurla davam edən sədrliyi və nəhayət, Qarabağ münaqişəsinin çözülməsində həlledici rolu Azərbaycan dövlətini qlobal aktora çevirib. Qlobal aktor rolunda da Azərbaycan bölgədə və dünyada sülhün və təhlükəsizliyin bərqərar olunmasında özünün siyasi, iqtisadi və hərbi imkanlarından məharətlə istifadə edir.

2019-2023-cü illərdə dünyanı sarsıtmış pandemiyaya qarşı beynəlxalq səviyyədə mütəşəkkil müqavimətin təşkil olunmasında Azərbaycan müstəsna rol oynadı və ilk növbədə, pandemiyadan ən çox zərər görmüş qlobal cənub ölkələrinə beynəlxalq yardımın təşkil olunmasının təşəbbüsçüsü oldu. Bütün bunlar dünya dövlətləri və xalqları tərəfindən çox yüksək qiymətləndirildi. Keçən il ABŞ Prezidentinin təşəbbüsü ilə yaradılmış Sülh Şurasında təsisçi üzv qismində dəvət olunması da Azərbaycanın son illərdə beynəlxalq səviyyədə qazandığı və möhkəmləndirdiyi nüfuzun göstəricisi hesab oluna bilər.

Bütün bunlar dövlətimizə beynəlxalq arenada daha fəal xarici siyasət yürütmək, qlobal proseslərə daha çevik və fəal surətdə reaksiya göstərmək imkanları yaradır. Prezident İlham Əliyev məhz bu müstəvidə ölkəmizi bütün dünyaya tanıtdı və onun dünya miqyasında söz sahibinə çevrilməsini təmin etdi. Bu Azərbaycanın siyasi tarixində ən böyük nailiyyətdir.

***– Azərbaycanın Asiya nəhəngi Çinlə strateji tərəfdaşlıq əlaqələri Qərbin bəzi "güclərini" narahat etməyə başlayıb. Xüsusilə Çin mallarının Orta Dəhlizin bir qolu olan Zəngəzur üzərindən Avropaya daşınması layihəsi onlarda qıcıq yaradır. Bunu açıq söyləməsələr də, vurduqları eyhamlardan duyulur...***

– Orta Dəhliz kimi qlobal layihələr ilk baxışdan göründüyü kimi, sadəcə iqtisadi layihə deyil. Bu kimi layihələrin alt qatında həmişə siyasi, iqtisadi, hərbi məqsədlər və gözləntilər də mövcud olur. Ona görə Azərbaycanın belə layihələrdə fəal rol almasına digər aktorlar biganə qala bilməzlər. Ümumiyyətlə, müstəqil dövlət olmaq, müstəqil siyasət yeritməyə cəhd etmək aramsız mübarizə aparmaq üçün qlobal siyasi rəqbət meydanına girmək kimi başa düşülməlidir. Siz bu meydandasınızsa həmişə təzyiqlərlə, hətta təhdidlərlə üzləşəcəksiniz. Bu əbədi mübarizədə uğurlu olmağın şərti diplomatik məharətin, siyasi səriştənin, iqtisadi gücün və hərbi üstünlüyün simbioz şəkildə milli maraqlar istiqamətində birlikdə hərəkətə gətirilməsindən ibarətdir.

Azərbaycan dövlətinin timsalında bütün zəruri şərtlərin vahid bir paradiqma üzərində təmin olunduğunu görmək mümkündür. Məhz bu halda bölgədə və dünyada baş verən pozitiv proseslərdən daha çox faydalanmaq, neqativ proseslərdən isə itkisiz və ya daha az itki ilə çıxmaq mümkündür. Bu baxımdan İlham Əliyevin yürütdüyü siyasət bütün dövlətlər üçün nadir örnək və uğurlu presedentdir. Azərbaycan dövlətinin qlobal prosesləri düzgün dəyərləndirməsi və onlara adekvat mövqe sərgiləməsi bütün layihələrdə onun uğurlu olmasını təmin edir. Son onilliklər ərzində məhz Azərbaycanın təşəbbüsü ilə bölgədə həyata keçirilən tranzit-nəqliyyat, qlobal əhəmiyyətli neft-qaz nəqli layihələri Şərqlə Qərb və Şimalla Cənub arasında min illər ərzində arzulanan, lakin reallaşdırıla bilməyən bağlantıları yaratmaqdadır.

Bütün bunlar, ilk növbədə, Azərbaycanın uğurlarıdır və bu uğurlardan bütün region ölkələri və hətta qlobal aktorlar faydalanacaqlar. Buna görə Azərbaycan bütün qlobal güc mərkəzlərinin diqqət mərkəzindədir və diqqət mərkəzində olmaq isə sadəcə siyasi və iqtisadi dividendlər gətirmir, həm də dövləti qlobal rəqabətin qaynar "savaş" meydanına çəkir. Bu gün Azərbaycan belə bir kəskin rəqabət mühitində yerləşir və bu rəqabətdən maksimum dərəcədə faydalanmaq imkanlarına malikdir.

**Azərbaycan qlobal güc mərkəzlərinin diqqət mərkəzindədir və diqqət mərkəzində olmaq isə sadəcə siyasi və iqtisadi dividendlər gətirmir, həm də dövləti qlobal rəqabətin qaynar "savaş" meydanına çəkir. Çinlə strateji tərəfdaşlığımız heç də digər güc mərkəzləri ilə münasibətlərimizi zədələmir, əksinə, Zəngəzur dəhlizinin yaradılmasında ABŞ ilə müttəfiqlik edirik.**

Azərbaycanın Çinlə strateji tərəfdaşlığı onun bütün güc mərkəzləri ilə münasibətlərdə yürütdüyü balanslı siyasətin tərkib hissəsidir. Bu tərəfdaşlıq heç bir üçüncü tərəfə qarşı deyil, əksinə, müxtəlif güc mərkəzlərinin bizim bölgəmizdə olan maraqlarının ən səmərəli şəkildə uzlaşdırılmasının göstəricisidir. Çinlə strateji tərəfdaşlığımız heç də digər güc mərkəzləri ilə münasibətlərimizi zədələmir, əksinə, eyni zamanda, Zəngəzur dəhlizinin yaradılmasında ABŞ ilə müttəfiqlik edirik və ya Avropanın enerji resursları ilə təmin olunmasında müstəsna rol oynadmaqla yanaşı, Rusiya ilə dostluq və qonşuluq siyasəti də uğurla davam etdirilir. Türkiyə ilə müttəfiqliyimiz isə Azərbaycanın geosiyasi mövqeyini daha da gücləndirir. Azərbaycan türk dövlətlərinin inteqrasiyası müstəvisində də aparıcı rol oynayır. Bütün bunlar Azərbaycanın uğurlarına qısqanc yanaşan qüvvələrin neytrallaşdırılmasında mühüm rol oynayır.

***– Ümumiyyətlə, Avropanın, məlum səbəblərə görə, ənənəvi müttəfiqi və dəstəkçisi ABŞ-dan uzaqlaşaraq Çinlə əməkdaşlığa meyillənməsinin perspektivini necə görürsünüz?***

– Hesab edirəm ki, Avropa İttifaqı hələlik yetkinləşməmiş bir qurumdur. Təxminən 70 ildir formalaşmaqda olan bu qurum özünün son konfiqurasiyasını əldə etməyib. Avropa İttifaqı çərçivəsində baş verən hadisələr belə nəticə çıxarmağa əsas verir. Sözdə vahid güc kimi çıxış edən Avropada əslində çoxsaylı daxili ziddiyyətlər mövcuddur. Siyasi, iqtisadi, hərbi və hətta humanitar xarakterli çətinliklər qarşıya çıxdıqda bu ziddiyyətlər özünü açıq-aşkar göstərir. Məsələn, pandemiya dövründə Avropa İttifaqına üzv ölkələrin münasibətlərində qarşılıqlı yardım əvəzinə, qarşılıqlı mübarizənin şahidi olduq.

Hər bir dövlət digərlərinin maraqlarını nəzərə almadan, ilk növbədə, özünün təhlükəsizliyini təmin etməyə cəhd göstərdi və bir çox hallarda bunu öz müttəfiqlərinin ziyanına təmin etməyə çalışdı. Rusiya-Ukrayna müharibəsinə münasibətdə də Avropa vahid mövqeyə nail ola bilmədi. Rusiya üzərinə qoyulan sanksiyalar və ya Ukraynaya yardım məsələlərində kifayət qədər ziddiyyətli mövqelər sərgiləndi. Avropa-ABŞ münasibətlərində də İttifaq dövlətlərinin vahid mövqedən çıxış etdiyini görmürük. ABŞ və İsrailin İrana qarşı başladığı müharibədə də Avropa İttifaqı yekdil yanaşma nümayiş etdirə bilmədi. Bütün bunlar onu göstərir ki, Avropa İttifaqı konsepsiyasının özündə müəyyən çatışmazlıqlar var.

Bu amilləri araşdırmaq, təhlil edib müvafiq nəticələr çıxarmaq və İttifaq müqaviləsinə lazımi dəyişiliklər etmək Avropa siyasətçilərinin işi və qayğısı olmalıdır. Onlar isə bir çox hallarda vahid Avropa uğrunda deyil, populist təşəbbüslərlə siyasi hakimiyyətə yiyələnmək üçün mübarizə aparırlar. Avropanın ABŞ maraqlarına zidd olaraq Çinlə yaxınlaşmaq cəhdləri isə ənənəvi Avropa yanaşmasının təzahürüdür. Avropa siyasəti heç zaman sabit olmayıb və sabit dəyərlərə söykənməyib. İstənilən ani fayda imkanları onları öz siyasətinə korrektə etməyə sövq edir və bəzi hallarda sözdə fəxr etdikləri Avropa idealları keçici bir marağa qurban verilir. Bütün bunlar qlobal siyasi arenada Avropaya inamı və etimadı zəiflədir.

***– Gələk Azərbaycan–Avropa İttifaqı münasibətlərinin üzərinə. Bir tərəfdən ölkəmiz Aİ üzvü olan 10-dan çox dövlətin enerji təhlükəsizliyini təmin edir, digər tərəfdən AŞPA-da təmsilçiliyimizin bərpasına ögey yanaşma görürük. Sizcə, bu ikili standartlara nə vaxtsa son qoyulacaq?***

– Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki müstəsna rolu danılmazdır və bu fakt Avropa İttifaqı tərəfindən dönə-dönə etiraf edilib. Lakin Avropa İttifaqının əsassız hegemonluq iddiaları bir çox məsələlərdə onun zəifliyini üzə çıxarır. Azərbaycan – AŞPA münasibətlərində Avropanın zəifliyi özünü daha aydın göstərir.

İttifaqa üzv olmayan ölkə üzərində öz hegemonluq iddiasını həyata keçirə bilməyəndə onu səs hüququndan məhrum etməklə hədələmək, əslində, zəiflik əlamətidir. Azərbaycan belə əsassız iddiaları qəbul edəcək qədər zəif bir dövlət deyil. Odur Azərbaycan nümayəndə heyəti özü AŞPA çərçivəsində öz fəaliyyətini dayandırdı və AŞPA-nın ölkəmizə qarşı qərəzli mövqeyi aradan qalxmayana qədər bu təşkilat çərçivəsində fəaliyyət göstərməyə ehtiyac hiss etmir. İndi top onların tərəfindədir. Vəziyyətin dəyişməsi üçün növbəti konstruktiv gediş AŞPA tərəfindən edilməlidir.

***– Ermənistan cəmiyyətində Azərbaycanın sülh niyyətinə inananların sayı artmaqdadır. Vətəndaş cəmiyyəti nümayəndələrinin Qəbələ görüşündə bu tezis xüsusi olaraq vurğulandı. Necə düşünürsünüz, onlarda müharibə xofunun, düşmənçiliyin, revanşist xəyalların aradan qalxması, qonşu kimi normal münasibətlər quraraq yanaşı yaşamağa inamın yaranması üçün nə qədər vaxt lazımdır?***

– Dünya hərb elmində müharibələrin psixoloji, sosioloji, etik, emosional və s. effektləri ilə bağlı çoxsaylı araşdırmalar aparılıb gəlinən qənaət ondan ibarətdir ki, müharibədə məğlub olan tərəf, bir qayda olaraq, bir neçə emosinal mərhələdən keçməyə məcbur olur. Şüurda məğlubiyyətin acısı ilə başlayan mərhələ daha sonra qəzəblə əvəz olunur. Qəzəb revanşizm duyğularını alovlandırır. Məğlubiyyətin gətirdiyi itkilər revanş təşəbbüsünü mümkünsüz edir və məğlub kütlə çıxılmazlıq kimi ağır bir psixoloji duruma yüklənir. Belə bir durumdan çıxış yolu yalnız reallığın dərk olunması ilə başlayır. Mövcud reallıq dərk olunmağa başlayanda peşmanlıq hissi yaranır və hadisələri yenidən və daha doğru dəyərləndirməyə cəhdlər ortaya çıxır.

Ermənistan cəmiyyəti 2020-ci il müharibəsindən sonra bütün bu mərhələləri keçib və hazırda cəmiyyətin böyük bir hissəsi sülhün zəruriliyinə inanır. Belə bir şəraitdə müharibəyə qayıdış ehtimalı kəskin şəkildə azalır. Hazırda Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsi üzrə aparılan proseslər də şərh etdiyimiz ssenarini təsdiq edir. Ona görə də əminəm ki, Azərbaycanın yaratdığı mövcud reallıqlar şəraitində yeni bir müharibənin başlanmasını ehtimalını tamamilə istisna etmək olar.

***Müsahibəni yazdı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# Qlobal qeyri-müəyyənlikdən ədalətli dünya düzəninə

## *Antalya Forumunun tezisləri çağdaş diplomatik zərurəti ifadə edir*




**Bu gün "böyük güclər" arasında rəqabətin dərinləşdiyi şəraitdə regionların öz təhlükəsizlik və inkişaf gündəliklərini daha müstəqil şəkildə formalaşdırmaq cəhdləri güclənir. Azərbaycanın bu istiqamətdə irəli sürdüyü konseptual yanaşma xüsusilə diqqətəlayiqdir. Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Antalya Diplomatiya Forumunda qeyd etdiyi kimi, "regional sahiblənmənin əsas prinsipləri regional çağırışları və problemləri özümüzün, eyni fikirdə olduğumuz tərəfdaşlarla birlikdə həll etməkdən ibarətdir. Biz regionumuzda başqalarının gəlib missiyalarını yerinə yetirmələrini gözləmək əvəzinə, öz nizamımızı özümüz qurmalıyıq".**

Digər mühüm məqam regional sahiblənmənin konkret prinsiplər və mexanizmlər üzərində qurulmasıdır. H.Hacıyevin sözləri ilə desək, bu model "regional məsələlərə ortaq məsuliyyət, regional liderlik, əməkdaşlıq və inteqrasiya" kimi komponentlərin vəhdətinə əsaslanır. Türkiyə–Azərbaycan münasibətlərinin "Şuşa Bəyannaməsi" ilə müttəfiqlik səviyyəsinə yüksəlməsi və bunun daha sonra üçtərəfli və çoxtərəfli platformalara transformasiya olunması regionda yeni əməkdaşlıq arxitekturasının formalaşdığını göstərir. Türkiyə–Azərbaycan–Gürcüstan, Türkiyə–Azərbaycan–İran formatları, eləcə də Mərkəzi Asiya ilə qurulan əlaqələr regional inteqrasiyanın genişlənən coğrafiyasını nümayiş etdirir. Hacıyevin qeyd etdiyi kimi, bu mexanizmlər "bütün tərəflərin maraqlarına xidmət edən praktik əməkdaşlıq platformaları" kimi çıxış edir.

Antalya Diplomatiya Forumundakı çıxışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "dünya hansı istiqamətdə gedəcəyini müəyyənləşdirməkdə böhran yaşayır" fikri müasir siyasi reallığın siyasi-doktrinal ifadəsidir. "Soyuq müharibə"nin başa çatmasından sonra formalaşan beynəlxalq sistem uzun müddət nisbi sabitlik və proqnozlaşdırıla bilənlik ilə xarakterizə olunurdu. Bu dövrdə ABŞ-ın liderliyi altında qurulan liberal beynəlxalq nizam institusional inteqrasiya, iqtisadi qarşılıqlı asılılıq və normativ qaydalar sistemi üzərində formalaşmışdı. BMT, Dünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu kimi qurumlar qlobal idarəetmənin əsas sütunları kimi çıxış edir, dövlətlər arasında münasibətlərin tənzimlənməsində mühüm rol oynayırdı. Xüsusilə 1990–2000-ci illərdə qloballaşmanın sürətlənməsi bu modeli daha da gücləndirmiş, iqtisadi qarşılıqlı asılılıq vasitəsilə münaqişə ehtimallarının azalacağına dair optimist gözləntilər yaratmışdı.

2008-ci il qlobal maliyyə böhranı liberal iqtisadi modelin zəif tərəflərini üzə çıxardı və Qərb mərkəzli iqtisadi idarəetməyə olan inamı sarsıtdı. Digər mühüm məqam qlobal institutların effektivliyinin azalmasıdır. BMT Təhlükəsizlik Şurası kimi əsas qərarverici mexanizmlər böyük güclər arasındakı ziddiyyətlər səbəbindən çox vaxt iflic vəziyyətinə düşür. Məhz bu kontekstdə R.T.Ərdoğanın "problemlərin ölçüsü düşündüyümüzdən daha böyükdür" fikri xüsusi analitik əhəmiyyət kəsb edir. Belə bir yanaşma mövcud böhranların beynəlxalq sistemin struktur səviyyəsində baş verən transformasiyanın nəticəsi olduğunu göstərir.

Struktur böhran ən aydın şəkildə regional münaqişələrin həm sayında, həm də intensivliyində artım vasitəsilə özünü



göstərir. Əgər əvvəlki dövrlərdə lokal qarşıdurmalar müəyyən coğrafi çərçivədə məhdudlaşırdısa, bu gün həmin münaqişələr böyük güclərin rəqabət məkanına çevrilərək daha geniş geosiyasi məna kəsb edir. Rusiya–Ukrayna müharibəsi bu transformasiyanın ən bariz nümunəsidir. Müharibə Avropada təhlükəsizlik arxitekturasının gələcəyi uğrunda gedən strateji qarşıdurmadır. NATO-nun genişlənməsi, Avropa ölkələrinin müdafiə xərclərini artırması və enerji təhlükəsizliyi məsələsinin prioritetə çevrilməsi göstərir ki, bu müharibə bütövlükdə Avroatlantik məkanı yenidən formalaşdırır. Eyni zamanda, Rusiya ilə Qərb arasında qarşıdurmanın dərinləşməsi beynəlxalq sistemdə yeni "sərhəd xətləri" yaradır və bloklaşma meyillərini gücləndirir.

***

Yaxın Şərqdə vəziyyət daha mürəkkəb və çoxqatlı xarakter daşıyır. Suriya münaqişəsi artıq on ildən çoxdur ki, davam edir və bu müddət ərzində regionda qlobal və regional güclərin maraqlarının toqquşduğu əsas platformaya çevrilib. Burada ABŞ, Rusiya, İran və Türkiyə kimi aktorların paralel və bəzən ziddiyyətli strategiyaları münaqişənin həllini çətinləşdirir. İran ətrafında davam edən gərginlik – xüsusilə nüvə proqramı, sanksiyalar və regional təsir uğrunda mübarizə – Yaxın Şərqdə balansın daim dəyişkən qalmasına səbəb olur.

Afrika qitəsində, xüsusilə Sudanda müşahidə olunan daxili qarşıdurmalar isə beynəlxalq sistemdə başqa bir təhlükəli tendensiyanı – dövlət institutlarının zəifləməsini və "uğursuz dövlətlər" fenomeninin genişlənməsini ortaya qoyur. Türkiyənin xarici işlər naziri Hakan Fidanın vurğuladığı kimi, bu münaqişələrin artıq lokal çərçivədən çıxması onların mahiyyətcə dəyişdiyini göstərir. Müasir dövrdə hər bir regional qarşıdurma qlobal sistemlə sıx bağlıdır – istər enerji bazarları, istər təhlükəsizlik alyansları, istərsə də iqtisadi əlaqələr vasitəsilə. Məhz bu mürəkkəb və çoxqatlı böhran mühitində diplomatiyanın funksiyası keyfiyyətcə yeni mərhələyə keçir və ənənəvi çərçivələri aşır. Türkiyə liderinin diplomatiyanı "insanlığın və ortaq gələcəyin təməli" kimi təqdim etməsi bu dəyişimin konseptual ifadəsidir və diplomatiyanın təhlükəsizlikdən daha geniş – sivilizasion ölçü qazandığını göstərir.

Mürəkkəb və rəqabətli geosiyasi mühitdə orta güclərin rolu keyfiyyətcə yeni məzmun qazanır və onların funksiyası artıq passiv uyğunlaşmadan aktiv formalaşdırıcılığa doğru dəyişir. Ankaranın xarici siyasət kursu son illər "strateji muxtariyyət" və ya çoxvektorlu balanslaşdırma prinsipləri üzərində qurulub. Türkiyə bir tərəfdən NATO üzvü kimi Qərb təhlükəsizlik arxitekturasında mühüm yer tutur, digər tərəfdən isə Rusiya ilə enerji, müdafiə və regional məsələlər üzrə əməkdaşlığı davam etdirir. Eyni zamanda, Yaxın Şərq, Qafqaz və Afrika kimi müxtəlif regionlarda aktiv diplomatik iştirakını genişləndirir. Məhz bu konfiqurasiya Türkiyəyə vasitəçilik funksiyasını effektiv şəkildə icra etmək imkanı verir.

Orta güclərin vasitəçilik imkanları böyük güclərin strateji qərarlarından asılı olaraq darala və ya genişlənə bilər. Əgər böyük güclər arasında qarşıdurma kəskinləşərsə və kompromisə maraq azalarsa, vasitəçi aktorların təsir imkanları da məhdudlaşır. Digər tərəfdən, balans siyasəti müəyyən risklər də yaradır, çünki müxtəlif tərəflərlə paralel münasibətlər bəzən etimad problemlərinə səbəb ola bilər. Bununla belə, mövcud geosiyasi dinamika göstərir ki, beynəlxalq sistem hələ də klassik güc siyasətinin təsirindən çıxmayıb və yaxın perspektivdə ondan tam imtina edilməsi real görünmür. Əksinə, son illərdə hərbi xərclərin qlobal miqyasda artması, yeni silahlanma texnologiyalarına investisiyaların genişlənməsi güc amilinin yenidən prioritetləşdiyini göstərir.

Beləliklə, Antalya Diplomatik Forumunun əsas tezisi bu oldu: mövcud mərhələdə dəyişməyən əsas reallıq ondan ibarətdir ki, dünya hələ də aydın strateji istiqamətə malik deyil. Lakin bu istiqamətin hansı formada müəyyənləşəcəyi birbaşa diplomatiyanın nə dərəcədə effektiv, inklüziv və adaptiv olacağından asılıdır.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**Yaxın Şərqdə cərəyan edən son hadisələr göstərir ki, region formal atəşkəs mərhələsinə daxil olsa da, əslində, dərin və çoxqatlı böhran davam edir. Livan rəhbərliyinin İsraillə birbaşa təmasdan imtinası, ABŞ-ın hərbi resurslarının tükənməsi və Avropaya silah tədarükündə yaranan fasilələr münaqişənin regional çərçivəni aşdığını göstərir. Xarici medianın müxtəlif mənbələrdən topladığı məlumatlar təsdiqləyir ki, tərəflər arasında etimadsızlıq səviyyəsi kritik həddə qalmaqdadır. Başqa sözlə desək, bölgədə yaranmış nisbi sakitlik anlaşmazlıqların, diplomatik "çapalamanın" və strateji qarşıdurmanın üzərini örtən müvəqqəti pərdədən başqa bir şey deyil.**

# Qapalı dövrədə "çapalayan" diplomatiya

## *Livanın İsraillə dialoqdan imtinası ölkəni siyasi labirintdə saxlayır*

**"LBCI":** "Livan Prezidenti Cozef Aun İsrailin Baş naziri Benyamin Netanyahu ilə telefon danışığı aparmayacaq". Aun ABŞ-ın Dövlət katibi Marko Rubio ilə telefon danışığında bu məsələyə toxunub. Qeyd edək ki, bundan əvvəl ABŞ Prezidenti Donald Tramp İsrail və Livan liderləri arasında telefon danışığı olacağını bəyan etmişdi.

**"Reuters":** Amerika tərəfi bir sıra Avropa ölkələrinə İrandakı hərbi əməliyyatla bağlı silah tədarükünün ləngiyəcəyi barədə məlumat verib. "Məlumata görə, təchizatdakı fasilələr Baltikyanı və Skandinaviya ölkələri də daxil olmaqla, Avropa İttifaqının bir neçə dövlətinə təsir edəcək. Rəsmi yazışmalarda Ağ Ev administrasiyasının nümayəndələri göstəriblər ki, İranla silahlı münaqişə ABŞ-ın ehtiyatlarını tükətməkdə davam edir. Bu səbəbdən tədarüklə bağlı əvvəllər əldə olunmuş razılaşmaların tam həcmdə yerinə yetirilməsi müvəqqəti olaraq qeyri-mümkündür". Vaşinqtonda Yaxın Şərq qarşıdurması fonunda hərbi sənaye kompleksinin artan tələbatı ödəyə bilməyəcəyindən narahatlıq ifadə edirlər.



**"News Now":** Livan Silahlı Qüvvələrinin mexanikləşdirilmiş hissələri 10 günlük atəşkəs rejiminin qüvvəyə minməsinin qeyd edildiyi intensiv silahlı atəşfəşanlıqlardan sonra gecə saatlarında paytaxt küçələrində patrul xidmətinə başlayıb. Bu barədə ordunun mətbuat xidmətinin "X" sosial şəbəkəsindəki bəyanatında qeyd olunub. "Bir sıra məhəllələrdə məsuliyyətsiz vətəndaşlar avtomat silahlardan və qumbaraatanlardan intensiv atəş açaraq çox sayda insanın həyatını təhlükəyə atıb və dövlət və özəl əmlaka ziyan vurublar".

üçün gördüyü tədbirlərin effektivliyinin sübutu adlandırıb.

**"Le Monde":** Fransa Prezidenti Emmanuel Makron İsrail ilə Livan arasında atəşkəsi alqışlayıb və ABŞ-ın bu prosesdəki rolunu qeyd edib. "Hizbullah" və İsrail arasında atəşkəsə tam dəstəyimi bildirirəm. Həmçinin hərbi əməliyyatların davam etməsi nəticəsində onun pozula biləcəyindən narahatlığımı ifadə edirəm. Livan–İsrail sərhədinin hər iki tərəfində mülki əhalinin təhlükəsizliyinin təmin olunmasını tələb edirəm. "Hizbullah" silahı yerə qoymalı, İsrail isə Livanın suverenliyinə hörmət etməli və müharibəni dayandırmalıdır".

**"Al Jazeera":** Tərəflər arasında sonrakı danışıqlar prosesində nəzərəçarpacaq irəliləyiş olacağı təqdirdə, İsrail və Livan atəşkəs rejimini uzadıla bilər. Bu, tam mətni ABŞ Dövlət Departamentinin saytında dərc edilən iki ölkə arasında 10 günlük atəşkəs barədə razılaşmada öz əksini tapıb. Qeyd edək ki, bu qərar danışıqların başlaması üçün şəraitin yaradılmasına və regionda gərginliyin azaldılmasına yönəlib.

**"Anadolu Agency":** Dünən sonuncu ABŞ hərbi texnikası Suriyanı tərk edib. Bunu Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa V Antalya Diplomatiya Forumunda bildirib. Onun sözlərinə görə, Suriyada əvvəllər eyni vaxtda Böyük Britaniya, ABŞ, Fransa və Rusiyaya məxsus bir neçə hərbi baza fəaliyyət göstərib: "Artıq Suriyanın şimal-şərq bölgəsi bütün xarici hərbi bazalardan tamamilə azaddır".

**"CNN Türk":** İran ABŞ və İsraillə münaqişədə müvəqqəti atəşkəsə qarşı çıxır, çünki müvəqqəti razılaşmalar böhranı yalnız uzadır. Bu barədə İranın xarici işlər nazirinin müavini Səid Xətibzadə Antalya Diplomatiya Forumu çərçivəsində jurnalistlərə bildirib: "Biz heç bir müvəqqəti atəşkəsi qəbul etmirik, çünki əvvəlcə diplomatiya, sonra müharibəyə qayıdışa son qoyulmalıdır".



**"Times of Israel":** Livan ordusu atəşkəs rejiminin pozulduğunu bildirib və respublikanın cənub bölgələrinin sakinlərini evlərinə qayıtmamağa çağırıb. Müvafiq bəyanatın yer aldığı paylaşım ordunun mətbuat xidmətinin "X" sosial şəbəkəsindəki səhifəsində yerləşdirilib: "Ordu komandanlığı atəşkəs razılaşmasının bir sıra pozuntuları fonunda vətəndaşları cənubdakı kəndlərə və yaşayış məntəqələrinə tələsik qayıtmaqdan çəkinməyə çağırır".

**"JoongAng Daily":** Cənubi Koreyanın xam neft daşıyan gəmisi ilk dəfə Hörmüz boğazından yan keçərək Qırmızı dəniz vasitəsilə alternativ marşrutdan istifadə edib. Bu hadisə Hörmüz boğazının, faktiki olaraq, blokadaya alınması fonunda dolama marşrutdan istifadənin ilk təsdiqi oldu. Nazirlik bunu Seulun İran ətrafında davam edən gərginlik şəraitində Yaxın Şərqdən sabit enerji tədarükünün təmin edilməsi

**"The New York Times":** İsrailin müdafiə naziri İsrael Katz bildirib ki, atəşkəs qüvvəyə minməzdən əvvəl "Hizbullah"a qarşı müharibədə qoyulan şərtlər yerinə yetirilməyib. Onun sözlərinə görə, Livanın cənubunda bir ərazi demilitarizasiya edilməyib. Nazir əlavə edib: "Bu məsələ ya diplomatik yollarla, ya da atəşkəs başa çatdıqdan sonra İsrailin hərbi əməliyyatlarının yenidən bərpası ilə həll olunmalıdır".

*Hazırladı:*
***N.BEYDİYEVA***
***XQ***

# TDT və yeni çağırışlar




## III MƏQALƏ

### Lider və cəmiyyət

TDT üzv ölkələrinin liderləri təşkilatın güclənməsi və bütövlükdə Türk dünyasının siyasi, geosiyasi, ideoloji, mədəniyyət (o cümlədən dil) sferaları üzrə yeni çağırışlar fonunda bütövləşməsi istiqamətində təqdirəlayiq fəaliyyətləri strateji əhəmiyyəti olan prosesdir. Çağdaş dünyada bu, davamlı və faydalı inteqrasiyanın (çox mənalarda) əsas motivəedici faktoru olmaqla yanaşı, digər vacib məsələni aktuallaşdırır. Biz burada TDT-nin lider-cəmiyyət qarşılıqlı legitim münasibətləri sistemini nəzərdə tuturuq. Onun üç aspekti baxılan mövzu kontekstində xeyli aktualdır.

Birincisi, TDT-yə üzvə olan hər bir dövlətin daxilində lider-cəmiyyət münasibətlərinin Türk dünyasının perspektivli birliyi istiqamətində sinerji yaratmaq potensialının reallaşma dərəcəsi.

İkincisi, üzv dövlətlərin daxili lider-cəmiyyət münasibətlərinin formalaşdırdığı sinerjiyi legitim qaydada təşkilatın ümumi sinerji sahəsinə çevirmək.

Üçüncüsü, lider-cəmiyyət münasibətlərini türk inteqrasiyasına xidmət edəcək məcraya yönəltmək üçün sosial şəbəkələrin (o cümlədən medianın hər bir növündən) funksiyalarından maksimum faydalanmaq.

TDT-nin yeni çağırışlar şəraitində güclənməsi kontekstində hər üç aspektin ayrılıqda və birgə əhəmiyyəti böyükdür. Ümumi halda bunu sosial, siyasi və mədəni identikliklərin vəhdətinin yaradılması prosesi kimi də təsəvvür edə bilərik. Bu müstəvidə biz, TDT-də medianın rolu məsələsi üzərində dayanaq.

### Missiya və məsuliyyət

Müasir nəzəri təlimlərdə medianın missiyası geniş tədqiq edilməkdədir. Müxtəlif yanaşmalar mövcuddur. Onların sırasında medianın sosiumun bütün kəsimlərinə ciddi informasiya təsiri göstərmək və faktiki olaraq, ortaq rəy formalaşdırmaq (reallığa uyğun və ya uyğunsuz) imkanları xüsusi yer tutur.

Dezinformasiya həm də bu prizmada sosial kontekstdə neqativ anlam alır. Bütövlüyü və müstəqil informasiya məkanını saxlamaq üçün avtomatik olaraq cəmiyyətdə "dezinformasiyaya qarşı səmərəli mübarizə" məsələsinin aktuallığı strateji məna kəsb edir. O cümlədən bu məsələ TDT üçün prinsipial olaraq aktualdır. Bunların fonunda TDT-də ümumi media mənzərəsi necə görünür?

Belə təəssürat yaranır ki, TDT-yə üzv ölkələrinin medialarının ümumtürk birliyi yaratmaqda oynaya biləcəkləri səmərəli rol baxımından missiyaları ilə məsuliyyətləri arasında müəyyən uyğunsuzluq hələ qalır. Onun təzahürləri türk dövlətləri və cəmiyyətləri haqqında bir sıra hallarda ümumi məqsədə ziyan verə bilən informasiyaların yer alması və hətta onun üzərində "arqumentli və faktlı təhlil" aparılması cəhdlərini göstərmək olar.

Bu zaman, əksər hallarda "obyektiv və faktlı təhlillərin" açıqca hansısa kənar dövlətin maraqlarına xidmət etdiyi hiss edilir. Adətən üsul kimi türk ölkələrinin, dövlətlərinin və cəmiyyətlərinin müasir dövlətçilik kriteriyalarına cavab vermədiyi, toplumun ayrı-ayrı kəsimlərinin mənəvi-əxlaqi qüsurlarla dolu olduğunu təbliğ etməkdən istifadə edilir. Hətta cəmiyyətin elit sayılan təbəqələrinin dəyərlərinin (siyasi, ideoloji, mənəvi, əxlaqi və s.) aşağılanması hallarına rast gəlinir. Çox təəssüf ki, türk cəmiyyətlərində ailə modelinin təhrif olunmuş, qondarma, süni və aşağılanmış mənzərəsini yaratmaq cəhdləri özünü göstərir.

Burada bir düşündürücü məqamı da vurğulamaq lazımdır. Doğrudur, vurğuladığımız neqativ və dağıdıcı informasiya təsirləri hələlik aparıcı deyildir, lakin bu tendensiyanın qarşısının aidiyyəti qurumlar tərəfindən alınması ehtiyacının yarandığına inanırıq. Bu baxımdan TDT üzvlərində medianı müşahidə və ona nəzarət funksiyaları olan qurumlar üzərlərinə düşəni səmərəli yerinə yetirə bilirmi? Bizcə, bu suala cavab axtarışları əhəmiyyətlidir.

Başqa bir vacib saydığımız məsələni qeyd etmək gərəkdir.

### Güclü və sivil türk dövləti obrazı

Cəmiyyətin maraqları və TDT-nin güclənməsi prizmasında "türk dövləti" anlayışının çağdaş tələblər kontekstində həm də "sivil dövlət" obrazının yaradılması olduqca əhəmiyyətlidir. Burada üç məqsədə nail olmaq mümkündür.

Birincisi, son bir neçə yüzildə türk dövlətçiliyinin davamlı olaraq neqativ obrazının müəyyən imperialist dairələr tərəfindən yaradılması prosesi qırılar.

İkincisi, hər bir türk dövlətinin özünə inamı daha da artar.

Üçüncüsü, avtomatik olaraq TDT-nin "sivil dövlətlərin təşkilatı" kimi inkişaf etdirilməsi ontoloji anlam (və zərurət) kəsb edər.

Deməli, hər bir türk ölkəsində media dövlətçilik baxımından strateji rol oynaya bilər. Buna görə də türk dövlətləri ilə bağlı informasiyalara və təhlillərə xüsusi həssaslıqla yanaşmaq lazımdır. Xüsusilə, Azərbaycan-Türkiyə münasibətlərinin ayrıca həssas olduğu unudulmamalıdır (hər iki ölkə mediasında). Çünki Türkiyə qlobal miqyasda söz sahibi olan türk dövləti səviyyəsindədir, Azərbaycan isə həm Türk dünyasının qəlbidir, həm də TDT-nin lideri!

Bundan başqa, Azərbaycan regionlararası miqyasda orta güc kimi xüsusi statusa malikdir. Bakının Türk dünyasını birləşdirəcək böyük potensialı və imkanları mövcuddur. Buna görə də Azərbaycan mövzusu türk dövlətlərində pozuculuqla məşğul olan bir sıra gizli servislərin, informasiya qurumlarının "gözlərinə tikan kimi batır"! Onların bu təxribatlarına getməməliyik.

Azərbaycanın hər bir dövlətlə, ilk növbədə, türk dövlətləri ilə münasibətləri bizim üçün həyati əhəmiyyətli məsələdir. Digər türk dövlətləri haqqında yadların ssenariləri üzrə neqativ informasiyalar yaymaq Azərbaycanın maraqlarına qətiyyən uyğun deyildir. Bu baxımdan bir sıra müğənni səviyyəsində adi məişət münasibətlərini "millətə olan münasibət" kimi təqdim etmək cəhdləri qəbul edilməzdir. Ucuz şouların dövlət və millət məsələlərinə sırınmağa çalışılmasının özü antimilli təxribatdır.

Bunların əvəzinə, media güclü və sivil türk dövləti obrazını daha dərin və geniş yanaşma əsasında formalaşdırmaq istiqamətində ciddi addımlar atmalıdır. Burada söhbət qətiyyən nə məddahlıqdan, nə də əsası olmayan ifrat tərəfkeşlikdən gedir. Əksinə, jurnalist etikası ilə sərbəstliyi və məsuliyyətinin optimal nisbətinin gözlənməsi önəmlidir.

Cəmiyyətin azadlığı ilə məsuliyyətinin güclü dövlətçiliyə xidmət müstəvisində sintezi, təbii ki, təkcə media mövzusunu əhatə etmir. Özlüyündə mürəkkəb və çoxaspektli olan bu proses xüsusi və geniş kontekstdə araşdırılmalıdır. Bu məqalədə ona imkan yoxdur.

Azərbaycan Prezidentinin ayrıca qeyd etdiyi türk dövlətlərinin vahid məqsəd ətrafında birləşməsi məsələsi isə bütün hallarda prinsipial strateji əhəmiyyət daşıyır və çox aktualdır.

### TDT: vahid məqsəd naminə

Türk Dövlətləri Təşkilatının güclü olması struktur-funksional potensialını hansı dərəcədə reallaşdıra bilməsi ilə birbaşa bağlıdır. Bunun üçün onun bir təşkilat olaraq özəllikləri çox önəmlidir. Burada TDT-nin beynəlxalq münasibətlərdə iştirakı məsələsi öz aktuallığı ilə fərqlənir. Yəni hər hansı regional və ya regionlararası təşkilat beynəlxalq münasibətlərdə aktiv iştirak edə bilmirsə, o, "yeni regionalizm" adlanan və müasir geosiyasətdə ciddi rol oynayan regionlaşmaya uyğun sayılmır.

Lakin TDT sırf regional təşkilat deyildir – o, coğrafi olaraq Avropadan (Macarıstan, Türkiyə) başlayaraq, Qafqaz daxil olmaqla Mərkəzi Asiyanı əhatə edir. Əsas isə odur ki, TDT regional maraqlar naminə deyil, eyni etnik-mədəni identikliyə malik dövlətlər qrupunun qarşılıqlı faydalı əməkdaşlıq, sülh, təhlükəsizlik və digər sferalarda elə təşkilatlanmasını hədəfləmişdir ki, həm xalqların, ölkələrin rifahına, həm də qlobal geosiyasətin ədalətli olmasına ciddi töhfələr versin.

Bu anlamda TDT indi qəbul edilən "regionlaşma"dan da geniş anlamı olan təşkilatlanma üsuludur. Belə çıxır ki, TDT üçün "vahid məqsəd" anlayışı xüsusi substantiv və funksional anlam daşıyır. Azərbaycan Prezidentinin həmin məqama xüsusi önəm verməsi, əlbəttə, həm nəzəri, həm də praktiki olaraq böyük əhəmiyyət kəsb edir.

Vahid məqsəd məsələsi avtomatik olaraq ona nail olmanın əsas faktorlarını müəyyən etməyi aktuallaşdırır. TDT üçün onlar aşağıdakılar ola bilər:

*- Ortaq türk identikliyinə malik olmaq;*

*- Siyasi-hüquqi legitimlik;*

*- Qərarların qəbul edilməsinin əsaslı, çevik və faydalı mexanizmini müəyyən etmək.*

Bu faktorların hər biri ayrıca prosesdir və özəl funksiyaları vardır. Ortaq türk identikliyi TDT-nin bir təşkilat olaraq etnik-mədəni təməlinin möhkəmliyini, bütövlüyün və konkret obrazını ifadə edir. Bu identiklik məhdud irqi məna daşımır, əksinə, böyük bir qövmün müasir şərtlər daxilində əməkdaşlıq və təhlükəsizlik naminə real birləşə bilməsinin optimal modelini müəyyən etməkdə kompas rolunu oynayır. Həmin aspektdə türk dövlətlərinin şansları başqalarından daha çoxdur.

Birincisi, türk xalqları bir siyasi təşkilatda birləşmək modelini özlərinin artıq müstəqil dövlətlərinin mövcud olması əsasında axtarırlar. Bu, bəri başdan bərabərhüquqluluğu təmin edir və "böyük qardaş–kiçik qardaş" süni bölgüsünü arxa plana atır. Eyni zamanda, TDT-yə daxil olan hər bir türk cəmiyyətinin artıq daxili inteqrasiya olmaq təcrübəsi mövcuddur və onu uğurla ümumtürk mühitinə proyeksiya etmək şansı böyükdür.

İkincisi, TDT-nin yaradılmasında başlıca məqsəd uzun müddət özünü göstərmiş ədalətsizliyin qarşısını almaq və Türk dünyasının qlobal miqyasda layiqli yerini təmin etməklə bağlıdır. Yəni burada kimsəyə qarşı aqressiyaya yer yoxdur.

Üçüncüsü, əsasən Azərbaycanın təşəbbüsü və praktiki fəaliyyəti sayəsində TDT infrastruktur diplomatiyası üzərində bərqərar olur. Bu o deməkdir ki, TDT yalnız etnomədəni özəlliklə deyil, həm də praktiki infrastruktur şəbəkəsi ilə fərqlənir. Burada istehsal, istehlak, nəqliyyat, logistika, informasiya, yeni infrastrukturun yaradılması, təhlükəsizlik və digər aspektlərin sintezi yaradılır. Bu da TDT-nin müasir çağırışlar fonunda çox möhkəm və sivil təməllərə malik olduğunu ifadə edir.

Beləliklə, TDT bir inteqrasiya təşkilatı olaraq geniş perspektivlərə malikdir. Onun qlobal geosiyasətdə əsas güclərdən birinə çevrilməsi şansı yüksəkdir. Türk coğrafiyasını da əhatə edən son geosiyasi-hərbi proseslər bir daha göstərdi ki, TDT kəskin böhranlı şəraitdə də dayanıqlıdır və davamlı sülhü təmin etmək üçün təsirli addımlar ata bilər. Bu yalnız təşkilata üzv ölkələrin özlərini müdafiə üçün kollektiv fəaliyyətə tam hazır olmasında ifadəsini tapmır, həm də geniş bir coğrafiyada TDT-nin sülhyaradıcı potensialının çox olduğunu göstərir.

Sülhyaradıcılıq TDT-nin təşkilat kimi mahiyyətindədir. Onun əməkdaşlıq strategiyası və ona nail olmaq mexanizmləri də sülhyaradıcılıqla harmoniya təşkil edir. Vurğulanan keyfiyyətlər TDT-yə real olaraq qlobal geosiyasi güc kimi formalaşması imkanlarını xeyli genişləndirir. Bu baxımdan Azərbaycan Prezidentinin təşkilatın əsas geosiyasi güclərdən biri olmaq haqqındakı mövqeyi tam əsaslı və perspektivlidir!

***(ardı var)***

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan Konqo prezidentinin andiçmə mərasimində təmsil olunub





**Aprelin 16-da paytaxt Brazzavil şəhərində Konqo Respublikasının yenidən seçilən Prezidenti Deni Sassu-Nqessonun andiçmə mərasimi keçirilib.**

Mərasimdə ölkəmizin Keniyadakı, eyni zamanda, iqamətgahı Nayrobi şəhərində olmaqla Konqodakı səfiri Sultan Hacıyev iştirak edib. O, Deni Sassu-Nqessoya Azərbaycan Prezidenti İlham Əliyevin təbrikini və səmimi salamlarını çatdırıb. Ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin daha da inkişafına inamını ifadə edib.

Konqo Prezidenti onun da dərin ehtiramını və ən xoş arzularını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib. Azərbaycan Hökumətinin bu mərasimdə təmsil olunmasına görə səfirə təşəkkür edib, həmçinin ölkəsi ilə Azərbaycan arasında mövcud əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Səfər çərçivəsində səfir Sultan Hacıyevin Konqonun xarici işlər, frankofoniya və xaricdə yaşayan konqolularla iş üzrə naziri Jan Klod Qakosso, nazir müavini Güi Nestor İtua ilə keçirdiyi görüşlərdə ikitərəfli əlaqələrin genişləndirilməsi və beynəlxalq platformalarda qarşılıqlı dəstək imkanları ilə bağlı müzakirə aparılıb.

***XQ***

# Baş prokuror Türkiyə heyətini qəbul edib



**Aprelin 17-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Ali Məhkəməsinin 2-ci Cinayət Kollegiyasının Sədri Yusuf Kuzunun rəhbərlik etdiyi heyəti qəbul edib.**

Baş prokuror Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" prinsipinə əsaslanan iki qardaş ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb. O, Şanlıurfa və Kahramanmaraş şəhərində yerləşən məktəbə edilən silahlı hücum nəticəsində əksəriyyəti uşaq olmaqla çox sayda insanın həlak olması və yaralanması ilə bağlı başsağlığını bildirib. Yusuf Kuzu göstərilən qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib, ölkələrimizin həm prokurorluq, məhkəmə və ədliyyə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olmasını vurğulayıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında, o cümlədən hüquq və qanunvericilik sistemində həyata keçirilmiş islahatlar barədə fikir mübadiəsi aparılıb.

***Q.YUSİFOĞLU***
***XQ***

# Konstitusiya Məhkəməsi Plenumunun iclası

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən bildirilib ki, məhkəmə iclasında Azərbaycan Prokurorluğunun sorğusu əsasında Konstitusiyanın 62-ci maddəsi baxımından Cinayət-Prosessual Məcəlləsinin 74.3-cü maddəsində nəzərdə tutulan "axırıncı yaşayış yeri" və 522.6-cı maddəsində nəzərdə tutulan "sonuncu yaşayış yeri" anlayışlarının "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunun 1, 2, 3 və 5-ci maddələri ilə əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim F.Məmmədovun məruzəsini, maraqlı subyektlər Azərbaycan Prokurorluğunun sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi, Vəkillər Kollegiyası tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının müdiri, hüquq elmləri doktoru F.Abbasovanın və həmin kafedranın müəllimi, hüquq üzrə fəlsəfə doktoru L.Məmmədovanın rəyini və iş materiallarını araşdırıb, müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Konstitusiyanın 62-ci maddəsinin hüquqi təyinatından və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunun 1-ci maddəsinin tələblərindən irəli gələrək, Cinayət-Prosessual Məcəllənin 74.3 və 522.6-cı maddələrində ərazi üzrə məhkəmə aidiyyətini müəyyən edən "axırıncı yaşayış yeri" və "sonuncu yaşayış yeri" anlayışları "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunun 3-cü maddəsində əks olunan sənədlərdə göstərilən yaşayış yerini ehtiva edir.

Şəxs hər hansı səbəbdən yaşayış yeri üzrə qeydiyyatdan çıxdıqda məhkəmə aidiyyəti həmin şəxsin sonuncu dəfə qeydiyyata alındığı yaşayış yeri üzrə müəyyən edilir.

Konstitusiyanın 62-ci maddəsinin, hüquqi müəyyənlik prinsipinin tələbləri və Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla:

- təqsirləndirilən şəxs Azərbaycanda yaşayış yeri üzrə qeydiyyata alınmadığı halda xaricdə törədilməsi ehtimal olunan cinayətə dair işin ərazi üzrə məhkəmə aidiyyətinin müəyyənləşdirilməsi ilə bağlı Cinayət-Prosessual Məcəllənin 74.3-cü maddəsinin təkmilləşdirilməsi;
- Cinayət-Prosessual Məcəllənin 74.3 və 522.6-cı maddələrində nəzərdə tutulan "axırıncı yaşayış yeri" və "sonuncu yaşayış yeri" anlayışlarının, həmçinin 74.1-ci maddəsində əks olunmuş "cinayətin törədildiyi yerin yurisdiksiyasına aid olan" ifadəsinin "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 25.5, 54.2 və 56.0.2-ci maddələrinin tələblərinə uyğunlaşdırılması məqsədilə həmin maddələrdə müvafiq dəyişikliklərin edilməsi Milli Məclisə tövsiyə edilsin.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

***XQ***

# Biznesdə də güc birlikdədir

## *Klaster yanaşmasının geniş imkanları*

**Qlobal iqtisadi mühitdə rəqabət qabiliyyətinin artırılması və dayanıqlı inkişafın təmin olunması baxımından klasterləşmə yanaşması getdikcə daha aktual xarakter alır. Azərbaycanda da bu istiqamətdə atılan addımlar sahibkarlar üçün yeni əməkdaşlıq platformaları və bazar imkanları formalaşdırır. Klaster modelləri innovasiyaların təşviqi, resursların səmərəli bölüşdürülməsi və ixrac potensialının genişləndirilməsi baxımından mühüm alət kimi çıxış edir.**

Mövzu ilə bağlı Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Strateji inkişaf və innovasiyalar departamentinin müdir müavini Altun Yasinli ilə həmsöhbət olduq.

***– Klasterləşmə nədir və sahibkarlar üçün hansı imkanlar yaradır?***

– KOB klaster – eyni və ya oxşar iqtisadi fəaliyyət sahələrində, müəyyən coğrafi bölgədə yerləşmə əsasında yaranan, işçi qüvvəsini, vahid bazarı və xidmətləri bölüşən KOB klaster şirkəti və KOB klasteri iştirakçılarının birləşdiyi ekosistemdir. Bu ekosistem klaster daxilində əməkdaşlıq nəticəsində xərclərin optimallaşdırılmasına və istehsalın səmərəliliyinin artmasına səbəb olur. Eyni zamanda, KOB klaster modeli müəssisələrarası sinerjini, resursların birgə istifadəsini və innovasiyaların mübadiləsini gücləndirərək ümumi məhsuldarlığı artırır və sözügedən müəssisələrin rəqabət qabiliyyətinin inkişafını təmin edir.

***– Klasterləşmə ilə bağlı ölkəmizdə hansı dövlət dəstəyi və güzəştlər var?***

– Azərbaycan Respublikasının Vergi Məcəlləsində KOB klaster şirkəti və onun iştirakçısı üçün bir sıra vergi güzəştləri nəzərdə tutulur. Belə ki, KOB klaster şirkəti 7 il müddətinə mənfəət, KOB klasteri fəaliyyətində istifadə olunan torpaqlara görə torpaq və əmlak vergisindən azad olunur. Eyni zamanda, təsdiqedici sənəd əsasında istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün ƏDV-dən azad edilir. KOB klasterinin iştirakçısı olan şəxs isə 7 il müddətində KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal üzrə əldə etdiyi mənfəət və ya gəlirin kapital xarakterli xərclərinin çəkilməsinə yönəldilən hissəsinin mənfəət və ya gəlir vergisindən azad olunur.

Həmçinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən KOB klasterinin funksional xəritəsinin və maliyyə-iqtisadi əsaslandırılmasının hazırlanmasına, KOB klasterinin iştirakçısının tapılmasına müvafiq dəstək göstərilir.

***– "KOB klaster şəhadətnaməsi"ni əldə etmək üçün hansı şərtlər və sənədlər tələb olunur?***

– Müvafiq qanunvericiliyə əsasən ilkin olaraq yaradılacaq KOB klaster çərçivəsində "KOB klaster şirkəti"nin qarşılıqlı surətdə asılı olmayan azı 10 mikro, kiçik və orta sahibkarlıq subyekti ilə təsərrüfat əqdlərini bağlaması və klaster üzrə hazırlanan məhsulun xammal və materialının dəyərinin 50 faizinin klasterin iştirakçısı olan yerli istehsalçılardan təchiz edilməsi tələb olunur.




Burada məqsəd klasterin inkişafında yerli istehsalın və KOB subyektlərinin rolunun artırılmasıdır.

Eyni zamanda, Azərbaycan Respublikasında istehsal edilməyən yeni rəqabətqabiliyyətli məhsul yaradılması, istehlakın 50 faizdən artıq hissəsinin idxal hesabına ödənilən məhsulun yaradılması və ya qonaqlama və yerləşdirmə xidmətlərinin (mehmanxana, motel, kempinq və s.) göstərilməsi "KOB klaster şirkəti"nin əsas meyarlarındandır. Ölkə regionlarının investisiya potensialına uyğun olaraq "KOB klaster şirkəti"nin həyata keçirəcəyi layihə üzrə də investisiyanın minimum həcmi müəyyən edilib.

"KOB klaster şirkəti" və "KOB klasterin iştirakçısı" şəhadətnamələrini verən səlahiyyətli qurum KOBİA-dır. "KOB klaster şirkəti"nin yaradılması üçün kommersiya hüquqi şəxs müvafiq ərizə və ona əlavə edilmiş sənədlərlə birlikdə yazılı və ya elektron formada KOBİA-ya müraciət etməlidir. KOB klasterin iştirakçısı olmaq istəyən KOB-lar isə klaster şirkəti ilə müqavilə bağlamalı və KOBİA-ya müraciət etməlidir. KOB klaster iştirakçılarına təqdim edilən şəhadətnamələr klaster iştirakçısı statusunu təsdiq edir və onlar da güzəştlərdən yararlanır.

Klasterləşmə, KOB klasterin yaradılmasına dövlət dəstəyi, güzəştlər, KOB klaster şirkəti və onun iştirakçısı şəhadətnamələrini almaq üçün lazım olan sənədlər barədə məlumatı sahibkarlar KOBİA-nın 131 Çağrı Mərkəzinə müraciət edərək öyrənə bilərlər. Qeyd edim ki, mikro sahibkarlar da klaster daxilində tədarükçü, xidmət göstərən və ya logistika tərəfdaşı kimi iştirak edə bilərlər. Bu onların stabil sifariş portfeli əldə etməsinə kömək edir. Eyni zamanda, klaster vasitəsilə daha böyük bazara çıxış əldə edir. Birgə marketinq fəaliyyəti məhsulların tanıdılmasını asanlaşdırır. Həmçinin ortaq infrastrukturdan istifadə xərcləri azaldır. Bu model mikro sahibkarların sürətlə böyüməsinə əlverişli şərait yaradır.

***– Hansı sektorlarda klasterlər yaradılması daha səmərəli olar?***

– KOBİA tərəfindən ölkəmizin iqtisadi rayonları üzrə malik olduqları təbii resurslar və ixtisaslaşmış istehsal potensialları əsas götürülərək KOB klaster potensialının müəyyənləşdirilməsi üçün müvafiq araşdırma aparılıb. Araşdırma göstərir ki, ölkəmizdə aqrar emal, turizm, tullantıların təkrar emalı sahələrində KOB klasterlərin yaradılması daha səmərəlidir.

***– Qarabağ və Şərqi Zəngəzurda hansı sahələrdə klasterlərə meydan açmaq olar?***

– Bu iqtisadi rayonlarda aqrar emalyönümlü klasterlərin yaradılması üçün böyük potensial var. Eyni zamanda, turizm və otelçilik sahəsində klaster modeli regionun iqtisadi dirçəlişinə töhfə verə bilər. Şəhadətnamələrin verilməsində də azad edilmiş ərazilər üçün planlar var. Digər tərəfdən, Azərbaycanda artıq iki şirkətə "KOB klaster şəhadətnaməsi" verilib. İlk KOB klaster şirkəti "Frutena KOB klaster şirkəti" MMC-dir və həmin şirkət Qubada təbii meyvə konsentratı istehsal edəcək. Zavod 4 hektar ərazidə yerləşir. Burada illik 4 min ton alma konsentratının istehsal edilməsi nəzərdə tutulur ki, bunun üçün 28-30 min ton almadan istifadə olunması proqnozlaşdırılır.

KOB klaster şirkətinin fəaliyyəti üçün nəzərdə tutulan 15 milyon manat investisiyanın 80 faizi artıq zavodun fəaliyyətə başlaması üçün sərf olunub. Layihə çərçivəsində ilkin mərhələdə 50 nəfərin daimi işlə təmin edilməsi planlaşdırılır. Burada tikinti-quraşdırma işləri artıq yekunlaşmaqda və avadanlıqların quraşdırılması işləri aparılmaqdadır.

Sumqayıtda fəaliyyət göstərəcək "Naturaoil KOB klaster şirkəti" MMC isə nəqliyyat vasitələrinin (avtomobil, yük maşınları, qatarlar, gəmilər) mühərrikləri üçün hidrorefinasiya olunmuş sürtkü yağı istehsal edəcək. Bu məqsədlə 0,7 hektar ərazidə qurulacaq zavodda əsasən yerli xammaldan, xüsusilə tullantı sürtkü yağlarından istifadə edilərək müasir tələblərə cavab verən ekoloji təmiz sürtkü yağları istehsal olunacaq. Layihə çərçivəsində sahibkar tərəfindən ilkin mərhələdə 3 milyon manat, ümumilikdə isə 5,8 milyon manat həcmində investisiya yatırılacağı nəzərdə tutulur. İlkin mərhələdə 30-a yaxın iş yerinin yaradılması planlaşdırılır.

Hər iki KOB klaster şirkətinin fəaliyyəti nəticəsində KOB-larla əməkdaşlıq və birgə fəaliyyət idxalın azalmasına, rəqabətqabiliyyətli məhsulların istehsalının genişlənməsinə, eyni zamanda, ixrac imkanlarının artmasına töhfə verəcəkdir.

***Söhbəti qələmə aldı:***
***Nurlan ABDALOV***
***XQ***

# Enerji diplomatiyamız Antalya Forumunda




**Azərbaycanın energetika naziri Pərviz Şahbazov bu barədə "X" hesabında Antalyada ölkəmizin enerji diplomatiyasının təqdimatı ilə bağlı paylaşım edib.**

Nazir qeyd edib ki, Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən nazirlər panelində təchizat zəncirində pozuntular və enerji bazarlarında qiymət dəyişkənliyi ilə müşayiət olunan geosiyasi şəraitdə təhlükəsiz, əlçatan və dayanıqlı enerji təminatı, enerji sahəsində qeyri-müəyyənliklərin idarə olunması, eləcə də enerji mənbələri və marşrutlarının şaxələndirilməsinin vacibliyi ilə bağlı fikirlərimizi bölüşdük. Azərbaycanın müasir enerji xəritəsində fərqlənməsini təmin edən, bütün enerji növlərinin və təchizat marşrutlarının paralel inkişafına əsaslanan siyasəti barədə danışdıq.

***XQ***

# 3 ayda 7 milyard kilovat-saat elektrik enerjisi

**Energetika Nazirliyinin yaydığı operativ məlumata əsasən, 2026-cı ilin 1-ci rübündə Azərbaycanda 6 milyard 991 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 672,7 milyon kilovat-saat və ya 10,6 faiz çoxdur.**

Hesabat dövründə istehsal olunmuş ümumi enerjinin 6 milyard 66 milyon kilovat-saatı istilik elektrik stansiyalarının (İES), 510,5 milyon kilovat-saatı su elektrik stansiyalarının (SES), 414,5 milyon kilovat-saatı isə digər mənbələrin payına düşüb.

Yanvar–mart aylarında ölkənin külək elektrik stansiyalarında 247,7 milyon kilovat-saat, günəş elektrik stansiyalarında 91,3 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 75,5 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Bu ilin ilk 3 ayında külək elektrik stansiyalarında elektrik enerjisi istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 238,2 milyon kilovat-saat və ya 26,1 dəfə artıb. Ümumilikdə, SES-lər də daxil olmaqla bərpaolunan enerji mənbələri üzrə elektrik enerjisi istehsalı 925 milyon kilovat-saat təşkil edib.

Rüb ərzində elektrik enerjisinin istehsalı "Azərenerji" ASC üzrə 6 milyard 76,8 milyon kilovat-saat, (İES-lərdə 5 milyard 558,6 milyon kilovat-saat, SES-lərdə 508,1 milyon kilovat-saat, GES-lərdə 10,1 milyon kilovat-saat), "Azərişıq" ASC üzrə külək elektrik stansiyalarında 7,9 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 906,3 milyon kilovat-saat təşkil edib.



Hesabat dövründə elektrik enerjisinin ixracı 142,4 milyon kilovat-saat, idxalı isə 35 milyon kilovat-saat olub.

***XQ***

# Birinci rübün iqtisadi yekunları

*(əvvəli 1-ci səhifədə)*

Cari ilin birinci rübündə ölkəmizdə əlavə dəyərin 33,5 faizi sənaye, 11,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,6 faizi tikinti, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2 faizi informasiya və rabitə sahələrində, 23,3 faizi isə digər sahələrdə istehsal edilib. Hesabat dövründə məhsula və idxala xalis vergilər ÜDM-in 11,7 faizini təşkil edib.

Ümumilikdə, ölkədə həyata keçirilən məqsədyönlü tədbirlər, qeyri-neft sektorunun inkşaf etdirilməsi ilə bağlı görülən işlər qarşıdakı aylarda bu sahədə ciddi dönüşün baş verəcəyindən xəbər verir. Elə dünyanın bir sıra nüfuzlu reytinq təşkilatlarının da ölkəmizin perspektiv inkişafı ilə bağlı proqnozları müsbətdir. Bu baxımdan Niderlandın ING bank qrupunun Azərbaycanın ümumi daxili məhsul üzrə proqnozu diqqət çəkir. Qurumun Azərbaycanın 2028-ci ilə qədər olan müddəti əhatə edən yenilənmiş proqnozuna əsasən, 2026-cı ildə ölkəmizdə illik ÜDM artımı 2,5 faiz təşkil edəcək.



Bank analitiklərinin Azərbaycanın cari il üzrə rüblük iqtisadi artımla bağlı qiymətləndirmələri də ümidvericidir. Onların qənaətinə görə, bu ilin ikinci rübündə ölkəmizdə iqtisadi artım 2,5 faiz, üçüncü rübdə 5 faiz təşkil edəcək. İlin son rübündə isə bu artımın 3 faizə qədər enəcəyi gözlənilir. Bununla yanaşı, bankın 2027-ci il üçün proqnozu da nikbindir. Qurumun analitikləri hesab edirlər ki, gələn ilin ilk rübündə Azərbaycan iqtisadiyyatı 3 faiz artım nümayiş etdirəcək. Bu göstərici ikinci rübdə 3,5 faiz, üçüncü rübdə 2 faiz, dördüncü rübdə isə 3,5 faiz səviyyəsində olacaq.

2026-cı ilin 3 ayında ölkə iqtisadiyyatının aparıcı sahəsi olan sənayedə baş verən artım diqqəti cəlb edir. Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 14,9 milyard manatlıq məhsul istehsal edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı 1 faiz azalsa da, qeyri-neft-qaz sektorunda isə 7,2 faiz artıb. Bu da ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir.

Sənaye məhsulunun 58,7 faizi mədənçıxarma sektorunun payına düşüb. Hesabat dövründə sözügedən sektor üzrə əmtəəlik neft hasilatı 3,4 faiz azalsa da, əmtəəlik qaz hasilatı 0,7 faiz artıb. Ümumilikdə, cari ilin birinci rübündə mədənçıxarma sənayesində 8 milyard 723 milyon manatlıq məhsul istehsal olunub. Sahənin mühüm növ məhsullarına gəldikdə isə, hesabat dövründə ölkə üzrə 6,6 milyon ton xam neft və kondensat istehsal edilib. Bununla yanaşı, ilin əvvəlindən 9,9 milyard kubmetr təbii qaz hasil olunub.

Bu ilin yanvar–mart aylarında sənayenin emal sektorunda 4 milyard 978,8 manatlıq məhsul istehsal olunub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 6,2 faiz çoxdur. Hesabat dövründə sahənin mühüm növ məhsullarından olan avtomobil, qoşqu və yarımqoşquların, elektrik avadanlıqlarının, kompüter, elektron və optik, toxuculuq sənayesi və poliqrafiya məhsullarının, tikinti materiallarının, kağız və kartonun, qida məhsullarının, geyimlərin, metallurgiya, qida məhsulları və içkilərin, tütün məmulatlarının istehsalında əhəmiyyətli artım qeydə alınıb. Bununla belə, içkilərin, rezin və plastik kütlə məmulatlarının, neft məhsullarının, dəri və dəri məmulatlarının, ayaqqabıların, kimya sənayesi məhsullarının, metal məmulatlarının, ağacın emalı və ağacdan məmulatların, maşın və avadanlıqların istehsalı isə azalıb.

Bu ilin ilk 3 ayında ölkə sənayesinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 1 milyard 26,6 milyon manat, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 141,9 milyon dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib.

Yanvar-mart aylarında iqtisadiyyatın digər mühüm sahələrindən olan aqrar sektorda 1 milyard 717,6 milyon manat dəyərində məhsul istehsal edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalında 1,1 faizlik artım qeydə alınıb. Hesabat dövründə ölkədə istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 5,5 faiz artaraq 101,3 milyon manatı milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 0,9 faiz çoxalaraq 1 milyard 616,3 milyon manat təşkil edib.

İlin ilk rübündə Azərbaycanda əsas kapitala yönəldilmiş investisiyaların həcmində də əhəmiyyətli artım baş verib. Dövlət Statistika Komitəsi bildirir ki, hesabat dövründə əsas kapitala 4 milyard 49,8 milyon manat məbləğində investisiya yönəldilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14,9 faiz çoxdur. Yanvar–mart aylarında neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 44,6 faiz, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 2,2 faiz artıb. Ümumi sərmayənin 2 milyard 286,6 milyon manatı və ya 56,5 faizi məhsul istehsalı sahələrinə, 1 milyard 252,8 milyon manatı və ya 30,9 faizi xidmət sahələrinə, 510,4 milyon manatı və ya 12,6 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Latviyanın aqrar heyəti Azərbaycanda



**Azərbaycanla Latviya arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 9-cu iclasında iştirak üçün ölkəmizdə səfərdə olan Latviya Respublikasının kənd təsərrüfatı naziri Armands Krauzenin rəhbərlik etdiyi heyət Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda olub.**

Bildirilib ki, institutun laboratoriya və istixanalarında aparılan elmi-tədqiqat işləri ilə maraqlanan qonaqlar buradakı müasir laboratoriyalar, eləcə də toxum emalı məntəqəsi, toxum təmizləmə sexi, toxum saxlanma anbarı, toxum satış mərkəzi, müasir istixana kompleksi və burada görülən işlərlə yaxından tanış olublar. Sonra tərəvəz, bostan və kartof bitkilərinin müasir seleksiyası, toxumçuluğun təşkili, səmərəli becərmə texnologiyası, bitkilərdə xəstəlik və zərərvericilər ilə inteqrir mübarizə yolları və digər məsələlərlə bağlı nümayəndə heyəti ilə müzakirələr aparılıb.

Pirşağıda Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun ərazisində ağacəkmə aksiyası da keçirilib. Qonaqlar 4 min 800 şam tingi hədiyyə edib.

***XQ***

*Günün sualı*

**Bakı və ətraf ərazilərdə müşahidə olunan güclü urbanizasiya prosesi uzun illərdir ki, yeni tikinti dalğası ilə müşayiət edilir. Lakin bu inkişafın kölgəsində təbii su hövzələrinin, göllərin və bataqlıqların qanunsuz şəkildə doldurularaq inşaat meydançasına çevrilməsi ilə ciddi narahatlıq doğuran bir tendensiya formalaşır. Bu proses ekoloji tarazlığı pozmaqla bərabər, sosial, hüquqi və texniki çətinlikləri də artırır.**

# Təqsir yağışdadır, yoxsa məskunlaşmaya baxışda?

## *Qapalı hövzələrin qurudulması intiqamını alır*

Maştağa qəsəbəsinin "Sovxoz Ramana" adlandırılan ərazisində su hövzəsinin bir hissəsinin qanunsuz doldurulması faktı bu problemin sistemli xarakter daşıdığını göstərir. Qısa müddətdə 0,34 hektarlıq akvatoriyanın (su səthinin) süni şəkildə torpağa çevrilməsi bəzi hallarda mövcud fəaliyyətin planlı və məqsədli şəkildə həyata keçirilməsindən xəbər verir. Belə ki, gecə saatlarında daşınan tullantılar hesabına aparılan bu iş su hövzələrinin diqqətdə saxlanılması ilə bağlı nəzarət mexanizmlərinin zəif olduğunu üzə çıxarır.

Bu cür hallar artıq uzun illərdir ki, müşahidə edilir. Abşeron yarımadasının müxtəlif istiqamətlərində oxşar təcrübə davamlı şəkildə tətbiq olunur: əvvəlcə su hövzəsi doldurulur, sonra torpaq sahəsi kimi formalaşdırılır və nəhayət, həmin sahədə fərdi yaşayış evləri tikilərək ucuz qiymətə satışa çıxarılır.

Abşeron yarımadasında 300-dən çox su hövzəsi, əslində, təbii drenaj və su tənzimləmə sistemi rolunu oynayır. Onların doldurulması təkcə suyun fiziki olaraq yoxa çıxması deyil, həm də hidroloji balansın pozulması deməkdir. Başqa sözlə, göllər və bataqlıqlar yağış sularını toplayaraq daşqın təhlükəsini azaldır, yeraltı suların səviyyəsini tənzimləyir, torpağın çökməsinin qarşısını alır. Bu sistemin pozulması isə urban fəlakətlərə gətirib çıxarır.

Son vaxtlar Bakıda müşahidə olunan güclü leysan yağışları zamanı bəzi yaşayış massivlərinin su altında qalması məhz bu proseslə birbaşa bağlıdır. Memarlıq və tikinti baxımından belə ərazilərdə aparılan işlər ciddi təhlükələrə yol açır. Mütəxəssislərin fikrincə, su hövzələrinin doldurulması həmin ərazilərin heç də tikintiyə yararlı olması demək deyil. Əksinə, burada bir sıra amillər – məsələn, yeraltı su axınlarının istiqaməti, torpaq qatlarının sıxlığı və dayanıqlılığı, iqlim dəyişkənliyinin təsiri, eləcə də uzunmüddətli çökmə ehtimalı kimi məsələlər xüsusi araşdırma tələb edir.

Əgər bu xüsusiyyətlər nəzərə alınmadan tikinti aparılırsa, acınacaqlı nəticə qaçılmaz olur: bir neçə ildən sonra torpaqda çökmə, binalarda çatlar, kommunikasiya xətlərində qırılmalar ciddi narahatlıq doğurur. Düzdür, dünya təcrübəsində doldurulmuş ərazilərdə inşaat layihələrinin həyata keçirilməsi mümkündür. Lakin bu proses yüksək texnologiyalar, ciddi geoloji təhlillər və mühəndislik standartları əsasında reallaşdırılır. Abşeron yarımadasında isə bu cür tikinti əməliyyatları çox vaxt "vizual qərarlar" əsasında aparılır ki, bu da təhlükəyə geniş yol açır.

### "Ucuz ev"in "bahalı" aqibəti

**Memar Cahid Həsənovun** sözlərinə görə, göllərin və bataqlıq ərazilərin doldurularaq istifadə edilməsi məsələsinə birtərəfli yanaşmaq doğru deyil. Onun sözlərinə görə, dünya təcrübəsində uzun illər mövcud olmuş gölməçələrin və su hövzələrinin qurudulması, həmin ərazilərin torpaqla doldurulması və möhkəmləndirmə işlərinin aparılması yalnız müasir texnologiyalar vasitəsilə mümkündür.



Bu gün dünyada dənizin ortasında belə iri tikililərin inşa olunduğu layihələr mövcuddur. Lakin əsas məsələ həmin ərazinin texniki və geoloji baxımdan dəqiq qiymətləndirilməsi ilə bağlıdır. Belə ki, hər hansı su hövzəsinin doldurulmasından sonra həmin əraziyə yenidən suyun dolub-dolmaması, yeraltı suların vəziyyəti, torpağın dayanıqlılığı və digər geoloji xüsusiyyətlərin xüsusi təhlillər və laboratoriya tədqiqatları əsasında araşdırılması zəruridir.

C.Həsənov vurğulayır ki, əgər bu proseslər təkcə vizual müşahidələrə əsaslanaraq həyata keçirilirsə, həmin ərazilərdə keyfiyyətli və təhlükəsiz tikintidən danışmaq mümkün deyil. Belə hallarda iqlim şəraiti, yeraltı suların hərəkəti və torpaq qatlarının xüsusiyyətləri nəzərə alınmadıqda, müəyyən müddətdən sonra ərazidə çökmə riski yaranır. Bu isə təkcə tikintisi aparılan binalar üçün deyil, ümumilikdə, həmin sahənin dayanıqlılığı üçün ciddi təhlükəyə gətirib çıxarır.

Mövzu ilə bağlı **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov** bildirir ki, göllərin və bataqlıq ərazilərin doldurularaq yerində fərdi yaşayış evlərinin tikilməsi ciddi təhlükələrə yol açır. Abşeronda çox sayda təbii su hövzəsinin olduğunu vurğulayan agentlik rəhbərinin fikrincə, həmin göllər təbii su toplayıcı funksiyası daşıyır. Lakin builki güclü yağışlar zamanı sözügedən ərazilərdə yenidən su toplanması səbəbindən evlərin su altında qalması da qeyd edilən geoloji şəraitin mövcudluğuna laqeyd yanaşılmanın məntiqi nəticəsidir.

**Əmlak eksperti Firdovsi Xəlilov** qeyd edir ki, belə evlər nəinki subasmaya, heç zəlzələyə də tab gətirmir. Ancaq görünüşü ecazkar, qiyməti isə bazar səviyyəsindən xeyli aşağı olan bu cür həyət evləri alıcıların marağını çəkir. Lakin "ucuz ətin şorbası olmadığından" "maklerlər"in sifarişi ilə tikilən bu tip fərdi evlərin keyfiyyəti ilə bağlı ciddi narazılıqlar daim eşidilir. Çünki bir çox hallarda onların bünövrəsi kifayət qədər möhkəm olmur, keyfiyyətsiz materiallardan istifadə edildiyindən qısa müddətdə konstruktiv problemlərə yol açır. Hətta Bakıda orta güclü zəlzələ baş verəcəyi təqdirdə, belə evlərin yüksək risk altına düşəcəyi iddia edilir.

### Asan qazancın çətin fəsadları

Problemin digər mühüm tərəfi hüquqi müstəvidə özünü göstərir. Qanunvericiliyə görə, su hövzəsinin doldurulması həmin ərazi üzərində mülkiyyət hüququ yaratmır. Buna baxmayaraq, hazırda belə torpaqların satılması geniş nəzərə çarpır. Bu sahədə əsas problemlər daha çox torpağın təyinatının qeyri-müəyyən olması, çıxarışın verilməməsi, dövlət reyestrində qeydiyyatın aparılmaması kimi çətinliklərlə diqqət çəkir.

Belə halda isə alıcılar sonradan ciddi narahatlıqlarla üzləşir. Məsələn, çıxarışı olmayan evləri sığortalamaq mümkün olmur, tikilinin hüquqi müdafiə imkanları məhdudlaşır, onun gələcəkdə söküntü ehtimalı artır. Bu cür vəziyyətdə vətəndaş, necə deyərlər, hüquqi vakuuma düşür.

Əmlak bazarında müşahidə olunan digər bir təhlükəli tendensiya isə "ucuz ev" problemi ilə bağlıdır. Başqa sözlə, real maya dəyəri 100 min manata yaxın olan fərdi yaşayış evinin 60-70 min manata satılması iqtisadi baxımdan izah olunmayan bir haldır. Bu fərqin səbəbləri, adətən, keyfiyyətsiz tikinti materialları, mühəndis standartlarına əməl olunmaması, qanunsuz torpaq istifadəsi, sənədləşmə problemləri ilə müşayiət edilir. Belə evlərin alıcıları isə çox vaxt ilkin baxışda görünməyən təhlükələri nəzərə almır. Nəticədə, qısa müddət sonra həm maliyyə itkisi, həm də təhlükəsizlik problemi ilə üzləşir.

Maraqlıdır ki, çoxmənzilli binaların tikintisində dövlət nəzarəti getdikcə güclənir: Betonun keyfiyyətindən tutmuş armaturların standartlara uyğunluğuna qədər ciddi yoxlamalar aparılır. Lakin fərdi yaşayış evləri bu nəzarət mexanizmlərindən kənarda qalır. Bu isə ikili standartlarla müşahidə olunur: çoxmənzilli tikililərdə yüksək nəzarət, fərdi evlərdə isə sərbəstlik açıq-aşkar hiss edilir. Nəticədə, təhlükə daha çox ikinci seqmentdə toplanılır.

Mütəxəssislər tərəfindən bu prosesin davam etməsi ilə yaxın illərdə çox ciddi problemlərin üzə çıxacağı bildirilir. Bunun səbəbi subasma və daşqın hallarının artması, yaşayış üçün yararsız ərazilərin genişlənməsi, hüquqi mübahisələrin çoxalması, sosial narazılığın dərinləşməsi kimi amillərlə əlaqələndirilir. Mövcud vəziyyətin aradan qaldırılması üçün kompleks yanaşmaya üstünlük verilməsi, problemin həlli üçün müəyyən addımların atılması zəruri sayılır. İlk növbədə, rəqəmsal xəritələşmə və nəzarətə diqqətin artırılması tələb olunur. Bunun üçün bütün su hövzələrinin dəqiq xəritəsi hazırlanmalı və ictimaiyyətə açıq olmalıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Elnur AZADOV,**
**daşınmaz əmlak mütəxəssisi**

Ölkədə su hövzələrinin doldurularaq fərdi yaşayış evlərinin tikilməsi ilə bağlı ciddi problemlər mövcuddur. Çünki bəzi ərazilər təbii xüsusiyyətlərinə görə qoruma zonasına daxildir və bu yerlərdə torpaqdan istifadə xüsusi qaydalarla tənzimlənməlidir. Lakin mövcud vəziyyət göstərir ki, müəyyən ərazilərdə vaxtaşırı qrunt sularının toplanması nəticəsində kiçik bataqlıqlar formalaşır, sonradan isə həmin sahələr qurudularaq fərdi evlərin inşasının aparılması üçün məqsədəuyğun hesab edilən torpaq kimi satışa çıxarılır.

Bu cür hallara bələdiyyə torpaqlarında daha çox rast gəlinir. Bununla belə, məsuliyyətin konkret olaraq hansı qurumun üzərinə düşməsi məsələsi çox zaman açıq qalır. Torpaq sahəsinin ilkin satışını həyata keçirən qurum bu prosesdə əsas məsuliyyət daşıyır. Azərbaycan Respublikasının hüquqi-normativ sənədlərində qərarların yerli icra hakimiyyəti orqanları tərəfindən verilməsi nəzərdə tutulur. Lakin reallıqda ərazilərdə iki icraedici struktur – həm icra hakimiyyətləri, həm də bələdiyyələr fəaliyyət göstərir. Formal olaraq əsas icraedici qurum kimi yerli icra hakimiyyətləri qəbul edilir. Cəmiyyət isə bələdiyyələri daha çox torpaq satan qurum kimi tanıyır.

Mövcud problemlərin əsas səbəblərindən biri də eyni ərazidə iki icraedici strukturun fəaliyyət göstərməsidir. Bu, səlahiyyətlərin bölüşdürülməsində qeyri-müəyyənlik yaradır. Hələ 2020-ci ildə bələdiyyələrin sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı tapşırıq verilib. Lakin aradan 5-6 il keçməsinə baxmayaraq, bu istiqamətdə işlərin cəmi 30–40 faizi tamamlanıb və proses hələ 50 faiz həddinə belə çatmayıb.

Sərhədlər tam müəyyən edildikdən sonra həmin torpaqlara rəsmi çıxarış verilməli, onların satışı və icarəsi ilə bağlı aydın və şəffaf strategiyalar hazırlanmalıdır. Əks halda, qanunvericilikdəki boşluqlar və səlahiyyət bölgüsündəki qeyri-müəyyənliklər torpaq idarəçiliyində problemlərin davam etməsinə səbəb olacaq.

Sonda qeyd edim ki, son vaxtlar aramsız leysan yağışları zamanı subasma təhlükəsi ilə üzləşən belə fərdi evlərin sığortalanması maddi itkilərin qarşısını almaq baxımından zəruri sayılır. Lakin bu cür tikililərə rəsmi çıxarış verilməməsi müxtəlif hüquqi problemlər yaradır. Başqa sözlə, çıxarışı olmayan evlər rəsmi dövlət reyestrində qeydiyyata alınmadığı üçün onların sığortalanması qanunvericilik baxımından mümkün sayılmır.

# Hər fəslin əsl nemətləri...

## *Yaxud nübar meyvələr necə qubara çevrilir?*

**Son günlər bazar piştaxtalarına mövsümündən əvvəl çıxarılan çiyələk, albalı və alça kimi məhsulların çoxluğu və yüksək qiyməti müşahidə olunur. Hələ yetişməsinə xeyli varkən parlaq rəngləri ilə göz qamaşdıran bu meyvələr, elə bil, bir sənət əsəridir, uzaqdan adama "gəl-gəl" deyir. Həddindən artıq iri olan məhsullar, sanki torpaqdan deyil, zavod konveyerindən çıxmış kimi eyniölçülü və qəliblənmiş formaları ilə diqqət çəkir. Bəzi insanlar bahalığına baxmayaraq, görünüşünə aldanıb onları nübar məhsul kimi həvəslə alır. Görəsən, bu meyvə-tərəvəzlər sağlamlığımız üçün nə qədər faydalıdır?**

Mütəxəssislər həyəcan təbili çalaraq bildirirlər ki, təbii günəş işığından məhrum olan, istixanalarda süni işıqlandırma və azotlu gübrələrlə "şişirdilən" bu məhsullar orqanizm üçün təhlükə mənbəyidir. Mövsümündən əvvəl yetişdirilən məhsullarda ən böyük təhlükə nitrat və pestisidlərin miqdarının normadan dəfələrlə çox olmasıdır. Bitkinin vaxtından tez, sürətlə böyüməsi üçün istifadə edilən azotlu gübrələr orqanizmə daxil olduqda nitritlərə çevrilir.

Bu proses qanda oksigen daşınmasını çətinləşdirir və toxuma tənəffüsünü pozur. Xüsusilə çiyələk süngərvari quruluşu səbəbindən bütün kimyəvi maddələri özünə çəkir və onları sadəcə yumaqla təmizləmək mümkün deyil. Alça kimi turşməzə meyvələrdə isə erkən yetişmə prosesi faydalı turşuların və vitaminlərin balansını pozur. Nəticədə istehlakçı vitamin almaq əvəzinə, qaraciyər və böyrəklərdə toplanaraq zamanla xroniki xəstəliklərə yol açan toksinləri qəbul edir.

Sosial şəbəkələrdəki müzakirələr də vəziyyətin ciddi olduğunu göstərir. İstehlakçılar bu meyvələrin yaydakı ətrə və dada malik olmadığını bildirirlər. Bir çoxları "uşaq istəyir" və ya "evdə xəstəm var, məcbur alırıq" desə də, nəticədə, zəhərlənmə halları ilə üzləşirlər. İnsanların "xalis zəhərdir" və ya "qonşum çiyələkdən zəhərləndi" kimi iddiaları bu "vaxtsız nübar"ın necə bir risk daşıdığını ortaya qoyur.

**Mövzu ilə bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun fikirlərini öyrəndik. Mütəxəssis bu məhsulların yetişdirilməsində çoxsaylı kimyəvi preparatlardan istifadə edildiyini bildirdi:**



–Ölkəmizin əmtəə bazarında olan meyvə-tərəvəzlərin bir hissəsi xaricdən gətirilir, bir hissəsi isə yerli şəraitdə istixanalarda yetişdirilir. İstixanada ərsəyə gələn məhsulların, xüsusilə də çiyələklərin yetişdirilməsində çoxsaylı kimyəvi preparatlardan istifadə edilir. Məsələn, 8 il əvvəl cənub bölgəsindəki çiyələk plantasiyalarının birində müşahidə apararkən orada 36 növ dərman tətbiq olunduğunun şahidi oldum. Bu kimyəvi vasitələr məhsulu zərərvericilərdən qorumaq, çürümənin qarşısını almaq və rənginin tez qızarmasını təmin etmək məqsədilə istifadə olunur.

Bu dərmanlar içərisində ən təhlükəlisi pestisidlərdir. Təəssüf ki, onların miqdarını asan yolla müəyyən edən mobil cihazlar yoxdur. Yoxlamalar yalnız laboratoriya şəraitində mümkündür. Pestisidlər məhsulun müəyyən xəstəliklərə tutulmaması üçün vurulan arzuolunmaz maddələrdir. Kimyəvi dərmanlardan istifadə olunan hər bir təsərrüfatda bu prosesi idarə edən və dozaları tənzimləyən xüsusi mütəxəssislər olmalıdır. Bu prosesə peşəkar nəzarət mütləqdir. Şübhəsiz ki, tətbiq zamanı müəyyən dozalar nəzərə alınır.

**Müsahibimiz vurğuladı ki, çiyələyin daxili hissəsində toxumların olmaması ona həddindən artıq kimyəvi müdaxilə edildiyindən xəbər verir:**

–İstər xaricdən gətirilən, istərsə də yerli məhsullar bazara çıxarılmazdan əvvəl ekspertizadan keçirilir və yalnız müəyyən edilmiş norma daxilində olduqda satışına icazə verilir. Bununla belə, nəzərə almaq lazımdır ki, hər bir maddənin norma səviyyəsi olsa da, həmin məhsulun həddindən artıq istehlakı orqanizmdə zəhərli dozanın toplanmasına yol açır. Təəssüf ki, hətta mövsüm vaxtı yetişən qarpız və digər məhsullarda da kimyəvi dərmanlardan istifadə hallarına rast gəlinir.

Hazırda paytaxt bazarlarına daxil olan məhsullar əvvəlcə "Meyvəli" terminalına gətirilir və burada Qida Təhlükəsizliyi Agentliyinin nəzarəti altında ciddi yoxlanılır. Sevindirici haldır ki, son 6 ildə aparılan nəzarət tədbirləri nəticəsində qarpızlarda nitratların miqdarı xeyli azalıb. Alıcılar üçün məhsulun kimyalaşma dərəcəsini müəyyən etmək çətin olsa da, bəzi əlamətlərə diqqət yetirilməlidir. Məsələn, qışın ortasında və ya yazın əvvəlində satılan, daxilində toxumu olmayan çiyələklər yüksək kimyəvi müdaxilənin göstəricisidir. Sağlamlığı qorumaq üçün belə meyvələri istifadədən əvvəl çox ciddi şəkildə yumaq və mümkün qədər az miqdarda istehlak etmək tövsiyə olunur.

**Kənd təsərrüfatı üzrə mütəxəssis Allahverdi Mustafayev isə bildirdi ki, daxili bazarda üstünlük təşkil edən erkən yetişdirilən məhsulların keyfiyyət sertifikatlaşdırılması və nəzarət mexanizmlərindəki boşluqlar istehsalçıların yüksək məhsuldarlıq naminə pestisidlərdən normadan artıq istifadəsinə şərait yaradır:**



–Hazırda daxili bazara çıxarılan və vaxtından əvvəl yetişdirilən meyvə-tərəvəzlər həm yerli istehsal, həm də idxal məhsullarıdır. Satışdakı çeşidlər arasında yerli istixanalarda yetişdirilən çiyələk, kartof, gilas və ərik kimi məhsullar üstünlük təşkil edir. Bu məhsullar mövsümündən əvvəl satışa çıxarıldığı üçün kifayət qədər yüksək qiymətə satılır.

Hər bir məhsulun yetişdirilməsi və bazara çıxarılması zamanı keyfiyyət sertifikatı olmalıdır. Bu sertifikat məhsulun tam keyfiyyətli olduğunu sübut edən əsas sənəddir. Lakin hazırda bu sahədə nəzarət mexanizmləri lazımi səviyyədə deyil. Nəticədə, istehsalçılar yüksək məhsuldarlıq əldə etmək və məhsulu zərərvericilərdən qorumaq üçün pestisidlərdən normadan artıq istifadə edirlər.

**Mütəxəssis vurğuladı ki, meyvə və tərəvəzlərdəki zəhərli kimyəvi maddələrin, xüsusən də pestisid qalıqlarının miqdarını vizual olaraq, yəni gözlə müəyyən etmək qeyri-mümkündür:**

–Bu maddələr yalnız laboratoriya analizləri vasitəsilə aşkar edilə bilər. Laboratoriya yoxlamaları əsasında Qida Təhlükəsizliyi Agentliyi keyfiyyət sertifikatlarını təqdim etməlidir. Lakin bəzən koordinasiya dəqiq olmadığı üçün bazarda sertifikatsız məhsullara da rast gəlinir.



İstixana şəraitində süni şəkildə yetişdirilən məhsullarda gübrə və pestisidlərdən istifadə riski daha yüksəkdir. Məsələn, mövsümü olmayan bir vaxtda satışda gilas varsa, bu onun süni yolla yetişdirildiyinin göstəricisidir. Hazırda ölkəmizdə qiymət tənzimlənməsi daha çox tələb və təklif əsasında formalaşır. Məhsul az olduqda tələb artdığı üçün qiymətlər yüksəlir, məhsul bol olduqda isə enir. Ümumilikdə, bazarda orqanik məhsulların xüsusi qiymətlə fərqləndirilməsi və ya ayrıca təqdim olunması sistemi hələ tam formalaşmayıb.

**Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova mövsümündən əvvəl süni şəkildə yetişdirilən məhsulların tərkibindəki kimyəvi maddələrin insan orqanizmində hormonal pozuntulara, daxili orqanların zədələnməsinə və zəhərlənməsinə səbəb olduğunu söylədi:**



–İlk növbədə, diqqətə almaq lazımdır ki, ölkəmizdə çiyələyin mövsümü may-iyun aylarına təsadüf edir. Təbii şəraitdə yetişən çiyələklər fərqli ölçülərə, özünəməxsus kəskin ətirə və dada malik olur. Günəş işığının düşmə bucağından asılı olaraq, onların rəngi tünd qırmızıdan açıq çalarlara qədər dəyişə bilər. Lakin mövsümdən əvvəl satılan məhsulların əksəriyyəti istixanalarda, süni istilik və müxtəlif kimyəvi maddələrin köməyi ilə ərsəyə gətirilir.

Hər nə qədər bu maddələrin tətbiqi müəyyən normalar daxilində olsa da, dozanın aşılması və ya düzgün istifadə edilməməsi insan orqanizmi üçün ciddi təhlükə yaradır. Xüsusilə, bu növ kimyəvi qatqılar hormonal balansın pozulmasına, qaraciyər və böyrək funksiyalarının zədələnməsinə yol açır. Uzunmüddətli istehlak zamanı isə sinir sisteminə mənfi təsir göstərməklə yanaşı, kanserogen riskini də əhəmiyyətli dərəcədə artırır.

**Müsahibimiz vurğuladı ki, mövsümdənkənar satılan çiyələkdən uzaq olmaq tövsiyə edilir:**

–Əsasən, 3 yaşınadək uşaqlar, yaşlılar, xroniki xəstəliyi olanlar, hamilə və süd verən qadınlar üçün bu məhsulların istehlakı birmənalı olaraq yolverilməzdir. Əgər bu qidalar alınarsa, onlar mütləq yaxşı yuyulmalı və bir müddət suda saxlanılmalıdır. Lakin unudulmamalıdır ki, bu prosedur yalnız meyvənin səthindəki pestisidləri müəyyən qədər azaltsa da, onun daxilinə nüfuz etmiş kimyəvi maddələri tamamilə təmizləmir.

Məhsulun keyfiyyətini ev şəraitində, vizual olaraq da müəyyən etmək mümkündür. Belə ki, çiyələkdə süni parlaqlıq, qeyri-təbii böyük ölçü və özünəməxsus ətrin olmaması onun süni üsullarla yetişdirildiyinin əsas göstəriciləridir. Həmçinin meyvənin üzəri qırmızı olsa da, daxilinin ağ və ya çox açıq rəngi yüksək dozalı kimyəvi müdaxilədən xəbər verir.

Onu da qeyd edim ki, sosial şəbəkələrdə reytinq xatirinə paylaşılan məlumatlara qarşı diqqətli olmaq lazımdır. Dövlət nəzarəti altında fəaliyyət göstərən rəsmi istixanalarda kimyəvi maddələrin dozası tənzimlənsə də, mənşəyi bəlli olmayan məhsullar hər zaman yüksək risk qrupuna daxildir.

Göründüyü kimi, ən doğru seçim meyvə və tərəvəzləri öz mövsümündə yeməkdir. Bu, həm sağlamlığımız, həm də təhlükəsizliyimiz baxımdan etibarlıdır. Hər meyvənin yetişməsi üçün təbiətin müəyyən etdiyi bir zaman kəsiyi var və heç bir süni müdaxilə onun təbii dadını əvəz edə bilməz. Unutmayaq ki, meyvələr yalnız mövsümündə yetişdikdə tərkibindəki vitamin və mineralları tam qoruyaraq orqanizmimiz üçün həqiqi enerji mənbəyinə çevrilir.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 92** **6 aprel 2026-cı il, Bakı şəhəri**

**“Aqrar tədarük və təchizat” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyul tarixli 289 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyul tarixli 289 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1312 (Cild I); 2024, № 3, maddə 356, № 10, maddə 1167) ilə təsdiq edilmiş “Aqrar tədarük və təchizat” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi”nin 4.4-cü bəndində hər iki halda “6000000 (altı milyon)” sözləri “1000000 (bir milyon)” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 94** **6 aprel 2026-cı il, Bakı şəhəri**

**“İstehlak bazarlarında texniki reqlamentlərin tələblərinə uyğun olmayan mallara qarşı nəzarət tədbirlərinin görülməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanının 1.4.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İstehlak bazarlarında texniki reqlamentlərin tələblərinə uyğun olmayan mallara qarşı nəzarət tədbirlərinin görülməsi Qaydaları” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 95** **6 aprel 2026-cı il, Bakı şəhəri**

**“Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi Qaydası”nın və “Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi meyarları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 aprel tarixli 99 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi Qaydası”nın və “Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi meyarları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 aprel tarixli 99 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (I kitab), maddə 387) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Qərarla təsdiq edilmiş “Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi Qaydası”nın 6.5-ci bəndində “3.1–3.3-cü, 3.5–3.7-ci” sözləri “3.1-ci, 3.2-ci, 3.5-ci və 3.6-cı” sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi meyarları” üzrə:

2.1. 2-ci hissədəki cədvəl aşağıdakı redaksiyada verilsin:

| Meyarlar | Qiymətləndirilir (bal ilə) |
|---|---|
| 1. Mütəxəssis olduğu sahədə təcrübəsi | 0 – 55 |
| 2. Ölkənin sosial-iqtisadi inkişaf istiqamətləri ilə uyğunluğu | 0 – 20 |
| 3. Maliyyə təminatı | 0 – 15 |
| 4. Daxili əmək bazarına müsbət təsiri | 0 – 10 |

2.2. 3-cü hissə üzrə:

2.2.1. 3.1-ci bəndə “uyğunluğu,” sözündən sonra “təhsili (təhsil səviyyəsi və pilləsi, təhsil aldığı təhsil müəssisəsinin reytinqi),” sözləri əlavə edilsin;

2.2.2. 3.3-cü, 3.4-cü, 3.7-ci və 3.8-ci bəndlər ləğv edilsin;

2.3. 4-cü hissə ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 98** **9 aprel 2026-cı il, Bakı şəhəri**

**“İstilik təchizatı şəbəkəsinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələblər”in təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “İstilik təchizatı haqqında” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 222-VIIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 iyul tarixli 442 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İstilik təchizatı şəbəkəsinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələblər” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 99** **14 aprel 2026-cı il, Bakı şəhəri**

**Su obyektlərindən xüsusi məqsədlər üçün istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 18 dekabr tarixli 554 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** “Su obyektlərindən xüsusi məqsədlər üçün istifadə ilə bağlı ödənişlərin məbləğləri” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə fiziki və hüquqi şəxslər arasında su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə dair müqavilənin forması” təsdiq edilsin *(əlavə olunur)*.

**3.** Bu Qərar 2026-cı il sentyabrın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 96** **6 aprel 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (ll kitab), maddələr 1207, 1233, 1257; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 2 fevral tarixli 34 nömrəli, 24 fevral tarixli 48 və 50 nömrəli, 3 mart tarixli 62 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı” üzrə:

1.1.1.2.1.2-ci yarımmaddədə “Səhmlərinin” sözü “Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin” sözləri ilə əvəz edilsin;

1.1.1.2.1.3-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.1.2.1.4-cü yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 1 | 2 | 1 | 4 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə mənfəət vergisi |

1.1.1.2.3.0-cı maddədən sonra 1.1.1.2.3.1–1.1.1.2.3.3-cü yarımmaddələr əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 1 | 2 | 3 | 1 | Neft fəaliyyəti ilə bağlı hasilatın pay bölgüsü sazişləri üzrə podratçı tərəflərin mənfəət vergisi |
| 1 | 1 | 1 | 2 | 3 | 2 | Qaz fəaliyyəti ilə bağlı hasilatın pay bölgüsü sazişləri üzrə podratçı tərəflərin mənfəət vergisi |
| 1 | 1 | 1 | 2 | 3 | 3 | Digər fəaliyyətlə bağlı hasilatın pay bölgüsü sazişləri üzrə podratçı tərəflərin mənfəət vergisi |

1.1.3.1.1.2-ci yarımmaddədə “Səhmlərinin” sözü “Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin” sözləri ilə əvəz edilsin;

1.1.3.1.1.4-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.3.1.1.5-ci yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 1 | 1 | 5 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |

1.1.3.1.2.2-ci yarımmaddədə “Səhmlərinin” sözü “Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin” sözləri ilə əvəz edilsin;

1.1.3.1.2.4-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.3.1.2.5-ci yarımmaddə əlavə edilsin;

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 1 | 2 | 5 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |

1.1.3.1.4.2-ci yarımmaddədə “Səhmlərinin” sözü “Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin” sözləri ilə əvəz edilsin;

1.1.3.1.4.4-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.3.1.4.5-ci yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 1 | 4 | 5 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |

1.1.3.1.5.2-ci yarımmaddədə “Səhmlərinin” sözü “Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin” sözləri ilə əvəz edilsin;

1.1.3.1.5.4-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.3.1.5.5-ci yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 1 | 5 | 5 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |

1.1.3.2.1.2-ci yarımmaddədə “Səhmlərinin” sözü “Qeyri neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin” sözləri ilə əvəz edilsin;

1.1.3.2.1.3-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.3.2.1.4-cü yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 2 | 1 | 4 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə əmlak vergisi |

1.1.4.1.1.2-ci yarımmaddədə “Səhmlərinin” sözü “Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin” sözləri ilə əvəz edilsin;

1.1.4.1.1.8-ci yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.4.1.1.9-cu yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 4 | 1 | 1 | 9 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə əlavə dəyər vergisi |

1.1.4.1.2.2-ci yarımmaddədə “Səhmlərinin” sözü “Qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin” sözləri ilə əvəz edilsin;

1.1.4.1.2.4-cü yarımmaddədən sonra aşağıdakı məzmunda 1.1.4.1.2.5-ci yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 4 | 1 | 2 | 5 | Neft-qaz sahəsində fəaliyyət göstərən, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə əlavə dəyər vergisi |

1.18. 1.4.2.1.8.0-cı maddədə “Müsadirə” sözü “Xüsusi müsadirə edilmiş, müsadirə” sözləri ilə əvəz edilsin;

1.19. 1.4.2.1.8.5-ci yarımmaddədən sonra aşağıdakı məzmunda 1.4.2.1.8.6-cı yarımmaddə əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 4 | 2 | 1 | 8 | 6 | Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında dövlət mülkiyyətinə keçməklə xüsusi müsadirə edilmiş əmlakın satışından daxilolmalar |

1.20. 1.4.2.2.6.0-cı maddədə “Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsinə və nəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsinə görə” sözləri “Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına icazənin verilməsi, nəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsi və ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkətinə icazənin verilməsi üçün” sözləri ilə əvəz edilsin;

1.21. 1.4.2.2.6.1-ci yarımmaddədə “Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsinə görə” sözləri “Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsi üçün” sözləri ilə əvəz edilsin;

1.22. 1.4.2.2.6.2-ci yarımmaddədə “, qoşquların və yarımqoşquların” sözləri “qanunla müəyyən edilmiş hallarda” sözləri ilə əvəz edilsin;

1.23. 1.4.2.2.6.2-ci yarımmaddədən sonra 1.4.2.2.6.3–1.4.2.2.6.6-cı yarımmaddələr əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 4 | 2 | 2 | 6 | 3 | Azərbaycan Respublikası ilə xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək məqsədilə operatorlara beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsi üçün |
| 1 | 4 | 2 | 2 | 6 | 4 | Taksi sifarişi operatoru fəaliyyətinə icazənin verilməsi üçün |
| 1 | 4 | 2 | 2 | 6 | 5 | Nəqliyyat vasitələrinin texniki uçot göstəricilərinə dəyişikliklər edilməsi zamanı və ya nəqliyyat vasitəsi alıcısının tələbi ilə nəqliyyat vasitələrinə texniki baxış keçirilməsi üçün |
| 1 | 4 | 2 | 2 | 6 | 6 | Ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkətinə icazənin verilməsi üçün |

2. Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə” üzrə:

2.1. 1.1.1.2-ci yarımbənddə aşağıdakı dəyişikliklər edilsin:

2.1.1. birinci abzasa “səhmlərinin” sözündən əvvəl “neft-qaz və qeyri-neft-qaz sahəsində fəaliyyət göstərən,” sözləri əlavə edilsin;

2.1.2. beşinci abzasda hər iki halda “podratçı tərəflərin” sözləri “neft, qaz və digər fəaliyyətlə bağlı podratçı tərəflərin mənfəət vergisi” sözləri ilə əvəz edilsin;

2.2. 1.4.2.1-ci yarımbəndin ikinci abzası yeni redaksiyada verilsin:

“Dövlət orqanları tərəfindən xüsusi müsadirə edilmiş, müsadirə edilmiş, sahibsiz qalmış və vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçmiş əmlakın və dəfinələrin satışından daxilolmalar müvafiq qanunvericilik aktları ilə tənzimlənir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 97** **8 aprel 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət icra məmurlarının qulluğa qəbulu ilə bağlı müsabiqənin və icbari təlimin keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “İcra məmurları haqqında”, “İcra haqqında” və “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 iyul tarixli 445 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət icra məmurlarının qulluğa qəbulu ilə bağlı müsabiqənin və icbari təlimin keçirilməsi Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

*Başlıbel faciəsindən 33 il keçir*

# Erməni quldurların Kəlbəcərdə törətdiyi müharibə cinayəti

## *Vəhşiləşmiş silahlılar dinc insanların həyatına işgəncə ilə son qoymuşdular*

**Əsrarəngiz təbiət gözəllikləri ilə süslənmiş Kəlbəcərin dağları, yamacları, düzənləri bu yaz günlərində yaşıl libasa bürünməyə, qönçələr açmağa başladığı bir vaxtda Ağdaban və Başlıbel faciələrinin ağrıları da ürəklərdə qövr edir. 1992–1993-cü illərin aprel ayında erməni işğalçıları burada bəşər tarixinə qara ləkələr kimi yazılmış faciələri kölgədə qoyan dəhşətli faciələr törədiblər. İnsanlıq simasını itirmiş silahlı quldurlar dinc sakinləri uşaqlı, qadınlı, qocalı qətlə yetiriblər, bundan ürəkləri soyumayıb kəndləri də yandırıb kül ediblər.**





Erməni silahlı qüvvələri 1992-ci il aprelin 8-də mühüm coğrafi ərazi olan Ağdabanı, 1 il sonra isə Kəlbəcəri tamamilə ələ keçiriblər. Rayon hər tərəfdən mühasirəyə alınıb, tikililəri, dini-tarixi abidələri yerlə-yeksan edilib, əksər kəndlər yağmalanıb, sərvətləri talanıb. Ardınca ən ucqar ərazidə yerləşən Başlıbelin işğalı gəlib. Xocalı qətliamından sonra onların törətdiyi bu növbəti faciələr zamanı hər iki kəndin sakinləri olmazın işgəncələrə məruz qalıb, 100-dən çox adam qətlə yetirilib, 20-dən artıq girov götürülən və itkin düşən olub.



Düz 33 il öncə, aprelin əvvəllərində tarixə qanla yazılmış Başlıbel hadisələri zamanı başı bəlalar çəkən kəndin xeyli sakini macal tapıb evlərini vaxtında tərk edə bilmədi. Onların bir qrupu mühasirədən çıxmağa çalışsa da, alınmadı. Bu zaman ələ keçənlərdən fiziki qüsurlu Hüseyn kişi klubda diri-diri yandırıldı. Sakinlərdən daha 9 nəfəri yolda qətlə yetirildi, 5 nəfər girov götürüldü. Qalanları isə dağlara çəkilərək kahalara sığınmaqla özlərini qorumağa çalışdılar.

Onlar cəmi 18 gün gizlənə bildilər. Aprelin 18-də erməni silahlı birləşmələri dinc sakinlərin sığındığı yeri aşkarlayaraq hücuma keçdilər. Qəfil çovğun qopan həmin gecədə 18 nəfər qətlə yetirildi, 14 nəfər girov götürüldü, 1 nəfər itkin düşdü. Sağ qalanlar isə sığınacaq yerlərini kəndin yaxınlığındakı digər kaha və mağaralara dəyişərək mühasirə həyatını davam etdirməli oldu.

Zavallı dəstə yalnız 3 aydan sonra – iyulun 17-də sığınacağı tərk edərək gecəgözünə gizli dağ yolları ilə hərəkət edib gədikləri aşmaqla mühasirəsindən çıxa bildilər. Kəndin 29 sakini gizli yollarla gedərək, Murovdağı aşdı və bir neçə gün sonra Daşkəsən ərazisinə keçməyə nail oldu. Təkcə 93 yaşlı Birinci və İkinci Dünya müharibələrinin iştirakçısı Ələsgər Kazımov ölümü göz önünə alaraq dağlarda qaldı. O, bugünədək itkin sayılır.

Başlıbel faciəsindən möcüzə ilə sağ çıxmış İsmət və Elşad Əzizovların dediklərinə görə, 3 maşında böyük qüvvə ilə kəndə hücuma keçən düşmənlər qırğın və qarətlər törədikdən sonra evləri, məktəbi, uşaq bağçasını, klubu, kitabxananı və tibb məntəqəsini yandırıblar. Ağdamlı igid Məzahir və silahdaşları həyatlarını risqə ataraq, çarəsiz qadın və uşaqları çiyinlərinə almaqla çaydan keçiriblər. Kahalarda gizlənmiş köməksiz camaatı qoruyan azsaylı hərbçilər (cəmi 9 nəfər) onları izləyən yağılara bacardıqları qədər müqavimət göstəriblər. Könüllü əsgər – zərdablı Vüqar qorxmadan irəli çıxaraq, 4 ermənini yerə sərib, geri qayıdanda isə düşmən qumbarasının atışına tuş gələrək həlak olub.

**Müharibə veteranı Səlim Mehdiyevin dedikləri:**

– Ağdabanda əliyalın insanlara divan tutulan dəhşətli səhnələr indi də yuxuma girir. O vaxt kim bacardı, qaçıb dağlarda gizləndi. Aprel ayının 18-də ermənilər bizim hansı kahada yerləşdiyimizi müəyyənləşdirib üstümüzə gəldilər. Orada ağır döyüşlər getdi. Qüvvələr nisbəti bərabər olmadığı üçün xeyli itkilər verdik. Biz Azərbaycan ordusunun nəzarətində olan əraziyə keçəndən sonra Başlıbeldə mühasirəsə qalanlara da xəbər ötürüldü və beləliklə, onlarında bir neçəsi xilas ola bildi.

**Qətliamın canlı şahidi, Başlıbel kənd sakini Niyyət Əhmədov bu barədə danışmağa çətinlik çəksə də, yaşadığı müsibəti qısaca ifadə etdi:**

– Ermənilərin atdığı bir qumbara ailəmizin gizləndiyi kahanın qənşərinə düşdü. Qəlpələr kahanın ağzına yaxın olan anamla Fazilə dəydi. Birinci anam yaralandı. Sonra bacımı vurdular. Bunu görüb kahadan çıxdıq. Yağılar bizi aşağı aparıb kimini öldürdülər, kimini də maşına mindirib girov apardılar. Sonradan biz girovluqdan azad edilsək də, 9 nəfərimiz aldığı fiziki, mənəvi və psixoloji sarsıntıdan vəfat etdi...

Əslən bu kənddən olan araşdırmaçı jurnalist Elxan Salahovun qətliamla bağlı “Başlıbel: yaranışdan işğaladək”, “Tanrı yoxuşu” və “Qanlı kaha” kitabları çap olunub. Ürəkağrısı ilə yazılmış həmin kitabların hər sətrindən faciənin ağrılı təfərrüatları boy göstərir. Onun ssenari müəllifliyi ilə ekranlaşdırılmış “Başlıbel – mühasirə gündəliyi” tammetrajlı sənədli filmi isə ürəklərdə daş bağlayan qətliamı şahidlərin ifadələrində bütün dəhşəti ilə əks etdirir.

Özü də Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş Elxan Salahovun dediyinə görə, həmin gecə başlanan dəhşətli şaxta və çovğuna tab gətirə bilməyən erməni quldurları kahaya sığınanları hamılıqla qətlə yetirdiklərini güman edərək ərazidən uzaqlaşıblar. Pərən-pərən düşən başlıbellilər bir neçə gündən sonra həmin ərazidən aralıda yığışıblar. Qətlə yetirilən doğmalarını dəfn etmək üçün geri qayıdıblar və şəhidləri “Portda” kahasının yaxınlığında torpağa tapşırıblar. Yaralananlar və sağ qalanlar bir müddət kənddən xeyli aralıda olan “Nəbinin kahası”na, sonra “Barıtlı kaha”ya sığınıblar.







Onlar Dəlidağın soyuğuna dözüblər, günlərlə ac-susuz qalıblar, dəfələrlə düşmən hərbçiləri ilə üz-üzə gəliblər. Ağır sınaqlardan təsadüf nəticəsində sağ çıxan, müxtəlif təhlükələrdən sovuşan mühasirə iştirakçıları həmin günlərdə dağların-daşların, qayaların sinəsinə öz adlarını həkk edirdilər ki, nə vaxtsa ora qayıdanlar onlardan soraq tuta bilsinlər, çünki hər gün, hər saat həyatlarını itirə bilərdilər...

Onu da qeyd edək ki, həmin faciə nəticəsində Elxanın nənəsi Gülgəz Cəfərova qətlə yetirilib, kənddə qalan bibisi Pəri Salahova, bibisi oğlu Qənaət Ağamirov ermənilər tərəfindən işgəncə ilə öldürülüb, bibisi nəvəsi Mahir Cəfərov kahada mühasirə həyatı yaşayıb. Onun kiçik qardaşı Elşad isə 1994-cü ildə Murovdağ əməliyyatı zamanı şəhid olub.

**Qətliamın 33-cü ilinin tamamında Elxan Salahov ürəkparçalayan hadisələr barədə bunları dedi:**

– Srağagün Gəncədə Kəlbəcər Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən anım mərasimində iştirak etdik. Hər kəs bir daha gördü ki, Başlıbel yarası 33 ildir ki, sızıldayır, faciənin ağrıları ömürlükdür. Neçə-neçə ailə var ki, onlar üçün bu yaralar qaysaqlasa da, heç vaxt sağalmayacaq. 1993-cü ilin elə bu günlərində kəndi almağa gəlmiş erməni silahlı dəstələrindən qorunmaq üçün kahalarda gizlənən əliyalın insanların başına gətirilən müsibətlər gözlərimiz önündə yenidən canlandı...

Başlıbeldə yaşanan faciədən sonrakı bir qərinənin hər gününü qübarlı ürəklərimizin sızıltısı ilə başa vurmuşuq. Təki Vətən sağ olsun! Yetər ki, azad, abad yurdumuz yaramıza məlhəm olsun!

Onu da xatırladaq ki, Başlıbel faciəsində qətlə yetirilənlərdən 12 nəfərinin meyitinin qalıqları İkinci Qarabağ müharibəsindən sonra tapılaraq ekshumasiya edilib və Azərbaycan bayrağına bükülərək doğma kənddə dəfn olunub. Elxan Salahov hələ də qalıqları tapılmayan Başlıbel şəhidlərinin siyahısını da bizə təqdim etdi. Onlar Qənaət Ağamirov, Abbas Babayev, Pəri Salahova, Tutu Əliyeva, Əhməd Salahov, Çiçək Fəttahova , Qızbəs, Həmayıl və Əbdüləli İsayevlər, Naibə Kazımova və Hüseyn Hüseynovdur.

**Həmkarımız daha sonra söylədi:**

– Hələ də şəhid atasının qalıqlarını tapa bilməyən İlqarla inişil Kəlbəcərdə apardığımız uğursuz axtarışlardan sonra yorğun və nigaran halda kəndə getməyimiz yadıma düşdü. Həmyerlimin gözündəki kədər, qəlbindəki həsrət, inamı-gümanı hələ də çiyinlərimdə yükdür. Qardaş yükü qədər!

Yağılar kəndimizi bərbad günə qoyublar. Hər yerdə uçuq-sökük divarlar, yandırılmış tikililər, xaraba qalan binalardır... Evləri tövlələrdən, tövlələri evlərdən ayırmaq olmur. Elektrik və rabitə xətlərindən əsər-əlamət yoxdur, ermənilər dirəkləri, transformatorları da çıxarıb aparıblar. Kənd qəbiristanlığında düşmənin güllələmədiyi, zərər vurmadığı bir məzar da yoxdur, bütün başdaşıları sındırılıb, daşlar üzərindəki şəkillər güllələbaran edilib, bəzi qəbirlər isə vəhşicəsinə eşilib. Ermənilər, sanki, ölülərdən, məzar daşlarından da qisas alırmışlar.

Bu və digər soyqırımı aktları ilə bağlı həqiqətlərin dünyaya çatdırılması üçün Azərbaycan dövləti bütün zəruri addımları atıb. Bu sahədə məqsədyönlü fəaliyyət ulu öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. 1998-ci il martın 26-da “Azərbaycanlıların soyqırımı haqqında” Prezident fərmanı imzalanıb. Dəhşətli faciələrə hüquqi-siyasi qiymət verilib.

İkinci Qarabağ müharibəsində Ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana qaytarılıb.

Hazırda azadlığına qovuşmuş Kəlbəcərdə təsdiqlənmiş Baş plana əsasən, geniş tikinti-quruculuq işləri həyata keçirilir. Artıq ötən ildən Kəlbəcər şəhərinə qayıdış köçləri yollanmağa başlayıb. Qoyunçuluq və arıçılıq təsərrüfatları da Kəlbəcər yaylaqlarına çıxarılıb. Rayon mərkəzində tez-tez bayram şənlikləri keçirilir. Çox tezliklə bu cənnətməkan diyarın kəndləri də Qarabağın və Şərqi Zəngəzurun digər rayonları kimi tam məskunlaşdırılacaq, bütün Kəlbəcər eli ata-baba yurduna qovuşacaq.

Başlıbel qətliamından danışan şahidlər qisasın qiyamətə qalmadığından hədsiz məmnun olsalar da, bildirdilər ki, başlarına gələnlər heç zaman unudulmayacaq. Bununla bağlı məlumatlar ABŞ Dövlət Departamentinin Demokratiya, İnsan Hüquqları və Əmək Bürosunun dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair hesabatında da yer alıb. Amma vəhşi “savaş aşiqləri”nə həmişəlik ibrət olsun deyə, faciənin daha çox ictimailəşdirilməsi, durmadan beynəlxalq aləmə çıxarılması son dərəcə zəruridir. Ölüm ayağında tarix üçün adlarını daşa yazanların başına gələnlər yaddaşlara yazılmalıdır.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Dövlət idarəçiliyində innovativ texnologiyalara “yaşıl” işıq

## *Laçında bu mövzuda təlim proqramının 2-ci sessiyası*

**Bu il aprelin 15-dən Laçın şəhərində Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və “Regional İnkişaf” İctimai Birliyinin birgə təşkilatçılığı ilə “Dövlət idarəçiliyində innovativ texnologiyalar” mövzusunda səyyar təlim proqramının 2-ci sessiyasına start verilib. Proqram Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında fəaliyyət göstərən “Bərpa, Tikinti və İdarəetmə Xidmətləri”nin əməkdaşları üçün nəzərdə tutulub və dövlət idarəçiliyində müasir yanaşmaların, innovativ texnologiyaların tətbiqi sahəsində bilik və bacarıqların artırılmasını hədəfləyir.**



Təlimin açılışında Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov və “Regional İnkişaf” İctimai Birliyinin Qarabağ regional nümayəndəsi Ceyhun Əzizov çıxış edərək dövlət idarəçiliyində innovativ yanaşmaların xüsusi rola malik olduğunu, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və idarəetmə proseslərində peşəkar kadr potensialının böyük əhəmiyyət daşıdığını vurğulayıblar.



Akademik Urxan Ələkbərovun təqdim etdiyi “Şəhərsalma və memarlıqda davamlı innovativ inklüziv inkişaf siyasəti” mövzusunda keçirilən təlimdə müasir şəhərsalma siyasətinin əsas prinsipləri, innovativ və inklüziv yanaşmalar, eləcə də beynəlxalq təcrübə ilə milli modelin müqayisəli təhlili təqdim olunub. Onun sözlərinə görə, inkişaf indikatorları (ÜDM, insan inkişafı, davamlı və inklüziv inkişaf göstəriciləri) şəhərsalma prioritetlərinin müəyyənləşdirilməsində xüsusi rol oynayır, resursların səmərəli idarə olunması, enerji istehlakı mədəniyyəti və texnoloji həllər böyük əhəmiyyət kəsb edir. Odur ki, müasir şəhərsalma yalnız infrastrukturla məhdudlaşmır, həm də sosial inklüzivlik, ekoloji tarazlıq və effektiv idarəetmə yanaşmalarının inteqrasiyasını tələb edir.

Bundan əlavə, hüquq elmləri doktoru, professor, Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri İsaxan Vəliyev tərəfindən “Dövlət idarəçiliyində maraqların toqquşması və antikorrupsiya siyasəti” mövzusunda təlim keçirilib, korrupsiya ilə mübarizənin hüquqi və institusional əsasları, maraqların toqquşmasının qarşısının alınması mexanizmləri, şəffaflıq və etik davranış prinsipləri barədə iştirakçılara ətraflı məlumat verilib.

Təlim proqramının ikinci günündə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov tərəfindən “Milli iqtisadiyyat və dövlət idarəçiliyi” mövzusunda təlim keçiriləcək. Təlim çərçivəsində iştirakçılar dövlət idarəçiliyində institusional təcrübə, milli iqtisadi inkişaf modeli, iqtisadi islahatların əsas istiqamətləri və müasir çağırışlar barədə məlumatlandırılacaqlar.

Daha sonra siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Elnur Əliyev tərəfindən “Dövlət idarəçiliyi islahatları: beynəlxalq təcrübə və Azərbaycan modeli” mövzusunda təlimin keçirilməsi nəzərdə tutulur. Təlimdə beynəlxalq təcrübə ilə Azərbaycan modelinin uyğunlaşdırılması, qabaqcıl idarəetmə yanaşmalarının tətbiqi, milli xüsusiyyətlərə uyğun adaptasiya mexanizmləri, institusional islahatlar, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, eləcə də şəffaflıq, hesabatlılıq və vətəndaş məmnunluğuna yönəlmiş prinsiplər üzrə müzakirələr aparılacaq.

***Paşa ƏMİRCANOV***
***XQ***

*Cabbar Qaryağdıoğlu – 165*

# “Qafqazın konservatoriyası”nın “qızıl səsli” yetirməsi

**Biz onu ilk dəfə məşhur “Neft və milyonlar səltənətində” filmində (1916-cı il) toy və kazinoda çəkilmiş şənlik epizodlarında görmüşük. Tarzən Qurban Pirimov və kamança ifaçısı Məşədi Qulu ilə birgə Cabbar Qaryağdıoğlunun ifası səssiz olsa da, kadrlar tarixilik baxımından önəmlidir. Daha sonra Üzeyir Hacıbəyli haqqında çəkilmiş “Uzun ömrün akkordları” filmində (1981-ci il) onun obrazına Qədir Rüstəmovun ifasında rast gəlmişik. Bu günə qədər qalıb yaşayan isə ölməz səsidir.**



Cabbar Qaryağdıoğlu 1861-ci ildə musiqi beşiyi, “Qafazın konservatoriyası” sayılan Şuşada anadan olub. Atası Məşədi İsmayıl kişi boyaqçı idi. Sənətini Cabbara da öyrətmək istəyirdi. Lakin Cabbarı gözəl səsi, anadangəlmə istedadı onu xanəndəliyə yönəldirdi. Zümzümələri, zəngulələri tədricən böyük bir xanəndənin yetişməsindən soraq verirdi. O, atası kimi boyaqçı olmadı, amma ecazkar səsi muğamlarımızı bütün boyaları ilə yaşatmasına səbəb oldu.

Şuşada Xarrat Quludan, Mirzəli Zeynalabdin oğlundan musiqi elmini və fars dilini öyrəndi. 16 yaşında ilk dəfə bir toyda “Kürdü-Şahnaz” oxudu və hər kəsi məftun etdi. Sonra tarzən Sadıqcan Cabbarı özünün sazəndələr dəstəsinə qəbul etdi. Konsertlərdə Cabbar “Heyratı”sı, “Segah”ı, “Mahur”u ilə əsl heyrət doğurdu. Onun “Bayatı Qacar”ı, “Ovşarı”sı da ayrı bir aləm idi. İranda, Türkiyədə, Polşada ifaları ilə konsert salonlarını lərzəyə salırdı.

Qeyd edək ki, ötən əsrin əvvəllərinədək Azərbaycan xanəndələri muğamı yalnız fars dilində yazılmış şeirlərlə ifa edirdilər. Bu ənənəni məhz Cabbar Qaryağdıoğlu pozub. Ondan başlayaraq, muğamların Azərbaycan dilində ifası bütün Güney Qafqazda ənənəyə çevrilib.

Klassikləşmiş muğam və xalq mahnıları ifaçıları Seyid və Xan Şuşinskilər, Bülbül, Zülfi Adıgözəlov, Davud Səfiyarov, Cahan Talışinskaya, Yavər Kələntərli, Mütəllim Mütəllimov Cabbar əminin yetirmələri olmaları ilə həmişə fəxr ediblər.

...Ünlü xanəndə 1925-ci ildə gənc şair Əliağa Vahidlə birlikdə Bakının Mərdəkan qəsəbəsinə gələrək, burada qonaq olan rus şairi Sergey Yeseninlə görüşürlər. Məclis Qaryağdıoğlunun oxuması ilə qızışır. Yesenin heç cür inana bilmir ki, 64 yaşlı qocanın belə zəngin və məlahətli səsi ola bilər. Beləcə, xanəndənin zil və təravətli səsi, sürəkli zəngulələri şairi vəcdə gətirir. Qaryağdıoğlu ifasına “ayaq” verib qavalı yerə qoyunca salonu alqış səsləri titrədir. Lakin ovsunlanmış Yesenin xəyala dalaraq heç özü də bilmir ki, xanəndəni necə mükafatlandırsın və onun şərəfinə bədahətən şeir deyir. Misralarında Cabbar əmini “Şərq musiqisinin peyğəmbəri” adlandırır.

Milli opera sənətimizin pərvərişində də onun rolu böyükdür. Opera səhnəmizin ilk aktyoru məhz Qaryağdıoğlu olub. 1897-ci ildə Şuşada Əbdürrəhim bəy Haqverdiyevin tamaşaya qoyduğu “Məcnun Leylinin məzarı üstündə” adlı musiqili səhnəcikdə Məcnun rolunu dəfələrlə oynayıb. Deyilənə görə, səhnəyə çıxanda başına quş yuvası qoyubmuş. Yuvanın içində bülbül varmış. Cabbar Leylinin qəbri üstündə hönkürəndə bülbül uçub gedib. Onun həmin ifasını izləyən 12 yaşlı Üzeyir Hacıbəyli möhkəm təsirlənib və sonralar Şərqin ilk operası “Leyli və Məcnun”u yazıb.

Onun adı Azərbaycan Dövlət Konservatoriyasının da ilk təşkilatçıları sırasında çəkilir. 1934-cü ildə Tiflisdə Cənubi Qafqaz xalqlarının incəsənət olimpiadasında 73 yaşlı Cabbar Qaryağdıoğlu qeyri-adi sənətkarlıq və saflığı ilə fərqlənərək, 1-ci yerə layiq görülüb. Bir qədər sonra - 1936-cı il martın 31-də Azərbaycan Dövlət Dram Teatrında görkəmli xanəndənin 75 illik yubileyi təntənə ilə qeyd edilib.

Cabbar Qaryağdıoğlunun fon valına köçürülmüş 50 mahnısı “Azərbaycan xalq nəğmələri” adı ilə ayrıca kitab şəklində çap olunub. Yeri gəlmişkən, həmin mahnılardan birinin həm sözlərinin, həm də musiqisinin müəllifi Cabbar əmidir. Bu, məşhur “İrəvanda xal qalmadı” mahnısıdır.

Xalq artisti Cabbar Qaryağdıoğlu 1944-cü ildə Bakıda vəfat edib, şəhər qəbiristanlığında dəfn olunub. Cismən dünyanı tərk etsə də, səsi ilə yaşayır və adını yaşadır.

***Ə.NƏCƏFXANLI***
***XQ***

***Redaksiyadan:*** *1948-ci ildə Bakıda Fəxri xiyaban məzarlığı yaradılanda respublika hökumətinin qərarı ilə bir sıra görkəmli şəxsiyyətlə bərabər, Cabbar Qaryağdıoğlunun da məzarının bu ünvana köçürülməsi nəzərdə tutulub. Təəssüf ki, başqa mərhumların məzarları Fəxri xiyabana gətirilsə də, ünlü xanəndə hələ də əvvəlki qəbirdə uyuyur.*

*Qərbi Azərbaycana qayıdış*

# Tarixi həqiqətləri yaşadan milli yaddaş

**Tarix xalqların taleyində dərin izlər buraxan, gələcəyin siyasi və mənəvi istiqamətlərini müəyyənləşdirən hadisələrlə yadda qalır. Azərbaycan xalqının tarixində belə məsələlərdən biri də Qərbi Azərbaycan mövzusudur. Bu anlayış indiki Ermənistan ərazisində əsrlər boyu yaşamış Azərbaycan türklərinin taleyi, onların doğma torpaqlarından zorla deportasiya olunması və həmin torpaqlara qayıdış hüququ ilə bağlıdır.**



Son illər Azərbaycanın xarici siyasətində bu məsələ yeni məzmun və aktuallıq qazanmışdır. Qərbi Azərbaycan mövzusu artıq təkcə tarixi yaddaşın qorunması deyil, həm də beynəlxalq hüquq və insan hüquqları kontekstində gündəmə gətirilən mühüm siyasi istiqamət kimi çıxış edir. Bu baxımdan Qərbi Azərbaycana qayıdış ideyası ölkəmizin diplomatik gündəliyində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər.

Tarixi mənbələr və arxiv sənədləri göstərir ki, indiki Ermənistan ərazisi – İrəvan xanlığı, Göyçə mahalı, Zəngəzur bölgəsi, Vedibasar, Dərələyəz və digər ərazilər uzun müddət Azərbaycan türklərinin yaşadığı əsas məkanlardır. Bu torpaqlarda formalaşmış mədəni irs, dini abidələr, toponimlər və folklor nümunələri Azərbaycan türklərinin həmin ərazilərlə dərin tarixi bağlılığını sübut edir.

XIX əsrdən etibarən regionda baş verən geosiyasi dəyişikliklər və demoqrafik proseslər nəticəsində bu ərazilərin etnik tərkibi tədricən dəyişdirilmişdir. Bu proseslər Azərbaycan türklərinin sayının azalmasına, onların tarixi torpaqlarında sosial-siyasi mövqelərinin zəifləməsinə səbəb olmuşdur.

XX əsrdə isə Azərbaycan türklərinin Ermənistan ərazisindən deportasiyası daha kəskin və sistemli xarakter almışdır. 1948–1953-cü illərdə Sovet hakimiyyətinin qərarı ilə on minlərlə Azərbaycan türkü doğma torpaqlarından zorla köçürülmüş, yüzlərlə kənd boşaldılmışdır.

1988-ci ildə Ermənistan ərazisində yaşayan azəri türklərinə qarşı zorakılıq və təzyiq siyasəti nəticəsində yüz minlərlə insan doğma yurd yerlərini tərk etməyə məcbur olmuşdur. Beləliklə, Qərbi Azərbaycan ərazisində yaşayan azəri türkləri faktiki olaraq tamamilə qovulmuş və qaçqın həyatına məhkum edilmişlər.

Uzun illər ərzində Qərbi Azərbaycan məsələsi əsasən tarixi yaddaş və humanitar problem kimi müzakirə olunurdu. Lakin müasir dövrdə bu mövzu yeni siyasi və diplomatik məzmun qazanmışdır.

2020-ci ildə baş vermiş Vətən müharibəsi regionda yeni siyasi reallıqlar yaratdı. Azərbaycanın ərazi bütövlüyünün böyük hissəsinin bərpası ölkənin regional və beynəlxalq mövqelərini daha da gücləndirdi. Bu yeni reallıqlar fonunda tarixi və humanitar məsələlərin beynəlxalq gündəmə çıxarılması üçün geniş imkanlar yarandı.

Məhz bu kontekstdə Qərbi Azərbaycan mövzusu daha sistemli şəkildə gündəmə gətirildi. Azərbaycan dövləti bu məsələni ərazi iddiası kimi deyil, deportasiya olunmuş insanların fundamental hüquqlarının bərpası kimi təqdim edir. Bu yanaşma beynəlxalq hüququn əsas prinsiplərinə əsaslanır. Dünyanın müxtəlif regionlarında qaçqın və məcburi köçkünlərin doğma torpaqlarına qayıtmaq hüququ tanındığı kimi, Qərbi Azərbaycandan deportasiya olunmuş azəri türklərinin da belə bir hüququ var.

Azərbaycanın xarici siyasəti uzun illər ərzində beynəlxalq hüquqa əsaslanan mövqeyi ilə seçilmişdir. Qarabağ məsələsinin həllində olduğu kimi, Qərbi Azərbaycan məsələsi də hüquqi və diplomatik mexanizmlər vasitəsilə beynəlxalq gündəmə çıxarılır.

Bu çərçivədə Azərbaycanın diplomatik fəaliyyəti bir neçə mühüm istiqaməti əhatə edir. İlk növbədə, Qərbi Azərbaycan məsələsinin tarixi və hüquqi aspektləri beynəlxalq ictimaiyyətə çatdırılır. Müxtəlif beynəlxalq konfranslar, akademik forumlar və elmi nəşrlər vasitəsilə bu mövzu geniş müzakirə edilir.

Eyni zamanda, beynəlxalq təşkilatlarda qaçqınların hüquqları ilə bağlı müzakirələrdə bu məsələnin gündəmə gətirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın mövqeyi ondan ibarətdir ki, deportasiya olunmuş insanların hüquqları beynəlxalq hüquq çərçivəsində tanınmalı və onların qayıdış perspektivləri müzakirə olunmalıdır. Bu prosesdə ictimai diplomatiya və elmi araşdırmalar da mühüm rol oynayır. Tarixçilərin, politoloqların və beynəlxalq hüquq mütəxəssislərinin apardıqları tədqiqatlar Qərbi Azərbaycan məsələsinin faktoloji və elmi əsaslarla izah olunmasına kömək edir.

Azərbaycan regionda davamlı sülhün və əməkdaşlığın tərəfdarı olduğunu dəfələrlə bəyan etmişdir. Postmünaqişə mərhələsində rəsmi Bakı Cənubi Qafqazda yeni əməkdaşlıq formatlarının yaradılması və regional inteqrasiyanın gücləndirilməsi təşəbbüsləri ilə çıxış edir. Qərbi Azərbaycan məsələsi də bu kontekstdə qiymətləndirilməlidir. Bu mövzu qarşıdurma yaratmaq məqsədi daşımır. Əksinə, deportasiya olunmuş insanların hüquqlarının tanınması və tarixi ədalətin bərpası regionda etimad mühitinin formalaşmasına töhfə verə bilər.

Tarix göstərir ki, sülh yalnız siyasi razılaşmalarla deyil, həm də humanitar problemlərin həlli ilə möhkəmlənir. Deportasiya olunmuş insanların hüquqlarının tanınması və mədəni irsin qorunması regionda barışıq prosesinə müsbət təsir göstərə bilər. Qərbi Azərbaycan məsələsi yalnız siyasi mövzu deyil, həm də milli yaddaş və tarixi kimlik məsələsidir. Minlərlə ailə bu torpaqlarla bağlı xatirələri, ailə tarixini və mədəni irsini bu gün də qoruyub saxlayır.

Azərbaycan dövləti bu tarixi yaddaşın qorunmasına xüsusi diqqət yetirir. Tarixi araşdırmaların aparılması, arxiv materiallarının öyrənilməsi və Qərbi Azərbaycan irsinin tədqiqi bu istiqamətdə həyata keçirilən fəaliyyətin mühüm hissəsidir. Eyni zamanda, Qərbi Azərbaycan mövzusu beynəlxalq səviyyədə də daha geniş müzakirə olunmağa başlayır. Bu, Azərbaycanın tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq istiqamətində apardığı siyasətin nəticəsidir.

Bu gün Qərbi Azərbaycana qayıdış ideyası həm də gələcəyə yönəlmiş siyasi və mənəvi konsepsiyadır. Azərbaycanın xarici siyasətində bu mövzunun getdikcə daha sistemli şəkildə gündəmə gətirilməsi tarixi ədalətin bərpasına yönəlmiş strateji yanaşmadır. Azərbaycan dövləti bu məsələni beynəlxalq hüquq və humanizm prinsipləri çərçivəsində irəli sürür. Məqsəd deportasiya olunmuş insanların hüquqlarının tanınması və tarixi həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasıdır.

Qərbi Azərbaycana qayıdış ideyası həm də milli yaddaşın qorunması, tarixi ədalətin bərpası və gələcək nəsillərə doğru mesajdır. Bu ideya Azərbaycan xalqının öz tarixini unutmadığını, eyni zamanda, gələcəyə sülh və əməkdaşlıq perspektivindən baxdığını göstərir.

Tarix sübut edir ki, ədalət gec də olsa, öz yerini tapır. Qərbi Azərbaycan məsələsinin beynəlxalq müstəvidə getdikcə daha çox müzakirə olunması da bu istiqamətdə atılan addımların davamlı və məqsədyönlü olduğunu göstərir. Azərbaycanın diplomatik səyləri nəticəsində bu mövzunun dünya ictimaiyyətinin diqqətində saxlanılması gələcəkdə tarixi ədalətin bərpası istiqamətində mühüm rol oynaya bilər.

***Gülgün Mübariz QULİYEVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Mirzə Fətəlinin “Müsyö Jordan”ı Türkiyə səhnəsində



**Türkiyədə Mirzə Fətəli Axundzadənin məşhur komediyası əsasında hazırlanmış tamaşa İğdır şəhərində səhnələşdirilib.**

Səfirliyimizin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü və layihəsi ilə İğdırda yaradılan “Bir millət, iki dövlət” Azərbaycan–Türkiyə Gənclər Teatrının ilk səhnə işi görkəmli dramaturqun "Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cadükuni Məşhur” komediyası əsasında hazırlanan "Müsyö Jordan və Dərviş Məstəli Şah" tamaşası olub.

Təqdimatı İğdır Mədəniyyət Mərkəzində keçirilən tamaşada çıxış edən quruluşçu rejissor, Azərbaycanın Əməkdar artisti Tofiq Seyidov bildirib ki, bu təşəbbüs iki ölkə arasında dostluğun möhkəmlənməsinə, bölgənin mədəni həyatına töhfə verməklə yanaşı, gələcəkdə qardaşlığımızın daha da güclənməsinə və Azərbaycan yazıçılarının əsərlərinin səhnələşdirilməsi üçün yeni imkanların yaranmasına xidmət edəcək. Azərbaycanın Xalq artisti, görkəmli teatr və kino xadimi Cahangir Novruzov bunu böyük mədəni hadisə adlandırıb.

Əsəri Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə Türkiyə türkcəsinə Xalq artisti Cahangir Novruzov çevirib.

1850-ci ildə qələmə alınmış bu klassik komediya cəhalətin və savadsızlığın tənqidi, elmin və maarifin insan həyatındakı rolu, Şərq və Qərb dünyagörüşlərinin toqquşması kimi aktual mövzuları satira və yumor vasitəsilə tamaşaçıya çatdırır. Əsər İğdırla yanaşı, Kars, Ardahan və Ankara şəhərlərində teatr səhnəsində nümayiş etdiriləcək.

***XQ***

# Azərbaycan Mərakeş rəngkarlığında

**Mərakeşin paytaxtı Rabat şəhərində yerləşən “Bab Rouah” Qalereyasında “Azərbaycandan ilhamlanaraq: Mərakeş baxışı” adlı sərgisi açılıb.**



Ekspozisiyanı Azərbaycanın Mərakeş Krallığındakı Səfirliyi ölkəmizdə “Şəhərsalma və memarlıq ili – 2026” çərçivəsində təşkil edilib.

Sərgidə 13 mərakeşli rəssamın əsərləri nümayiş olunub. Maraqlı məqam ondan ibarətdir ki, bu rəssamlar Azərbaycanda olmayıblar, lakin topladıqları məlumatlar, vizual materiallar və şəxsi təxəyyülləri əsasında ölkəni təsvir etməyə çalışıblar. Bu yanaşma sərgiyə fərqli və qeyri-adi baxış qazandırıb.

Təqdim olunan əsərlərdə Azərbaycanın təbiəti, mədəniyyəti və ənənələri müxtəlif formalarda əks olunub. Dağ mənzərələri, gündəlik həyat səhnələri, milli ornamentlər və mətbəx motivləri rəssamların fərdi üslubunda təqdim edilib. Bəzi işlərdə isə Azərbaycanın tanınmış şəxsiyyətlərinə istinadlar yer alır.

Sərgi həm incəsənət, həm də mədəni tanıtım baxımından maraq doğurub. Ziyarətçilər üçün bu, Azərbaycan haqqında vizual təsəvvür əldə etmək imkanı yaradır. Tədbir çərçivəsində qonaqlara Azərbaycan mətbəxindən nümunələr də təqdim olunub.

Açılış zamanı iştirakçı rəssamlara sertifikatlar və suvenirlər təqdim edilib. Bu, onların sərgidə iştirakının rəmzi qiymətləndirilməsi kimi qeyd olunub.

Sərgi 18 aprel tarixinədək davam edəcək və ictimaiyyət üçün açıqdır.

***XQ***

# Almaniyada muğam təqdimatları



**Beynəlxalq Muğam Mərkəzinin (BMM) solistləri Almaniyada silsilə muğam konsertləri ilə çıxış edirlər. Proqram Azərbaycan muğam sənətinin beynəlxalq səviyyədə təbliği və mədəni əlaqələrin genişləndirilməsi məqsədi daşıyır.**

Aprelin 13-dən başlayan konsertlər ayın 30-dək davam edəcək. Almaniyanın bir neçə şəhərində və Belçikanın paytaxtı Brüssel, Niderlandın Leyden şəhərlərində də təşkil ediləcək. Təqdimatlarda klassik muğam nümunələri və xalq musiqisinin inciləri ifa ediləcək. Proqram Almaniyanın Köln şəhərində fəaliyyət göstərən “Klanqkosmos” mədəni platforması gerçəkləşdirilir.

Bu, layihə dünyanın 5 qitəsindən 130-dan çox musiqi kollektivlərini bir araya gətirərək mədəni müxtəlifliyin musiqi sahəsini təqdim edir. Artıq 26 ildir ki, hər il dörd həftə ərzində keçirilən belə konsertlərdə ayrı-ayrı ölkələrin musiqiçiləri Almaniya, Belçika və Niderlandda konsertlər, ustad dərsləri və mühazirələrlə çıxış edirlər.

***XQ***

# Seulda Azərbaycan gecəsi



**Koreya Respublikasındakı səfirliyimizin və bu ölkədəki Azərbaycan icmasının təşkilatçılığı, Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə Seul şəhərində mədəniyyət gecəsi təşkil olunub.**

Azərbaycan səfiri Ramin Həsənov ölkəmizin zəngin və rəngarəng mədəniyyətə malik olduğunu, bunun minilliklər boyu inkişaf edərək Şərq və Qərb elementlərini özündə birləşdirən unikal multikultural xəzinəyə çevrildiyini vurğulayıb.

Diplomat UNESCO-nun Ümumdünya İrs Siyahısına və Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilmiş Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələrinin önəmi vurğulayıb, mədəni irsimizin beynəlxalq səviyyədə təbliğində Heydər Əliyev Fondunun mühüm işlərin görüldüyünü bildirib.

Tədbir Azərbaycan milli musiqisinin və rəqslərinin ifaları ilə davam edib. Eyni zamanda, tədbir zamanı ölkəmizin mədəniyyət nümunələri nümayiş olunub, qonaqlara ziyafət verilib və milli mətbəx nümunələrimiz ikram olunub.

***XQ***

*18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür*

# Əsrlərin əmanəti, nəsillərin zəmanəti

## *Mədəni tariximizin canlı şahidləri ümummilli sərvətdir*

**Hansı ölkənin mədəni irsinə nəzər salsaq, insanı qeyri-ixtiyari bir sual düşündürür: hündür divarlar, zərif minarələr, qoca qalalar nədən xəbər verir? Həqiqətən, tarixin özüdür onların müəllifi. Bəzən hökmü kəsərli, tişəsi sərtdir, ağır şərtləri diktə edir. Bəzən də pərgarı genişdir, xoş xatirələri naxışlarla canlandırır.**



Zamanın reallığı hansı səmtə meyil etsə, sənətkarın çəkici də o tərəfə vurur. Müharibənin soyuq nəfəsi duyulan diyarlarda daşlar zireh geyinir. Alınmaz qalalar insanların pənah yeri olur. Sənətkar naxış vurmur, sipər yaradır. Uca hasarlar, düşmən gözündən gizlənən dar pəncərələr, sarsılmaz qala divarları şirin canı qorumaq təlaşının, nigaranlığın rəmzi olur.

Ancaq sülhün və ədalətin bərqərar olduğu məmləkətlərdə daş soyuqluğunu hərarət və gözəllik eşqi ilə ovudur. Ədalət yerini tapdıqda gizlənməyə ehtiyac qalmır, odur ki, binalar da qonağını qarşılamaq üçün təbəssüm edən ev sahibi kimi nur çöhrəsi ilə bayram libasına bürünür. İncə işlənmiş, zərif və ahəngdar ornamentlərdən ibarət abidələr, geniş, bəzənən meydanlar, hündür və işıqlı eyvanlar, insanların asudə vaxtında gəzişdiyi parklar da könül oxşayır.

Bəşər övladının keçmişinə, ulu babalarından qalan yadigarlara miras kimi baxıb, onları qorumaq təlaşına düşməsi heç də qədim dövrə təsadüf etmir. İnanmaq çətin olsa da, ötən əsrin ortalarına qədər abidələrin məhvi çox da təəssüf doğurmurdu. Yalnız 1950-ci illərdən etibarən dünya xalqları anladılar ki, bir abidəni itirmək, əslində tarixin ən qiymətli səhifəsini bağlamaq deməkdir. Bu məqsədlə, 1983-cü ildə 18 aprel tarixi Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü elan edildi.

Vətənimizin hər qarış torpağı keçmişimizin daşlaşmış yaddaşı olan qədim mədəniyyət abidələri ilə zəngindir. Elə bir rayon, elə bir şəhər yoxdur ki, orada tarixin sınağından üzüağ çıxan, əcdadlarımızın hünərini simvolizə edən memarlıq incisinə rast gəlinməsin. Bu abidələr əzəli-əbədi torpaqlarımıza necə dərindən kök saldığımızın şahidləridir.

XII əsrə aid divarlarla əhatələnən, Şərq memarlığı üslubunda tikilmiş abidələrlə zəngin olan İçərişəhərdə tufanlara sinə gərən, əsrlərin yorğunluğunu sarsılmaz vüqarla daşıyan, Bakının rəmzinə çevrilən, 100 metrlik qayanın üstündə tikilən abidə ucalır. Onun adı "Qız qalası"dır. Xəzərin sahilində qoca qartal kimi sükuta dalıb. Nə xəzri, nə gilavar, nə də tarixin amansız çaxnaşmaları bu məğrur duruşu əyə bilməyib. Bəs nəyə görə məhz "Qız qalası"?

Bu sualın cavabı tarixin dərin qatlarında, hələ tam aşkar olunmamış sirlərdə gizlənir. Tarixi mənbələr deyir ki, qalanın bu gün dilimizdə əzbər olan adı əslində o qədər də qədim deyil. Arxiv sənədlərinin tozlu səhifələrinə nəzər salsaq, XIX əsrə qədər bu əzəmətli tikilinin adı "Xunsar" olub. Ehtimal edilir ki, bu adın kökləri yunanların "Asaru", romalıların isə "Osiris" adlandırdığı qədim tanrılardan götürülüb.

Digər bir maraqlı mülahizə isə abidənin "Güzə qalası" adlandırılması ilə bağlıdır. Deyilənə görə, qala bir zamanlar qədim türk tayfalarının böyük ehtiramla sitayiş etdiyi işıq və od tanrısının müqəddəs məbədi olub. Daşların sükutunda sanki hələ də o qədim ayinlərin, oda və nura olan inamın izləri görünür. Bakının tacı sayılan bu tikili saysız-hesabsız hücumlara və mühasirələrə mərdliklə sinə gərib. Zamanın bütün təbəddülatlarına baxmayaraq, bu məğrur qala heç vaxt yağı tapdağına düşməyib, heç bir düşmən onun zirvəsini görməyib. Məhz bu fətholunmazlıq, bu yenilməzlik onu xalqın gözündə paklıq və məğrurluq rəmzinə çevirib.

Hərçənd bu uca divarlar ətrafında dolaşan çoxsaylı əfsanələr qalanın adını tarixin sərt üzündən daha çox romantik və həzin hekayətlərlə bağlayır. "Qız qalası"nın yaranması barədə xalq arasında gəzən rəvayətlərin əksəriyyəti məhz "qız" sözünün sirrinə işıq salır. Deyilənə görə, şah qızını sevmədiyi birinə ərə vermək istəyir. Çarəsiz qalan qız atasını öz qərarından daşındırmaq üçün ondan qüllə tikdirməyi və tikinti bitənədək gözləməyi xahiş edir. Lakin qala ucalıb başa çatsa da, şah inadından dönmür. Bu aqibətlə barışmayan qız isə qalanın zirvəsinə qalxaraq özünü dənizin coşqun dalğalarına atır. O vaxtdan xalq qızın dəyib parçalandığı qayaya "Qız daşı" adını verib və bu yer nişanlı qızların ümid yeri, ziyarətgahı olub.

Lakin xalq bu kədərlə barışmayıb, hekayəyə daha nikbin sonluq əlavə edib. Başqa versiyaya görə, qız özünü dənizə atdıqdan sonra sevgilisi şahdan intiqamını alıb, su pəriləri isə fədakar qızı ölümün pəncəsindən qurtarıblar. Nəhayət, iki sevgili qovuşaraq muradlarına çatıblar.

Qalanın daş yaddaşında təkcə yerli əfsanələr deyil, həm də bəşəri tarixin izləri həkk olunub. Rəvayətə görə, İsa Məsihin on iki həvarisindən biri olan müqəddəs Varfolomey məhz bu qalanın yaxınlığında edam edilib. I əsrdə Bakıya gələrək xristianlığı təbliğ edən həvarinin bu fəaliyyəti yerli bütpərəst tayfalar tərəfindən rədd edilib və o, qala divarları önündə canından keçib. Arxeoloji qazıntılar zamanı həvarinin şəhid olduğu yerdə ucaldılan məbədin qalıqlarının aşkar edilməsi qədim inancın tarixi köklərini daha da dərinləşdirir.

Qız qalasının sirri həm də onun "yaşındadır". Bu abidənin neçə əsr əvvəl ucaldıldığı ilə bağlı elmi mübahisələr o qədər dərindir ki, irəli sürülən tarixlər arasında böyük fərq var. Qalanın yaşının Şumer dövründən başladığını iddia edənlərlə yanaşı, onun XII yüzillikdə inşa edildiyini deyənlər də var. Diqqət yetirsək, görərik ki, burada zaman fərqi bir neçə il və ya bir neçə əsr deyil, 3000 ildən artıqdır.

XII əsrə aid olduğunu deyən alimlər əsasən divarın üzərindəki mənbəyə söykənirlər. Ərəb əlifbası ilə həkk olunmuş həmin yazıda "Davudun oğlu Məsudun qülləsi" sözləri qeyd olunub. Yazının xətti və üslubu məhz XII əsrə yaxın olduğu üçün bir çox tədqiqatçılar qalanın elə həmin dövrdə inşa edildiyini düşünürlər.

Lakin məsələ bununla bitmir. Bir qrup alim isə qalanın tikintisində istifadə olunan materialları və memarlıq texnikasını önə çəkirlər. Onlar bu materialların Qəbələdə aşkar edilmiş və eramızın ilk əsrlərinə aid olan abidələrin materialları ilə eyni olduğunu bildirirlər. Belə çıxır ki, XII əsrdə qalanın üzərinə vurulan o kitabə tikintinin deyil, bəlkə də təmirin və ya bərpanın nişanəsidir. Bu ziddiyyətli faktlar və 2000-ci ildə abidənin UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilməsi Qız qalasını Bakının qədimliyini və strateji əhəmiyyətini dünyaya təsdiq edən sübuta çevirib.

Bu gün qalada addımlayarkən hər mərtəbədə tarixin bir dövrü ilə qarşılaşmaq mümkündür. Quraşdırılan elektron lövhələr vasitəsilə "Sərkərdə və rəqqasə", "Su üzərində addımlayan gənc" və ya "Şahzadə qız və çoban" kimi məşhur əfsanələrin sehrli dünyasına səyahət edərək, bu qədim abidənin ruhunu daha yaxından hiss edə bilirik.

2001-ci ildə ölkəmizdə daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı tərtib olunub. Onlardan 6 min 308-i dövlət mühafizəsindədir. Bu ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi isə milli memarlıq ənənələrinin qorunub saxlanılaraq yeni layihələrdə tətbiqinə geniş imkanlar yaradır.

"Qız qalası" kimi taleyi "üzünə gülən", dövlətin nəvazişi və dünyanın diqqəti ilə əhatə olunan "bəxtiyar" abidələrimizlə yanaşı, hələ də öz xilaskarını gözləyən, zamanın amansızlığına tab gətirməyə çalışan "talesiz" yadigarlarımız da az deyil.

Məsələn, Quba rayonunun Möhüc kəndində yerləşən Cümə məscidi, ya da Salyanın qədim yaşayış massivi olan Babazanlı qəsəbəsində bir-birinə bağlı silsilə tikililər... Hər ikisi sanki tarixin tozlu səhifələrində itib-batırlar.

Orta əsrlərin şahidi olan, sovet dövründə bərpa edilsə də, hazırda taleyin ümidinə buraxılan Səngəçal karvansarası indi o köhnə ehtişamından uzaq, baxımsız vəziyyətdədir.

Cənubi Qafqazın qədim məskənlərindən sayılan Göytəpə arxeoloji abidəsi də təhlükə altındadır. Təbii aşınma və illərin diqqətsizliyi minilliklərin yadigarı olan abidənin ilkin quruluşunu məhvə doğru aparır. Hətta yaxın günlərin – 12 aprel tarixinin acı xəbəri hələ də qulaqlarda cingildəyir: intensiv yağışlar nəticəsində Böyük Mərdəkan qəsrinin dam hissəsində və mərtəbələrarası döşəmələrində ciddi çökmələr qeydə alınıb.

Laqeydliyin qurbanına çevrilən bu yadigarların taleyi bizim tariximizə olan münasibətin güzgüsüdür. Bütün bunlar göstərir ki, tarix həm də ağır bir məsuliyyətdir. Xalq isə öz keçmişinə sahib çıxdıqda yenilməz olur.

***Fidan ƏLİYEVA***
***XQ***

*Nəsibə Zeynalova – 110*

# Musiqili səhnənin sevimli gülüş ustası

**Teatr və kinosevərlərin daha çox Cənnət xala ("Qayınana") kimi pərəstiş etdikləri Xalq artisti Nəsibə Zeynalova 22 ildən bəri işıqlı dünyanı tərk etsə də, ürəklərdə, yaddaşlarda silinməz xatirəsi ilə yaşamaqdadır.**



Nəsibə Zeynalova 20 aprel 1916-cı ildə Bakıda doğulub. Atası Kərbəlayi Cahangir tanınmış tacir və eyni zamanda milli realist aktyor məktəbinin banisi idi. O istəyib ki, Nəsibə də teatr sənətçisi olsun. Kərbəlayi Cahangir o günü görməsə də, qızı onun arzusunu həyata keçirib və Azərbaycanın çox sevilən aktrisası kimi tanınıb.

Gənc Nəsibə Rza Təhmasibin dram dərnəyində sənətə ilk addımlarını atıb. Sonra mövsümi səyyar Kolxoz və Sovxoz Teatrında aktrisa işləməyə başlayıb. Şəmsi Bədəlbəyli onun istedadını dəyərləndirib. 1938-ci ildə isə Nəsibə yenicə yaranan Dövlət Musiqili Komediya teatrının truppasına qəbul edilib və Bakı Teatr Məktəbinə daxil olub. Aylar, illər ötdükcə, komediyalarda, operettalarda oynadığı rollarla tanınıb və sevilib.

Adı çəkilən kimi səhnənin Qızbacı ("Hicran"), Cəhri xala ("Altı qızın biri Pəri", Nazxanım ("Nazxanım naz eləyir"), kinonun Fatmanisə ("Ögey ana"), Telli ("Böyük dayaq"), Züleyxa ("Ulduz"), Cənnət xala ("Qayınana"), Gülsüm ("Molla Fətəlinin sərgüzəşti"), Əsli xala ("Bəyin oğurlanması") kimi parlaq obrazları yada düşür və çöhrələrə təbəssüm qonur. Çünki o, məişət yumorunu incə ştrixlərlə ictimai-sosial mahiyyətə yönəldə, rolların xarakterini hərəkətdə (yeriş, duruş, oturuş, replika və sair) koloritli tərzdə verə bilib və bütün improvizələri çox təbii təsir bağışlayıb. Dövlət mükafatı, fəxri adı, orden və medalları Nəsibə Zeynalovanın bənzərsiz sənətinə verilən yüksək qiymətdir.



Azərbaycanın Lütfəli Abdullayev, Hacıbaba Bağırov, Səyavuş Aslan kimi sənət ulduzları onunla bir səhnədə və ya kino epizodunda olarkən özlərini, necə deyərlər, suda balıq kimi hiss edir, daha böyük həvəslə oynayırdılar. Tanınmış aktyor, mərhum Əməkdar artist Novruz Qartal (Əliyev) onunla bağlı xatirələrini danışanda deyirdi ki, Nəsibə xanımın evində boya-başa çatıb, onun çörəyini yeyib: "O mənə "oğlum" deyərdi, mən ona "ana". Oğlu Cahangirlə həmişə bir yerdə olmuşuq. Nəsibə xanım ulduz aktrisa olmaqla yanaşı, nəcib ana idi. O, çox sadə, mehriban, müdrik insan olub. Nəsibə xanım heç zaman özünü yuxarıdan aparmayıb. Sənəti isə göz qabağındadır, bütün millət ona vurğundur. Biz Nəsibə xanımla bir çox qastrol səfərlərində olmuşuq, "Hicran", "Məhəbbət oyunu" , "Gözün aydın", "Durna" və bir çox tamaşalarda onunla tərəf müqabili idik".

Bu da maraqlıdır ki, milli gülüş zirvəsi sayılan aktrisa ciddi xarakterli obrazlar yaratmaq potensialının lazımınca dəyərləndirilmədiyindən narazı qalaraq, rejissorların onu həmişə komik planda görməsindən gileylənib. Sonuncu dəfə Cahangir Novruzovla "Əmanət" tamaşası üzərində işləyib. Məşqlər başlansa da, aktrisanın səhhəti pisləşdiyi üçün bu səhnə işi yarımçıq qalıb. 10 Mart – Milli Teatr Günündə dünyaya əlvida deyib.

Düz 65 il teatrda çalışan aktrisa ömrünün son günlərində teatr üçün çox darıxaraq deyirmiş: "Heyif, Allah mənə möhlət versəydi, sağlamlığım yerində olsaydı, yenə də oynayardım".

Bu günlərdə hansısa telekanalda növbəti dəfə "Qayınana" film-komediyası göstərilirdi. Yenə də həvəslə baxdıq. Böyük sənətkarın Fuad Poladov (Ayaz), Səfurə İbrahimova (Sədaqət), İlqar Namiq Kamal (İlqar), Tələt Rəhmanov (qardaşoğlu Əli), İnarə Quliyeva (Afət) və Tanilə Əhmərova (Sevda) ilə kadrlarda çıxardığı "pəstah"lara doyunca güldük. Bu ovqatda, ilk növbədə, Nəsibə Zeynalovanın əsərə bəxş etdiyi təbii kolorit dururdu.

Tamaşaçıların hər ifasını səbirsizliklə gözlədikləri və böyük rəğbətlə qarşıladıqları Nəsibə Zeynalova insanlara mənalı gülüş və bol sevinc bəxş edərək, sənəti ilə yumorun böyük tərbiyəvi əhəmiyyətə malik olduğunu yaradıcılığı boyu sübuta yetirib.

...Bakıdakı Birinci Fəxri xiyabana kiminsə ziyarətinə gedənlər orada unudulmaz Nəsibə Zeynalovanın məzarı üstündəki abidəsini görən kimi bir anlıq ayaq saxlayır, ruhuna ehtiramlarını ifadə edirlər. Bu, sənətkara əsl xalq sevgisinin təzahürüdür.

***Ə.DOSTƏLİ***
***XQ***

*Tanıyaq və tanıdaq*

# Teatr fədaisi – Hüseyn Rafi

**Elə aktyorlar var ki, zamanın burulğanlarında görünməz olurlar. Amma onlar heç vəchlə unudulmağa layiq deyillər, çünki milli teatrın yaşaması, inkişafı yolunda ömürlərini sənətə fəda ediblər. Belə sənətkarlardan biri də uzun illər Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında çalışmış, saysız-hesabsız rollar oynamış aktyor Hüseyn Rafidir. Sənədlərdə Əlizadə Hüseyn Gülbala oğlu qeyd edilir, sənət aləmində isə Hüseyn Rafi kimi tanınır.**

Rafi sözünün mənası "ucaldan", "yüksəldən" deməkdir. Hüseyn Rafi yaratdığı obrazlarla sənəti də, adını da ucaldıb. Realist aktyor məktəbinin nümayəndələrindən hesab olunan Hüseyn Rafi 1908-ci ildə Bakının Buzovna qəsəbəsində dünyaya göz açıb. İlk təhsilini o dövrün bütün uşaqları kimi mollaxanada alıb. İlk müəllimi "Məcməüş-şüəra" ədəbi məktəbinin tanınmış şairlərindən olan Məhəmmədismayıl Asi olub. 9 yaşında ikən Alekseyev adına Ali İbtidai Məktəbə daxil olub və burada dörd il təhsil alıb. 2 il Şura məktəbində müxtəlif işlərdə çalışıb.

Aktyorluğa həvəs onu Mərkəzi Fəhlə Klubunun dram dərnəyinə gətirib çıxarıb. O, burada B.Talıblının "Kef içində", Cəfər Cabbarlının "Aydın", "Oqtay Eloğlu", Ə.Haqverdiyevin "Dağılan tifaq", S.S.Axundovun "Laçın yuvası", Nəriman Nərimanovun "Şamdan bəy" tamaşalarında müxtəlif rollar oynayıb. Bu klubda Milli Dram Teatrının qüdrətli aktyorları Abbasmirzə Şərifzadə, Sidqi Ruhulla, Mirzağa Əliyev, Möhsün Sənani və digərləri mütəmadi olaraq iştirak edirdilər. Onlar Hüseynin istedadını görüb ona M.F.Axundzadə adına Teatr Məktəbinə (Texnikumuna) daxil olmağı tövsiyə edirlər. Yeniyetmə Hüseyn bu tövsiyəyə əməl edir və texnikuma daxil olur. Daha sonra Bakıda İşçi teatrlarının yardımçı aktyor heyətinin tərkibində çıxışlar edir.

1929-cu ildə texnikumu bitirən Hüseyn təyinatla Naxçıvan Dövlət Dram Teatrına göndərilir. Orada dörd il fəaliyyət göstərir və aktyor kimi püxtələşir. 1933-cü ildə Bakıya qayıdır və həmin il dekabrın 27-də Milli Dram Teatrına aktyor kimi qəbul olunur. Teatrşünas, professor İlham Rəhimli "Səhnəyə qovuşan cığırlar" kitabında yazır ki, zəhmətkeş və teatrdaxili intizamı həssaslıqla gözləyən Hüseyn Rafi teatrın baş rejissoru ilə məşqdə mübahisə etdiyinə görə 29 sentyabr 1952-ci ildə işdən çıxarılıb. 29 iyul 1953-cü ildə məhkəmənin qərarı ilə o, yenidən teatrda özünün aktyor ştatına qəbul edilib.

O vaxtdan ömrünün sonuna kimi Akademik Milli Dram Teatrında çalışan Hüseyn Rafi 70-dən artıq obrazı canlandırıb. Onun obrazlar qalereyası rəngarəngdir: C.Cabbarlının "1905-ci ildə" əsərində Ağayar, "Almaz"da Balarza, "Od gəlini"ndə Rəbi və Altay, "Aydın"da Qurban, "Yaşar"da Nüsrət, Mirzə Cəlilin "Ölülər"ində Şeyx Əhməd, Hüseyn Cavidin "Şeyx Sənan"ında Şeyx Kəbir, Səməd Vurğunun "Vaqif" dramında İlyas, Rəsul Rzanın "Vəfa" pyesində Cəfərqulu, Süleyman Rüstəmin "Qaçaq Nəbi"sində Cümşüd bəy, Sabit Rəhmanın "Toy" tamaşasında Salmanov, Mir Cəlalın "Mirzə Xəyal" tamaşasında İbad, Ənvər Məmmədxanlının "Od içində" tamaşasında Baftayi...

Rafi dünya dramaturqlarının əsərlərində də unudulmaz obrazlar yaradıb. Şekspirin "Qış nağılı"nda Hakim, "Otello"da Senator, "On ikinci gecə"də Fabian, "Kral Lir"də Osvald, "Romeo və Cülyetta"da Samson, "Maqbet"də Sivard, Lope de Veqanın "Sevilya ulduzu"nda Farfon, Pyer Bomarşenin "Fiqaronun toyu" tamaşasında Bartolo, Çexovun "Vanya dayı"sında xidmətçi, Şillerin "Qaçaqlar"ında Şüfferli və sair.

Hüseyn Rafi bütün həyatı boyu bir gün də olsun, teatrdan ayrı yaşamayıb. 1963-cü ildə rejissor Əşrəf Quliyev Sabit Rəhmanın "Toy" tamaşasına quruluş verir. O, bu tamaşada İbrahim obrazını canlandırır. Premyera 14 oktyabr 1963-cü ildə baş tutur. 1964-



cü ilin əvvəllərində Hüseyn Rafi Şekspirin "Antonio və Kleopatra" tamaşasında Efroni rolunun məşqlərini edirdi. Lakin xəstəlik ona məşqləri başa çatdırmağa imkan vermir. "Antonio və Kleopatra"nın ilk tamaşası 23 aprel 1964-cü ildə nümayiş etdirilir. 10 gündən sonra isə Rafi gözlərini əbədi yumur.

Hüseyn Rafi cəmi 56 il ömür sürdü. Tanrının yazdığı ömrü Azərbaycan teatrına sərf etdi.

Bizim kənddə (Buzovnada) qocaman bir müəllim yaşayırdı – Abbasqulu Abdullayev. O, vaxtilə Bakıda "İttihad" məktəbində Almas Yıldırımla birlikdə oxumuş, Abdulla Şaiqdən, Seyid Hüseyndən dərs almışdı. Hüseyn Rafinin adını ilk dəfə ondan eşitmişdim. Danışırdı ki, Hüseyn Rafi son dərəcə ciddi, eyni zamanda dərin biliyə malik idi. Ağayana yerişi vardı, insanlar ona yaxınlaşmağa bəzən cürət etmirdilər. Kənardan öz rəğbətlərini, hörmət və ehtiramlarını ifadə edirdilər. Abbasqulu müəllimin xatirələri Ədəbiyyat Fondunda qorunub saxlanılır. Çox güman ki, o xatirələrdə Hüseyn Rafinin də adı keçir. İstərdim ki, həmin xatirələr geniş oxucu kütləsinə çatdırılsın.

Azərbaycan teatr tarixinə Hüseyn Rafinin də adı silinməz izlərlə yazılıb. Bu yazı da ötən əsrdə yaşamış, iz qoymuş daha bir sənətkarımızı gənc nəslə tanıtmaq niyyəti daşıyır.

***Kənan HACI,***
***yazıçı-dramaturq***

## Şahbuz rayonu "Şahşərab" ASC səhmdarlarının nəzərinə!

1 may 2026-cı il saat 11:00-da Şahbuz rayonu "Şahşərab" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Ünvan:** Bakı şəhəri, Nəsimi rayonu, Hənifə Ələsgərov küçəsi 35, Fairness Vəkil Bürosu.

**Gündəlikdəki məsələlər:**

**1.** Vərəsəlik əsasında səhmdarlıq hüququnun tanınması.

**2.** İdarə heyətinin sədrinin təyin edilməsi.

**Qeyd:** cəmiyyətin yeganə səhmdarı Kazımov Faiq Feyzulla oğlu olduğu üçün yığıncaq onun iştirakı ilə keçiriləcəkdir.

***İmza: Kazımov Faiq Feyzulla***

## "Hədiyyələr" ASC səhmdarlarının nəzərinə!

26 may 2026-cı il saat 11:00-da "Hədiyyələr" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2025-ci ilin yekunları üzrə cəmiyyətin icra orqanının hesabatının dinlənilməsi və balansın təsdiqi.

**Digər məsələlər.**

**2.** Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə 2026-cı il mayın 21-də cəmiyyətin inzibati binasında tanış olmaq mümkündür.

**Telefon:** 012-560-09-71.

**Ünvan:** Bakı şəhəri, Nəsimi rayonu, A. Salamzadə küçəsi 31.

***"HƏDİYYƏLƏR" ASC-nin direktoru***
***Zöhrab Həsənov***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 66 (31035) 18 aprel 2026-cı il, şənbə

*Təbiət idraka çağırır bizi*

# Çiçəkli kəndinə yağan yağışlar

**Çiçəkli kəndinin adamları el-obanın qədrini yaxşı bilir. Doğma yerlərin dəyərini bildikləri üçün də insansevərdirlər. Bu kənd özəllikləri və bir çox əlamətləri ilə başqa kəndlərdən fərqlənir. Obanın adamları torpağa daha çox bağlıdır. Çiçəklinin cavanlarını şəhər, qocalarını isə torpaq özünə çəkir. Aşıq Veysəl gözəl deyib: "Mənim sadiq yarım qara torpaqdır".**



Doğulduğumuz yerin torpağı haqqında duyğularımızı hansı sözlə ifadə etsək, yenə azdır. Çünki o torpaqda izimiz var. Göbəyimiz o torpaqda kəsilib. Kökümüz o torpağa bağlıdır. Heç nəyi torpaqla müqayisə etmək mümkün deyil.

Çiçəkli kəndinin torpağı gül açanda insan kimi sevinir. Öz qoynunda bitirdiyi gülləri qoxlayan torpağın xoş halına! Bu torpağın təkrarsız gözəlliyi, Çiçəklinin adamlarının mənəvi zənginliyi zaman-zaman öz heyranlarını yetişdirir.

Kəndin ətəyində göz işlədikcə uzanan bərəkətli torpaq sahələrində çiçəklilər nə əkirsə, bitir. Əkdikləri ağacları və gülləri elə becərir, torpağa elə qulluq edirdilər ki, məhsulları aşıb-daşır.

Əkinçiliklə məşğul olduqlarına görə, münbit torpaqda məskən salıblar. Hər kəs öz təsərrüfatı daxilində əkdiyini əkir, biçdiyini biçir. Amma Çiçəklidə adamların min bir əziyyətlə əkib-becərdiyi torpaq sahəsinə bilərəkdən mal-qarasını ötürüb ziyan vuran kəmfürsət də varmış. O nanəcibin qeyri-insani hərəkətləri kəndin yaşlı sakinlərinin yaxşı yadındadır. Doğrudan da:

**Adı üstündədir bütün bəşərin,**
**Adı üstündədir şeytanın, şərin.**

...Çiçəkli kəndinə çatanda mülayim bir yaz günü idi. Kənddən biraz aralıda yerləşən əkin sahələrində böyük ruh yüksəkliyi hökm sürürdü. Sanki çiçəklilər əmək yarışına çıxmışdı. Onları işdən ayırmağa ürək etmədim. Ətrafı seyr etdim.

Elə bil, o yerlərdə bahar yağış kimi yağıb, çiçək kimi boy vermişdi. Buludların yağış hörüyü ana torpağın çiynindən aşağı tökülürdü. Biz uşaq olanda kəndimizdə də belə narın yağışlar yağardı. Biz o yağışa "günnü yağış" deyirdik. Bir yandan yağış yağır, bir yandan da yağışdan islanmış köynəyimizi elə bil, kimsə sıxıb qurudurdu.

Duyğularım bahar yelləri kimi Çiçəklini qarış-qarış gəzib dolaşdı. Yəqin ki, bahar gəlməsəydi, mən də bu yerlərə gəlməzdim deyə, bir anlıq düşündüm.

Yaşlı bir kişi hündür salxım söyüdün altında, torpağın üstündə oturmuşdu. Salxım söyüdün yamyaşıl budaqları ehmalca qocanın çiyinlərinə toxunurdu. Salamlaşıb görüşdük. Ağacın altındakı döşəkçələrdən birini götürüb yanına qoydu. Gəl, yaxın otur, qonaq qardaş. Qonaq Allah qonağıdır. Çiçəkli kəndinin adamları qonağı gül-çiçəklə qarşılayar və yedirib içirmədən buraxmaz, - dedi.

Qocanın nağılvari söhbətini maraqla dinləyirdim. O, kəndin tarixindən, təbiətindən və zəhmət adamlarından danışırdı:

- Çiçəklidə ilin bu çağında hər tərəfdə yaz cücərir, torpaq gül becərir. Burada buludlar qışda çiçəkləyir. Yazda isə lopa-lopa qar kimi yağır. Bir bax, ağaclarda qar kimi yağan nə qədər ağappaq çiçək var. Səmanı raketlərlə şumlamasalar, hamısı yayda şirin nübar kimi yetişəcək. Ulu göylərə də qayğı gərəkdir. Ulduzlar nə vaxtsa Tanrının hikmətilə toxum kimi səpilib, göy üzündə çiçək açıb.

Çiçəklidə diqqətçəkən cəhətlərdən biri də çiçəklər aləminin qərinələr boyu yaşamağı və davamlılığıdır. Dünyanın başqa guşələrində çoxdan məhv olub getmiş gül-çiçək növləri burada nəinki yaşayır, hətta get-gedə çoxalır.

Qonşu kənddə Allahdan qorxmayan bir məxluq yaşayırdı. İnsanlıqdan çox uzaq idi. Nə torpaqda izi, nə də süfrədə üzü vardı. Əlinə fürsət düşən kimi mal-qarasını qonşuların əkin sahəsinə, gülçülük təsərrüfatına ötürürdü. Özünün yazılmamış qanunları ilə yaşayırdı. Feodal əxlaq qaydaları onun həyatını pozdu. Ailəsi dağıldı. Özü də hansı cəhənnəmə getdi, heç bilən olmadı. İndi yurdunda bayquşlar ulayır.

Onun həyatında gərəksiz koldan başqa heç nə əmələ gəlmir. Çünki lənətlənmiş adamın əkdiyi də bitmir. Ora heç kim yaxın getmir. Sanki minalanmış bir əraziyə çevrilib.

Müdrik qoca dedi ki, həmin kolun adı kəndimizin adamlarının dilində başqa cür səslənir. Ona görə o kolun adının üstündən sükutla keçdik. Amma Türkiyənin ən böyük romançılarından biri olan Yaşar Kamal "İncə Məmməd" romanında o kolun adını "Süpürüm kolu" kimi qeyd edib. Romanda oxuyuruq: "Süpürüm kolu ən pis, ən bərəkətsiz torpaqlarda bitir. Belə torpaqda ot bitməz, ağac bitməz, hətta eşşəkənciri də bitməz. Ancaq süpürüm kolu bol-bol bitər, böyüyər, artar. O qədər sıx bitər ki, üstündən iynə atsan, yerə düşməz".

Həmsöhbətim də qeyd edirdi ki, o kolun turş və xoş olmayan qoxusu var. Onun qoxusu o qədər ağırdır ki, heç budağına quş da qonmur. Süpürüm kolunu suya atsan batmaz, oda atsan, yanmaz. Dünyanın işi belədir. Təbiət torpaqda gül də bitirir, tikan da yetirir.

...Gözəl Çiçəkli kəndinin qoynundan çıxanda göylərin üzünü buludlar almışdı. Havadan narın-narın yağış ələnirdi. Ağac da, daş da, ot da burda gül kimi ətir saçırdı. Günəşə boylanan gözəlliyi gördükcə ürəyim tumurcuq kimi açılırdı. Evlərin navalçaları ney kimi səslənir, nəğmələnirdi. Sanki yağan yağış deyildi, göydən üstümə gül-çiçəyin ətri çilənirdi.

Birazdan şəhərə üz tutmalıydım. Özüm Çiçəklidən ayrılıb şəhərə dönsəm də, könlüm o yerlərdən dönmürdü.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

## İDMAN

### Avropa çempionatında 3-cü medalımız



**Azərbaycan cüdoçusu Hidayət Heydərov Gürcüstanın paytaxtı Tbilisidə keçirilən Avropa çempionatında gümüş medal qazanıb.**

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, 73 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız finalda ev sahibi Laşa Şavdatuaşviliyə uduzub. Bununla da o, karyerasında ikinci dəfə qitə birinciliyinin gümüş medalına sahib çıxıb.

H.Heydərov qitə çempionatında keçirdiyi görüşlərdə 1/16 finalda Konstantinos Tsaparas (Yunanıstan), 1/8 finalda Dardan Çenan (Kosovo), 1/4 finalda Dayyan Boulemtafes (Fransa), yarımfinalda isə Bilal Çiloğlunu (Türkiyə) məğlub etmişdi.

Qeyd edək ki, ötən gün mübarizəyə qoşulan 7 cüdoçumuzdan ikisi – Əhməd Yusifov (60 kq) və Turan Bayramov (66 kq) bürünc medal qazanıb.

Avropa çempionatı sabah başa çatacaq.

### Nicat Abasov liderliyə yüksəlib

**Polşanın Katovitse şəhərində təşkil edilən şahmat üzrə şəxsi Avropa çempionatında 9-cu tur sona çatıb.**



Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, hesabat turunda İsrail təmsilçisi Benni Ayzenberqi məğlub edən azərbaycanlı şahmatçı Nicat Abasov liderliyə yüksəlib. Aydın Süleymanlı ispan David Giharro ilə ilə heç-heçə edib.

Hazırda 7 xal toplayan Süleymanlı 5-ci pillədə qərarlaşıb. Hərəyə 7,5 xal toplayan Nicat Abasov və ispaniyalı David Giharro 9 turdan sonra 1-2-ci yerləri bölüşür. 7 xal toplayan digər azərbaycanlı şahmatçı Məhəmməd Muradlı 12-ci pillədədir.

Bu gün oynanılacaq 10-cu tur liderlərin duelilə diqqəti cəlb edir. Eyni xala malik Nicat Abasovla David Giharonun mübarizəsi vahid lideri müəyyənləşdirə bilər.

Liderlərdən uzaqlaşan Riad Səmədov, Xaqan Əhməd və Xəzər Babazadə hərəyə 6 xal toplayıb.

Qeyd edək ki, Avropa çempionatında ilk 20-likdə qərarlaşacaq şahmatçılar Dünya Kubokuna vəsiqə qazanacaq.

### Misli Premyer Liqasında 28-ci tur



**Dünən Misli Premyer Liqasında 28-ci tura start verilib. "Turan Tovuz" "Araz-Naxçıvan"la üz-üzə gəlib. Sumqayıtdakı "SOCAR Polymer Arena"da baş tutan qarşılaşma qərb təmsilçisinin qələbəsi ilə başa çatıb–3:0. Tovuz klubu 55 xalla üçüncü, Naxçıvan təmsilçisi 39 xalla altıncı pillədə qərarlaşıb.**

Günün ikinci matçında "Neftçi" səfərdə "Zirə"nin qonağı olub. "Zirə" İdman Kompleksinin stadionunda keçirilən qarşılaşma 1:1 hesabı ilə başa çatıb. Rəqibindən bir oyun az keçirən "ağ-qaralar" 44 xalla beşinci, meydan sahibləri 45 xalla dördüncü sıradadır.

Tura aprelin 19-da yekun vurulacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Futbol tariximizdən*

# Açılış oyununda hesab açılmadı...

**"Neftçi" SSRİ çempionatlarının güclülər dəstəsi ilə 4 illik ayrılıqdan sonra 1977-ci ildə yenidən "yüksək liqa"da təmsil olunmaq hüququ qazanmışdı. Böyük futbol üçün darıxmış bakılı azarkeşlər həmin il aprelin 2-də paytaxtımızda Moskvanın "Dinamo" komandası ilə 40-cı çempionatın açılış oyununda respublika stadionunun tribunalarında, demək olar, bir boş yer belə qoymamışdılar. Ancaq çempionat açılsa da, hesab açılmadı. 37 min tamaşaçı leninqradlı hakim A.İvanovun final fitindən sonra stadionu oyunun bəzəyi olan qol görmədən tərk etdi–0:0.**



Bir erkən bahar axşamında lentə alındıqları andan 49 il sonra diqqətinizə çatdırdığımız fotoların da təsdiq etdiyi kimi, gərgin mübarizə, qarşılıqlı kəskin hücumlar şəraitində davam edən oyunda meydana kapitan sarğısı ilə çıxmış bakılıların hücumçusu Nikolay Smolnikov və yarımmüdafiəçi Səməd Qurbanov komanda yoldaşları ilə birlikdə moskvalı qonaqlarının müqavimətini qırmağa, onların qapıçısı Vladimir Pilquyu heç olmasa, topu bir dəfə tordan çıxarmağa məcbur etmək üçün çox çalışsalar da, məqsədə çata bilmədilər. Elə "Dinamo" da özünün bütün hücum əməliyyatlarından nəsə bir fayda götürməyi bacarmadı.

Nəticədə, şəhərimizdə mövsümün ilk oyununda qolsuz heç-heçə qeydə alındı və rəqiblər çempionata hərəyə 1 xalla başladılar.

"Neftçi" turnirdə ilk xalını Sergey Kramarenko, Rafiq Quliyev, Bəxtiyar Qulamov, Arif Orucov, Asəf Namazov, Tofiq Abbasov, Füzuli Cavadov (Anatoli Banişevski 64), Asif Əliyev, Elbrus Abbasov, Səməd Qurbanov və Nikolay Smolnikovdan ibarət heyətlə qazandı.

Qırxıncı çempionatda Bakı komandasının heyətində ən çox oyunu Smolnikov keçirdi. Hücumçumuz 30 görüşün hamısında meydana çıxdı və 9 qolla komandasının ən məhsuldar oyunçusu oldu. "Neftçi"nin baş məşqçisi Gennadi Bondarenko Qurbanova da yüksək etimad göstərib, onu 26 görüşdə meydana buraxdı. Komandamızın çempionatda finişə 27 xalla 13-cü yerdə çatdığını, "Dinamo"nun isə (35 xal) dördüncü nəticə göstərdiyini də qeyd edək.

...Bu arada "Neftçi" Peşəkar Futbol Klubunun 90 illik yubileyinə bir ay da yaxınlaşdıq. İndi 2027-ci il martın 18-nə 11 ay qalır.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## HAVA

# Bakıda yağmursuz, qərb rayonlarında axşam yağış, dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-13, gündüz 16-21 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət 65-70 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi qərb rayonlarında qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 8-11, gündüz 18-23, dağlarda gecə 0-5, gündüz 10-15, bəzi yerlərdə 18 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

*✓ 1992-ci ildə Zəngilan rayonunun 30-cu kilometr orta məktəbi tərəfindən Mehralıyev Vüqar Mehralı oğlunun adına verilmiş orta təhsil haqqında A seriyalı, 266628 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.*

*✓ 2023-cü il aprelin 17-də "Avto Tex Ekspert Serviz" MMC tərəfindən Abışov Vüqar Nazim oğlunun adına verilmiş AES seriyalı, 002115 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.*

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

Ü N V A N I M I Z:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3118
SİFARİŞ 490
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00